

## Əli Əsədov Novruz Məmmədovun bu qərarına dəyişiklik etdi

*Nazirlər kabineti "Vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 11 oktyabr 2018-ci il tarixli qərarında dəyişiklik edib. Unikal.org xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Dövlət borcu və zəmanəti üzrə öhdəliklərinTəminat Fondundan transfert büdcə gəlirlərinin təsnifatına daxil edilib.*

Səh.2



## Emin Əmrullayev "Mərdanov ənənəsi" ilə üz-üzə!

# UNİKAL

№14 (2052) 16 aprel 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru

Səh.13



## Azərbaycan Prezidentindən Zəngəzur mesajı

## Azərbaycan məktəblərindəki maliyyə pozuntularının sonu olacaqmı? - 8 ildir cavabını gözləyən sual...

*Bu yaxınlarda Yevlaxda məktəb direktoruna qarşı cinayət işi açıldığı məlum oldu; rəsmi məlumatda deyilirdi ki, həmin rayonun Əkşəm kənd tam orta məktəbinin direktoru vəzifəsində işləmiş Bəkirov Babək Nizam oğlunun 2014-2020-ci illər ərzində dövlət büdcəsi vəsaitlərini mənimsəməsi faktı aşkarlanıb. "Aparılmış araşdırmalarla Babək Bəkirovun işdən azad edilmiş şəxsin adını vəzifəsini icra etmədiyi halda 5 il müddətində məktəbin əmək haqqı ödəniş cədvəllərinə daxil etməklə bank kartına köçürülmüş əməkhaqqı və digər ödənişləri nağdlaşdıraraq götürüb mənimsəməsinə əsaslı şübhələr yaranıb. Eyni zamanda ayrı-ayrı müəllimlərin adlarına əlavə dərs saatları yazaraq rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməsinə...*

Səh.12

## "MTN dövlətin milli təhlükəsizliyi ilə məşğul deyildi"



*Xəbər verdiyimiz kimi, bir müddət öncə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq idarə rəisləri, generallar Mövlan Şıxalıyev və Nizami Şirinov saxlanılıb. Hər iki şəxs Baş Prokurorluğun İstintaq İdarəsində dindirilib, daha sonra Nəsimi rayon Məhkəməsi tərəfindən hər iki general barəsində həbs...*

Səh.4

## Əsabil Qasımovun adı indi də tikinti qalmaqallarında hallanır



*Keçmiş millət vəkili, eyni zamanda Azərbaycanın ən iri oliqarxlarından biri olan Əsabil Qasımovun adı növbəti qalmqala qarışıb. Belə ki, Bakı şəhər sakini Zərifə Zülfüqarova tərəfindən yerli mediaya daxil olan müraciətdə sabiq deputatın da adı hallanır.*

Səh.8

## "Ermənistan nə özünə, nə də tarixinə güvənir" - Çavuşoğlu



"Qondarma "erməni soyqırımı" ilə bağlı Ermənistana ortaq komissiya yaratmaq barədə təklif vermişdik. Ermənistan nə özünə, nə də tarixinə güvənir, əksinə propaqandaya üstünlük verir". "Unikal" xəbərinə görə, bunu Türkiyənin xarici...

Səh.3

# Müğənni Rusiya toylarına gedən sənətçiləri ələ saldı



***"Mənə bloqqer Sevinc deyirlər. Gileylənməyəcəm, sosial şəbəkələrdən qazanıram. Reklamlar, "Youtube" hesabına dolanıram. Əvvəlki kimi deyil, amma Moskvaya göyərti qiymətinə toya getməyə dəymər".***

Bu sözləri əkiz bacılardan biri olan Sevinc Səfərova "Səhər mərkəzi" proqramında deyib. Sənətçi pandemiyada qazancından bəhs edib. O, Rusiya toylarına gedən sənət adamlarını ələ salıb:

"İnsan özünə, sənətinə qiymət verməlidir. Düşünməlisiniz ki, orada illərdi yaşayan, çalışan, maddi sərhədi aşmayan ifaçılar var. İndi gedənlər orada yaşayanlara mane olurlar. Elə bir qiymətə toya gedirlər ki... Baxıb deyir ki, onu bu qiymətə çağırmaqdansa, Azərbaycandan gələn on başqa ifaçını dəvət edərəm. Bu dərdi Allah bizə verib, dözməliyik. Lazım deyil hamı köçsün ora".

# Rəmiş son nəfəsində nə deyib? - Həyat yoldaşı açıqladı



***"Ağzı açıq idi, zorla bağladım. Mənə nə isə söyləmək istəyirdi, deyə bilmədi".***

"Unikal" xəbər verir ki, ötənlərdə uzunmüddətli xəstəlikdən sonra vəfat edən xalq artisti Rafiq Hüseynovun (Rəmiş) həyat yoldaşı Gülü xanım "Lent.az"a danışıb.

O, Rəmişin son anlarından bəhs edib: "Gördüm Rəmişin saturasiyası 50-ə düşüb. Dəhlizə qaçdım ki həkim çağırım, qışqırdım səsimə səs verən olmadı. Bir həkim yanımdan keçdi, ona durumu izah elədim, bir söz demədi. Axırda Vüqar doktor gəldi. O da ağ ciyər həkimidir. Dedi, reanimasiyaya keçirmək lazımdır.

Elə də etdilər. Gördüm ki, Rəmişin əli saralıb. Sonra qolundan tutdum, özündə deyildi.

Həkim ürək masajı edirdi. Dedim, artıq özündə deyil. Qayıtdı ki, hə Gülü, onu itirdik. Ağzı açıq idi, zorla bağladım. Mənə nə isə söyləmək istəyirdi, deyə bilmədi. Gözünə sığal çəkdim. Sonra Rəmişi bükdülər. Qardaşını, qardaşı uşaqlarını çağırdım".



# Xalq artisti koronavirus dəhşətindən danışdı - "Qripdən çox-çox ağırdır"

***"Çox şükür ki, yaxşıyam, xəstəxanadan evə buraxılmışam. Hələ ki, karantindəyəm, bilirsiz də, 14 gün evdə karantin şəraitində yaşamalıyam. Dərmanlarımı qəbul edib, özümə immunitet toplayıram. Düzdür, bir az zəifliyim var, bu xəstəlik həqiqətən də çox ağırdır. Deyirlər ki, adi qrip kimidir, xeyr, qripdən çox-çox ağırdır. Ona görə də mən arzu edirəm ki, hamı özünü koronovirusdan qorusun. Mən özüm də qorundum, heç yerə getmədim, hardan tutdum, heç özüm də bilmirəm. Ola bilər ki, yaşla əlaqədardır".***

"Unikal" xəbər verir ki, bunu Moderator.az-a açıqlamasında bir müddət əvvəl koronovirusa yoluxaraq xəstəxanaya yerləşdirilən Xalq artisti, Akademik Milli Dram Teatrının aktrisası Bəsti Cəfərova deyib. Aktrisa daha sonra əlavə edib.

"Biz aktyorlar hər zaman işdə-gücdə olmuşuq. İndi birdənbirə evə qapanmışıq, bu bir az bizim üçün çətindir. Amma digər tərəfdən düşünəndə, xəstəxanada həkimlərin fədakarlıq göstərdiyini görəndə fikirləşdim ki, əvvəl sağlamlıqdır, daha sonra sənət və digər şeylər. İndi vaksinasiya prossesi də sürətlə aparılır. Deyirlər ki, sentyabr ayında hər şey yaxşı olacaq, həyat öz axarına qayıdacaq. Bizim də istəyimiz budur. Biz sənətçilər də tamaşaçılarımız üçün darıxmışıq. Mən pandemiyada da pedaqoji fəaliyyətimi davam etdirirəm, kursumla onlayn tamaşalar hazırlayıram. Bir əsər götürmüşdük, onun məşqini etdik, artıq o mərhələdəyik ki, həmin əsəri yekunlaşdırırıq" deyə Bəsti Cəfərova bildirib.

Xalq artisti daha sonra İctimai TV-də aparıcı çalışan qızı Fidan Cəfərovadan da danışıb.

"Fidan Mədəniyyət və İncəsənət Universitetinin televiziya və kinorejissorluğu fakültəsini bitirib. O ixtisasca rejissordur. İsrafil İsrafilov Akademik Milli Dram Teatrında direktor olduğu illərdə, yəni 2014-1015 ci illərdə studiya açmışdı. Universitetimizin tələbələri də bu studiyada iştirak edirdilər. İsrafil müəllim özü məsləhət gördü ki, Fidan bu studiyada çalışsın. Dedim axı o aktrisa deyil! Studiyada hazırlanan bir neçə tamaşada həm rejissor, həm də aktrisa kimi iştirak etdi. Rejissor Mərahim Fərzəlibəyov 2018-ci ildə "Qətibə İnanc" tamaşasını hazırlayanda təklif etdi ki, Qətibə İnancın cavan vaxtını Fidan oynasın. Daha sonra qızım televiziyaya rejissor kimi getdi. Ona aparıcılıq təklifi gəldi və Fidan da qəbul etdi. 3 ilə yaxındır ki, "Yeraltı" verilişinin aparıcısıdır. Qızım gözünü açandan görür ki, anası həm teatrda, həm də universitetdə işləyir, bir dəqiqə boş vaxtı yoxdur. Mənim qızıma da bu keçib, işləməyi sevir, işindən zövq alır. Çalışır ki, imza atdığı verilişləri adına layiq etsin" deyə aktrisa bildirib.

# Nura Surinin ad günü hədiyyəsi

***Müğənni Nura Suri doğum günündə yeni klipini və fotosessiyasını təqdim edib.***

"Unikal" xəbər verir ki, sənətçi bir neçə ay öncə ifa etdiyi sözləri Azər Şirin, musiqisi Tərlan Məmmədhüseynova aid "Hərdən bir" adlı mahnısını ekranlaşdırıb. Klipi rejissor Emin Muradov və Elimaxography birlikdə ərsəyə gətirib.

"Bu klipi ad günümdə özümə və sizə hədiyyə edirəm. Həyatımızda "Hərdən bir" yox, hər zaman xoşbəxtlik və uğur bizimlə olsun" deyə, Nura bildirib. İfaçının fotolarını Telman Heybətov çəkib.



# Zəngəzur dəhlizi regiona nə qazandıracaq?

Vüqar Bayramov:
“Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək”

***”Prezident İlham Əliyev Zəngəzur dəhlizinin reallığa çevrildiyini bəyan edib. Zəngəzur dəhlizi 1.1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri iqtisadi baxımdan birləşdirməklə yanaşı ölkəmizin starteji əhəmiyyətini də artıracaq. Dəhliz kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək”.***

Unikal.org xəbər verir ki, bunu deputat, iqtisadçı Vüqar Bayramov sosial şəbəkədə yazıb.

Deputat bildirib ki, Zəngəzur dəhlizinin istifadəyə verilməsi eyni zamanda Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirəcək:

”Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına, həm də maliyyə dəstəyi nümayiş etdirir. Bu, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq.

Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələri də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyəti daha da artıracaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək.”.

***Hüseyn***

# Nazir şəhid övladını yeni vəzifəyə təyin etdi

***Daxili işlər orqanlarında növbəti kadr islahatı aparılıb.***

Unikal.org Oxu.Az-a istinadən xəbər verir ki, bu barədə Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Əmrə əsasən, polis mayoru Məmmədov Fərid Şərif oğlu Gəncə Şəhər Baş Polis İdarəsinin baş müstəntiqi vəzifəsindən azad olunub.

O, Kəpəz Rayon Polis İdarəsinin Təhqiqat bölməsinə rəhbər təyin olunub.

Qeyd edək ki, Fərid Məmmədov Birinci Qarabağ müharibəsi şəhidi Şərif Məmmədovun oğludur.

# Vətən Müharibəsi iştirakçısına vəzifə verildi

***Ağstafa rayon İcra Hakimiyyətində (RİH) yeni təyinat olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Qədiməliyev Ariz Raquf oğlu RİH-nin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri təyin edilib.

A.Qədiməliyev daha öncə də Ağstafa RİH-də komendant kimi çalışıb. Qeyd edək ki, o, ehtiyatda olan zabit və Vətən Müharibəsi iştirakçısıdır.

***Murad İbrahimli***

# Emin Əmrullayev "Mərdanov ənənəsi" ilə üz-üzə!

## Azərbaycan məktəblərindəki maliyyə pozuntularının sonu olacaqmı? - 8 ildir cavabını gözləyən sual...

***Bu yaxınlarda Yevlaxda məktəb direktoruna qarşı cinayət işi açıldığı məlum oldu; rəsmi məlumatda deyilirdi ki, həmin rayonun Əkşəm kənd tam orta məktəbinin direktoru vəzifəsində işləmiş Bəkirov Babək Nizam oğlunun 2014-2020-ci illər ərzində dövlət büdcəsi vəsaitlərini mənimsəməsi faktı aşkarlanıb.***

“Aparılmış araşdırmalarla Babək Bəkirovun işdən azad edilmiş şəxsin adını vəzifəsini icra etmədiyi halda 5 il müddətində məktəbin əmək haqqı ödəniş cədvəllərinə daxil etməklə bank kartına köçürülmüş əməkhaqqı və digər ödənişləri nağdlaşdıraraq götürüb mənimsəməsinə əsaslı şübhələr yaranıb. Eyni zamanda ayrı-ayrı müəllimlərin adlarına əlavə dərs saatları yazaraq rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməsinə, müəssisənin təsərrüfat fəaliyyətini, avadanlıqların uçotunu və mühafizəsini təmin etməməklə hüquqi şəxs olan Yevlax rayon Təhsil şöbəsinin hüquqlarına və qanuni mənafelərinə ümumilikdə, 10 min manat məbləğində mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib” - Yevlax rayon prokurorluğunun məlumatında daha sonra deyilirdi.

Bu son vaxtlar Azərbaycanın ayrı-ayrı bölgələrində, eləcə də paytaxt və ətrafındakı məktəblərdə ciddi maliyyə pozuntularına yol verilməsi ilə bağlı aşkarlanan faktlardan sadəcə biridir. Bir neçə ay öncə Gədəbəy rayonu, Çobankənd kənd orta məktəbinin sabiq direktoru Sahib Babayevin də 2017-2019-cu illər ərzində direktor işlədiyi məktəbdə etibar edilmiş xeyli miqdarda özgə əmlakını talamaq üçün faktiki olaraq tədris edilməmiş məşğələ saatlarını ayrı-ayrı müəllimlərin adlarına tarifləşdirərək onların əməkhaqqı kartlarına köçürülmüş ümumilikdə 12 min 445 manat məbləğində pulu mənimsəməsinə əsaslı şübhələr müəyyən edilmişdi. Lənkəran rayonu, Şirinsu kənd orta məktəbinin sabiq direktoru Zeynəb Əhmədovanın isə işlədiyi müddət ərzində oz vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə işə qəbul üçün müraciət etmiş şəxsin tam ştat vahidi üzrə vakant elektrik vəzifəsinə təyin edilməsi müqabilində 500 manat məbləğində pul vəsaiti və digər maddi neməti alması ortaya çıxmışdı.

Belə nümunələrin sayını kifayət qədər artırmaq olar. Görünən odur ki, Misir Mərdanovun təhsil nairi postundan az qala 8 ildir uzaqlaşdırılmasına baxmayaraq onun dövründə orta məktəblərdə hədsiz dərəcədə geniş vüsət alan rüşvət, mənimsəmə kimi cinayətlərin kökünü qazımaq mümkün olmayıb. Halbuki Mərdanovu əvəzləyən yeni nazirlərin ilk mesajları məhz təhsil ocaqlarında bu cür neqativ halların aradan qaldırılması ilə bağlı olurdu. Elə hazırkı təhsil naziri Emin Əmrullayev də orta məktəblərdə rüşvət və korrupsiya kimi qanunsuz əməllərlə ciddi mübarizəyə dair mesajlar verib; lakin məktəb direktorlarının mütəmadi həbsləri təhsil ocaqlarında ”Mərdanov ənənəsi”nin hələ də yaşadığını göstərir.

Hətta iş o yerə çatıb ki, son vaxtlar müsabiqə və müsahibə yolu ilə işə qəbul edilmiş bəzi direktorların qanunsuz əməlləri ilə bağlı hallar da artıb. Bu isə təəssüf doğurur. Çünki belə məktəb direktorlarının köhnə vərdişlərdən uzaq dayanacağına inam çox idi. Elə təhsil ekspertləri də bu qənaəti bölüşürlər. Onlar ortaya çıxarılan qanunsuzluqlara zamanında şəhər və yaxud rayon təhsil şöbələrinin göz yumduqlarını vurğulayır, həmin şöbə, yaxud idarə rəislərini də baş verənlərdə məsuliyyət sahibi göstərirlər. Deyirlər ki, məhz bunun nəticəsində insanların təhsilə inamı azalıb.

Məsələn, təhsil eksperti Kamran Əsədov qeyd edib ki, vahid ştat cədvəlinə görə təhsil işçilərini orta ümumtəhsil məktəblərinə işə götürən və ya işdən azad edən hər bir şəxs avtomatik olaraq elektron portalda qeyd olunur. Sitat: ”Amma bölgələrdə bu qanun pozuntusu iki formatda həyata keçirilir: Birincisi, məktəb direktorları ailə üzvləri və dost-tanışlarının adını sistemə təmizlikçi, texniki işçi və.s vəzifəyə yazırlar. Lakin həmin şəxslər işə gəlmir, onların maaş kartı direktorda olur. İkincisi, direktorlar bir çox hallarda əlavə dərs və uşaq sayı yazmaqla süni şəkildə dərs yükünü və uşaq sayını artırıb dərs otaqlarını çoxaldırlar. Bu da



maliyyə pozuntusuna səbəb olur. Vaxtilə təklif etmişdim ki, orta ümumtəhsil məktəblərində müəllimlərin dərs saatından tutmuş digər məsələlər elektronlaşmalıdır. Yəni, heç bir müəllim birbaşa dərs saatı almamalı, işçilər kənar müdaxilə olmadan işə qəbul edilməlidir. Fikrimcə, bu qaydanın Azərbaycan təhsil sistemində tətbiq edilməməsi direktorların sui-istifadəsinə gətirib çıxarır”.

Ekspert onu da bildirib ki, məktəb direktorları kiminsə işdən azad olunmasına dair ərizə alırlar, amma həmin şəxslər işdən azad edilmir. Sitat: “Çünki kənd yeridir, o şəxslər haradasa təsərrüfat yerində çalışırlar və məktəbdə hansısa vəzifə daşımadıqları yadlarından çıxır. Direktorların bu tipli qanun pozuntularını mütəmadi olaraq müşahidə edə bilirik. Hesab edirəm ki, təhsil sistemində davamlı yoxlamaların həyata keçirilməməsi, bir çox hallarda təhsilin yuxarı qurumunda neqativ hallara qarşı göz yumulması ciddi pozuntulara səbəb olur. Nəticədə Azərbaycanda vətəndaşların təhsilə inamı ”ölür””.

Ekspertlə razılaşmamaq mümkün deyil. Lakin bunu da vurğulamaqda fayda var: Misir Mərdanovun dövründən qalma yeyinti, mənimsəmə, pulyığma ənənəsinin hələ də davam etməsi orta məktəblərdə kök salmış rüşvət və korrupsiyanın aradan qaldırılmasına qarşı mübarizənin qeyri-effektivliyindən xəbər verir. Bəs effektiv mübarizə üçün nə etmək lazımdır? Fikrimizcə, bu, hazırkı təhsil naziri E.Əmrullayevi düşündürən əsas məsələ olmalıdır. Əks halda Azərbaycanda təhsilə inamın tamamilə sarsılması qaçılmaz olacaq...

***Toğrul Əliyev***

# Azərbaycan Prezidentindən Zəngəzur mesajı

## Siyasilər hesab edirlər ki, Zəngəzur məsələsinin gündəmdə olması ərazi iddiası, aqressivlik deyil, siyasi təzyiq vasitəsidir



***"Azərbaycan tarixini silmək istəyənlər belə öyrədilib ki, guya onlar qəhrəmandırlar, əslində isə cinayətkardırlar. Azərbaycanlıları qətlə yetirən, soyqırımı törədən Şaumyan və digərləri və başqa misallar var. Beləliklə, biz istəyirik ki, gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilsin".***

Azərbaycan Prezidenti İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfransdakı çıxışında söylədiyi bu fikirlər ciddi müzakirə mövzusuna çevrilib. Hətta ölkə başçısının mesajları dünyanın mühüm media orqanlarının da diqqət mərkəzində olub. Zəngəzurun qədim Azərbaycan ərazisi olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "Zəngəzur 1920-ci ildə, 101 il bundan öncə Ermənistana verilib. Ondan əvvəl bu ərazi bizə məxsus idi. Mən Göyçə deyərkən, onlar hazırda Sevan gölü adlandırırlar. Bu, bir həqiqətdir. 20-ci əsrin əvvəllərindəki xəritəyə baxmaq kifayətdir. Siz oraya baxarkən Sevan görməyəcəksiniz. Siz orada Göyçəni görəcəksiniz. İrəvanla bağlı da eyni məsələdir. Onlar İrəvanın tarixi hissəsini dağıdıblar. Bu, aydın faktdır, mənim əcdadlarım daxil olmaqla, azərbaycanlılar orada yaşayıblar". Dövlətimizin başçısı qeyd edib ki, bu, faktdır. Lakin bu o demək deyil ki, bizim ərazi iddialarımız var: "Mən demişəm, bəli, biz oraya qayıdacağıq. Mən deməmişəm ki, biz oraya tankla qayıdacağıq. Mən demişəm biz qayıdacağıq. Bu o deməkdir ki, niyə də yox. Əgər biz Zəngəzur dəhlizinə qayıdırıqsa, əgər biz bu yolu istifadə ediriksə niyə də biz İrəvana qayıtmayaq. Zaman gələcək, biz bunu edəcəyik. Mən mövqeyimi təqdim edirəm. Azərbaycanlılar və ermənilər necə qarşılıqlı əlaqə qura bilərlər? Mən düşünürəm ki, bu, xeyli dərəcə istəkdən, siyasətçilərin müdrikliyindən asılı olacaq. Hesab edirəm ki, biz burada və İrəvanda dəmiryolunun bərpa edilməsi ən vacib addımlardan biridir. Azərbaycan öz üzərinə düşən işi görür. Hazırda Bərdədən Ağdama gedən yolun və Zəngilandan Naxçıvana gedəcək yolun bərpası üçün işlər görülür. Ermənistan tərəfi də kommunikasiya əlaqələri üçün lazım olan addımları atmalıdır. Bu proses nə qədər uzanarsa, ermənilər bir o qədər özlərini təcrid etmiş vəziyyətdə qalacaqlar. Ermənistan Azərbaycan və Türkiyə ilə münasibətləri yaxşılaşdırmayanadək regiondakı iqtisadi inkişafdan geri qalacaq".

Millət vəkili onu da qeyd edib ki, faktiki olaraq Azərbaycan öz enerji resurslarını Gürcüstan üzərindən Avropaya çıxara bilir, həmçinin Bakı-Tbilisi -Qars dəmiryolu xətti üzərindən yük daşımaları həyata keçirilir: "Azərbaycan artıq Çinin "Bir kəmər - bir yol" layihəsinin əsas tərəfdaşlarından və iştirakçılarından biridir. Ermənistan isə bu proseslərdən kənarda qalır. Yalnız kommunikasiya xətlərinin açılacağı təqdirdə Ermənistan iqtisadi və digər layihələrdə yaxından iştirak edə bilər. Bu da Ermənistanın inkişafı və regiona adaptasiyası üçün körpülər qurmaq üçün fəal olmalıyıq. Əlbəttə ki, Ermənistan tərəfi əgər bunu istəyirsə".

Məsələylə bağlı fikirlərini "Unikal"la bölüşən Milli Məclisin deputatı Naqif Həmzəyev deyib ki, Prezident İlham Əliyevin son çıxışı bir daha Azərbaycanın diqtə edən tərəf olduğunu dünyaya nümayiş etdiridi: "Bildiyimiz kimi, Azərbaycan 44 günlük Vətən Müharibəsində qələbə çaldıqdan sonra ərazi bütövlüyünü bərpa etdi. Hazırda Azərbaycan regionda daimi sülhün əldə edilməsi, kommunikasiyaların açılması, regionda iqtisadi inkişafın gücləndirilməsi üçün çox maraqlı təkliflərlə çıxış edir".

O bildirib ki, Azərbaycan və Ermənistan arasında Sovet dövründə olan kommunikasiya əlaqələrinin bərpası əsas məqsədlərdən biridir: "Mən düşünürəm ki, Zəngəzur dəhlizinin açılması, yeni Naxçıvanla quru və çox vacib amillərdir. Bütün bunlarla yanaşı, ərazi iddialarından əl çəkməzsə, ümumiyyətlə Ermənistanın müstəqilliyi sual altına düşə bilər. İqtisadi inkişaf olmadan bir ölkə nə qədər dotasiya ilə yaşaya bilər? Bu baxımdan erməni siyasi elitası baş vermiş hadisələri düzgün analiz etməli, regionda sülhü dəstəkləməli və Azərbaycan və Türkiyə ilə əlaqələrini yaxşılaşdırmalıdırlar".

Marqlısı odur ki, ölkə başçısının sözügedən bəyanatı müxalifət tərəfindən də müsbət qarşılanıb. "Zəngəzur məsələsinin gündəmdə olması ərazi iddiası, aqressivlik deyil - siyasi təzyiq vasitəsidir". Bunu REAL partiyasının icraçı katibi Natiq Cəfərli deyib. O bildirib ki, biz qonşularımızla sülh şəraitində yaşamaq istəyirik, iqtisadi və insani münasibətlərin yaranmasında, kommunikasiya xəttlərinin açılmasında, logistik əlaqələrin bərpasında maraqlıyıq: "Biz Ermənistanla dinc qonşuluq etməyə hazırıq, amma rəsmi İrəvən buna hazırdımı?! Sabah status məsələsini tək rəsmi İrəvan yox, Moskva, Paris, Vaşinqton qaldırsa nə olacaq?! Minsk Qrupu yerindəcə qalıb, heç yerə itməyib, rəsmi Moskvanın regionda tək söz sahibi olması istəyinin qarşısını həm də Minsk Qrupu formatı ala bilər. Biz işimizi doğru qursaq, Moskva ilə Qərb arasında olan münaqişə və fikir ayrılığından gözəl istifadə edə bilərik. Rusiyanın bu məsələdə tək söz sahibi olması yalnız bizi yox, elə Qərbi də narahat edir. Sabah Rusiya qoşununun ərazimizdən çıxarılması məsələsində məhz Paris və Vaşinqton bizə kömək ola bilər".

N.Cəfərli qeyd edib ki, Minsk Qrupunun təhlükəli yanları da var: "Status məsələsi... Özümüzü aldatmayaq, bu məsələ masaya gətiriləcək, müəyyən təzyiqlər olacaq, bu təzyiqlərin amortizasiyası üçün iki vacib yol var: daxildə çoxsəsli Parlament, həm də güclü vətəndaş cəmiyyəti və paralel olaraq Zəngəzura qaçqınların qayıtması, buna zəmanət məsələsi. Başqa yol görmürəm. Biz ağılla, siyasi doğru ritorika ilə hər dəfə "Zəngəzur" deyəndə Ermənistan status məsələsində israrından vaz keçməsi şansı artır. Bəli, Ermənistana ərazi iddiası etmirik, amma Qərbi Azərbaycandan olan türklərin öz ata-baba yurduna qayıtması üçün mütləq son sülh müqaviləsində hüquqi baza yaradılmalıdır. Əgər əvəzində Ermənistan Bakı, Sumqayıt, Gəncəyə erməni əsilli azərbaycanlıların qaytarılması məsələsini qaldırsa, buna da razılıq verməliyik. Çünki demokrafik üstünlük bizdədi, yaxın 25-30 ildə reginda demokrafik üstünlük tam bizdə olacaq. Daha soyuqqanlı olmağı və strateji düşünməyi öyrənməliyik".

***Z.Məmmədli***



# Azərbaycan hərbi təxribatlara hazır olmalıdır - Şərh

***"Dünən Ermənistanın baş naziri Nikol Paşinyan ərazi iddialarını yenidən gündəmə gətirərək "Bütün Dağlıq Qarabağın qaytarılması"ndan danışıb. Mənə maraqlıdır ki, beynəlxalq ekspertlər bu ritorikanı təcavüzkar adlandıracaqlarmı, yoxsa onlar birtərəfli şəkildə əsassız olaraq yalnız Azərbaycanı günahlandıracaqlar?".***

Bunu Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM)-rəhbəri Fərid Şəfiyev Ermənistanın baş naziri Nikol Paşinyanın "Dağlıq Qarabağı qaytarmaq" iddialarını şərh edərkən deyib. F.Şəfiyev bildirib ki, bütün bu iddialar Azərbaycanı "qələbədən qırağa baxmaq" və "səxavətlilik nümayiş etdirmək" kimi mənasız tövsiyələrə məhəl qoymamağa məcbur edir.

"Azərbaycan Kəlbəcərdə ermənilərin evləri qarət etməsinə və yandırmasına baxmayaraq, rayonun boşaldılması üçün verilən vaxtın 10 gün daha uzadılmasına imkan yaratdı. Birinci Qarabağ müharibəsindən bu yana 4000 azərbaycanlının hələ də itkin olduğu bir vaxtda 1500 erməni əsgərinin meyitini təhvil verdi. Gorus-Qafan yolu, Rusiya qazının Ermənistana nəqli və humanitar yük üçün Azərbaycan ərazisindən istifadəyə razılıq verildiyi halda bütün bunlar qiymətləndirilmir. Halbuki, azərbaycanlılar 30 illik müharibə və işğalın acı və itkilərindən hələ də qurtulmayıb. Ötən günlər keçirilmiş "Cənubi Qafqaza yeni baxış: Münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı konfrans zamanı verilən suallar göstərdi ki, bəzi beynəlxalq ekspertlər daha çox ermənilərin taleyinə görə narahatdırlar. Azərbaycanlıların yeganə yolu hərbi imkanlarını daha da gücləndirmək və təxribatlara hazır olmaqdır".

F.Şəfiyevin sözlərinə görə, ATƏT-in Minsk qrupunun son bəyanatını da konstruktiv adlandırmaq olmaz.

"Onlar anlamalıdırlar ki, Azərbaycan öz ərazilərini bərpa etməyə nail oldu. Hazırda onların işi Azərbaycan və Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşmaqla iki ölkə arasında sülh razılaşmasının imzalanmasına nail olmaq istiqamətində qurulmalıdır. Əks halda, qrupun işinin heç bir əhəmiyyəti qalmır. Bununla yanaşı, Azərbaycan Ermənistandan olan azərbaycanlı qaçqınların taleyi, Ermənistanda Azərbaycana məxsus mədəni irsin qorunması, Ermənistanın Gəncə, Bərdə və digər şəhərlərdə dinc əhaliyə bombalar yağdırmasına görə cinayət məsuliyyətinə cəlb edilməsi ilə yanaşı, onların mülklərinin bərpası məsələsini danışıqlar gündəminə gətirməlidir. Ermənistanda Azərbaycana məxsus mədəni irsin qorunması məsələsi ilə bağlı YUNESKO missiyasının hər iki ölkəyə səfəri tələb edilməlidir. Azərbaycanın keçmiş işğal olunmuş ərazilərinin tamamilə dağıdılması və talan edilməsinə dair təzminat məsələsi isə başqa bir vacib istiqamətdir. Təəssüf ki, qlobal və regional oyunçuların həm regionun əhalisi, həm də öz mənafeləri naminə uzunmüddətli mənfəətlər barədə düşünmək əvəzinə, şəxsi maraqlardan çıxış etməsi təəssüf doğurur".

# Prezident bu şəxsləri təltif etdi - SİYAHI



***Prezident İlham Əliyev Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

Unikal.org xəbər verir ki, sərəncamla Azərbaycan Respublikası Auditorlar Palatasının 25 illiyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Palatanın aşağıdakı üzvləri "Tərəqqi" medalı ilə təltif ediliblər:

Abbasov Çingiz Abbas oğlu
Axundov Nazim Zakir oğlu
Bayramov Vəli Oruc oğlu
Əhmədov Hafiz Məhəmməd oğlu
Əliyev Elçin Məmməd Əli oğlu
Əliyev Razı Təhməz oğlu
Hüseynov Zamin Ramazan oğlu
İbrahimov Elnur Elxan oğlu
İsmayılov Nazim Məmməd oğlu
Qurbanov Abbasəli Şükür oğlu
Musayev Adıgözəl Maqsud oğlu.

# Ramazanda karantin sərtləşdiriləcək? - RƏSMİ



***"Karantinin sərtləşdirilməsi ilə bağlı əvvəldən proqnoz vermək düzgün deyil. Çünki bugünkü yoluxma sayı sabah arta və ya azala bilər".***

Bunu ARB24-ün "İş vaxtı" verilişinə açıqlamasında Səhiyyə Nazirliyinin nəzdində COVİD-19-la mübarizə işçi qrupunun üzvü Günay Quluzadə deyib. O, hansısa qadağalar qoyulmaması üçün vətəndaşları karantin qaydalarına əməl etməyə səsləyib.

"Bütün dünyada virusa yoluxma halları müşahidə edilir. Azərbaycanda da son 1 ayda rəqəmlərin sayında artım baş verir. Həm fəsil dəyişkənliyi, həm də insanların havaya aldanması halları səbəbindən yoluxma sayında artım baş verə bilər. Çünki virus zəifləmiş immun sistemini sevir. Hər hansı soyuqdəymə isə koronaya yoluxmağımıza asanlıqla şərait yaradır".

G. Quluzadə onu da qeyd edib ki, zəncirvari ailədaxili yoluxmaların sayı artmaqda davam edir.

# Rusiyaya qarşı sanksiyalar tətbiq etdi

***ABŞ Rusiyaya qarşı yeni sanksiyalar tətbiq edib.***

Unikal.org-un məlumatına görə, ABŞ prezidenti Co Bayden bununla bağlı müvafiq fərman imzalayıb. Fərmana əsasən, ABŞ-ın maliyyə təşkilatları Rusiyadan birbaşa qiymətli kağızların satın alınmasını həyata keçirə bilməyəcək. Sanksiyalar Rusiyanın Mərkəzi Bankına, Maliyyə Nazirliyinə və ölkənin suveren fonduna tətbiq olunur.

Bundan başqa, ABŞ Rusiyanın 10 diplomatını ölkədən çıxaracağını bildirib.

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NABO1350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500

# Bu telekanalın yayımı dayandırıldı

***"Xəzər" telekanalının tərkibində fəaliyyət göstərən "Dalğa TV"-nin yayımı dayandırılıb.***

"Unikal" xəbər verir ki, artıq bir neçə gündür telekanal nümayiş olunmur. Bildirilib ki, kanalın yayımının dayandırılması baş verən texniki nasazlıqla əlaqəlidir.

Hazırda problemin aradan qaldırılması üçün işlər aparılır. Kanalın yayımındakı məhdudiyyətin nə vaxta kimi davam edəcəyi bəlli deyil.

# Əli Əsədov Novruz Məmmədovun bu qərarına dəyişiklik etdi

***Nazirlər kabineti "Vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 11 oktyabr 2018-ci il tarixli qərarında dəyişiklik edib.***



Unikal.org xəbər verir ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, Dövlət borcu və zəmanəti üzrə öhdəliklərinTəminat Fondundan transfert büdcə gəlirlərinin təsnifatına daxil edilib. Bundan başqa, qərarda deyilir ki, bu gəlirlər faizlərdən, dividendlərdən, dövlət mülkiyyətində olan müəssisələrin mənfəətindən ayırmalardan, Azərbaycan Mərkəzi Bankının mənfəətindən ayırmalar, Azərbaycan Dövlət Neft Fondundan daxilolmalar, sığorta təşkilatlarından ayırmalar, icarə haqqı, sərbəst qalıq vəsaitlərinin idarə edilməsindən daxilolmalar və Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert üzrə daxilolmalardan ibarətdir.

Sərbəst qalıq vəsaitlərinin idarə edilməsindən daxilolmalar dedikdə, sərbəst qalıq vəsaitlərinin idarə edilməsi və ya etibarlı idarəetməyə verilməsindən dövlət büdcəsinə daxil olan vəsaitlər nəzərdə tutulur.

Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondundan transfert dedikdə, dövlət borcuna xidmət xərclərinin müvafiq büdcə ili üçün dövlət büdcəsində nəzərdə tutulandan artıq olan hissəsinin və dövlət zəmanəti üzrə öhdəliklərin yerinə yetirilməsini təmin etmək üçün dövlət büdcəsinin tərkibində məqsədli büdcə fondu kimi yaradılan Təminat Fondundan daxilolmalar nəzərdə tutulur.

# Əliyar Əliyevin oğluna yüksək vəzifə verildi

***Qubadlı rayon İcra Hakimiyyətində (RİH) yeni təyinat olub.***



Unikal.org-un əldə etdiyi məlumata görə, RİH-nin başçısı Malik İsaqovun əmri ilə, Emin Əliyev Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri təyin edilib.

Qeyd edək ki, o, Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Əliyar Əliyevin oğludur.

*Murad İbrahimli*

# TƏBİB: Peyvənddən sonra antitel yaranmasa, yenidən peyvənd vurula bilər

***Koronavirus peyvəndi vurulan şəxslərdə antitellər yaranmasa, həmin şəxslərin təkrar peyvəndlənməsi ilə bu problem aradan qalxa bilər.***

"Unikal" xəbər verir ki, bunu ARB24-ün "İşgüzar səhər" verilişinə açıqlamasında TƏBİB nümayəndəsi Fərrux Sədirov deyib. O bildirib ki, peyvənddən sonra antitel əmələ gəlməməsinin səbəbi immun sisteminin peyvəndə reaksiyası ilə əlaqədardır:

"Peyvəndin ikinci dozasından 3-4 həftə ötdükdən sonra immun sistemində yetərincə antitel əmələ gələcək. Antitellərin yaranmaması çox nadir hallarda baş verir və buna görə vətəndaşlar narahat olmamalıdır. Problemi ikiqat peyvəndlənməklə həll etmək olar. Belə hallara immun problemi olan, xronik qaraciyər və böyrək xəstəliyindən əziyyət çəkən şəxslərdə rast gəlinir".

Qurum nümayəndəsi onu da qeyd edib ki, peyvənddən sonra yaranan halsızlıq, əzələ ağrıları və s. kimi əlamətləri maye qəbulu və istirahət etməklə aradan qaldırmaq



mümkündür: "Əgər şikayətlər artarsa, ağrılar şiddətli olarsa, həkimə müraciət etməkdə fayda var. Çünki bu hal başqa bir infeksion xəstəlik səbəbindən də ortaya çıxmış ola bilər".

# Koronavirusa yoluxanların sayı artdı - 36 nəfər öldü

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 2317 yeni yoluxma faktı qeydə alınıb, 2109 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

Unikal.org xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb. Son sutkada 36 nəfər "COVID-19"dan vəfat edib.

# İmtahanın nəticələri bu tarixdə açıqlanacaq

***Dövlət İmtahan Mərkəzi tərəfindən aprelin 15-də keçirilən tam (11 illik) buraxılış imtahanlarının nəticələrinin elan olunacağı vaxt bilinib.***

DİM-dən "Unikal"a verilən məlumata görə, aprelin 16-dan etibarən DİM-də imtahan protokollarının və cavab vərəqlərinin emalına başlanılacaq. İmtahanlarda istifadə olunan yazılı cavab tələb edən açıq tipli tapşırıqların yoxlanılması uzun müddət tələb etdiyindən nəticələrin 3 həftə ərzində elan olunması nəzərdə tutulur.

# Azərbaycan-Belarus hərbi əməkdaşlığı müzakirə olundu

***Aprelin 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Belarus Respublikasının Dövlət Hərbi-Sənaye Komitəsinin sədri cənab Dmitriy Pantusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən "Unikal"a verilən məlumata görə, tərəflər Azərbaycan ilə Belarus arasında hərbi-texniki əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini, həmçinin qarşılıqlı maraq kəsb edən digər məsələləri müzakirə ediblər.

# Hesablama Palatası bu qurumlarda 2 milyon manat yeyinti aşkarladı

***Hesablama Palatası Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrasına dair auditin nəticəsini açıqlayıb.***

"Unaikal"ın məlumatına görə, audit 01.01.2019-cu il tarixindən 01.01.2020-ci il tarixinədək dövrü əhatə etməklə, 2020-ci il 31 avqust tarixindən 30 sentyabr tarixinədək keçirilib. Sənəddə qeyd edilir ki, Suraxanı rayonu ərazisində fəaliyyət göstərən 208, 263, 273 və 277 saylı körpələr evi-uşaq bağçalarının istiliklə təmin olunması mənzil-kommunal sistemi tərəfindən həyata keçirildiyi halda, 4 halda qeyd olunan körpələr evi-uşaq bağçalarının ştat cədvəllərində hər birində 0,5 ştat vahidi olmaqla, ümumilikdə 2 ştat vahidi ocaqçı ştatına görə il ərzində 4787,0 manat vəsait xərc edilib.



Audit nəticəsində məlum olub ki, müvafiq normativlərdə 1-6 yaş kateqoriyasındakı uşaqlara verilməsi nəzərdə tutulmayan 40880,5 manat dəyərində 3408,4 kq kakao məxaricə silinib, 01.01.2020-ci il tarixə olan 70,54 manat məbləğində qalıq isə 2020-ci ildə istifadə edilib. Qida normasının tələblərinə görə, kakao 7-17 yaşlı uşaqlar üçün, 1-6 yaş kateqoriyasındakı uşaqlara isə yalnız dənəvər qəhvə, qəhvə içkisinin verilməsi nəzərdə tutulub. Bundan əlavə, Normalarda yaş qrupundan və müəssisədə qalma saatından asılı olaraq, cəmi verilməli çörəyin miqdarı "buğda çörəyi I növ" və "buğda çörəyi II növ" normasına uyğun verilməli olduğu halda, Normaların tələblərinə əməl edilməyərək, hər iki növ çörəyin əvəzinə yalnız "buğda çörəyi I növ" verilib, 2019-cu ilin yanvar-avqust ayları ərzində ümumilikdə 29129,3 manat məbləğində artıq xərcə yol verilib. Habelə məktəbəqədər təhsil müəssisələri və uşaq evləri üzrə qida rasionunda nəzərdə tutulmamış əlavə 3 adda (sümüksüz mal əti, banan və zeytun yağı üzrə) olmaqla, 715436,2 manat məbləğində ərzaq məhsullarının alışı həyata keçirilib.

Daimi içməli su ilə təmin edilməsinə baxmayaraq, Xəzər rayonunda yerləşən 2 və 213 saylı məktəbəqədər təhsil müəssisələrində çalışan işçilərə su mənbəyindən uzaqda yerləşməsinə görə 20% həcmində əlavə əməkhaqqı ödənilib.

İdarə tərəfindən məktəbəqədər uşaq müəssisələrinə (uşaq bağçalarına) cəlb olunmuş uşaqlar tam dövlət təminatında olmadığı halda, 2019-cu ildə 1 dəstinin qiyməti 47,0 manat olmaqla, ümumilikdə 39668 dəst və ya 1 864 396,0 manat dəyərində geyim formaları (uniformalar) alınmasına büdcə vəsaiti xərc edilib. Sənəddə qeyd olunur ki, əvvəlki audit zamanı da eyni hal qeydə alınmışdı.

"Azərsu" ASC-yə istehlak olunmuş suya görə büdcə vəsaiti ödənildiyi halda, içməli su təminatına görə Suraxanı rayonu üzrə 331 nömrəli uşaq bağçasına 2800,0 manat, Xəzər rayonu 63 nömrəli uşaq bağçasına 70,0 manat, Xəzər rayonu 246 nömrəli uşaq bağçasına isə 3150,0 manat, ümumilikdə 6020,0 manat büdcə vəsaiti ödənilib. Auditlə əhatə olunan ildə məktəbəqədər təhsil müəssisələrində cari təmir işləri üzrə rəsmiləşdirilib, lakin yerinə yetirilməyən işlər (5 halda 9076,3 manat), eyni işə görə təkrar ödəniş (2 halda 8625,5 manat), abadlaşdırma xidmətlərinin göstərilməsi (9 halda 20971,5 manat) adı ilə ümumilikdə 38673,3 manat məbləğində artıq vəsait xərc edilib. Malların (işlərin və xidmətlərin) satınalınmasının ehtimal olunan qiymətləri Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş müvafiq üsullardan istifadə olunmadan müəyyənləşdirilərək malların alışı zamanı 350000,0 manat məbləğində artıq büdcə vəsaitinin ödənişinə yol verilib.

Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsi tərəfindən auditin nəticələri üzrə akar edilmiş nöqsanların aradan qaldırılması məqsədilə İşçilərin tarif dərəcələrinin düzgün müəyyənləşdirilməməsi nəticəsində artıq ödənilmiş 5453,0 manat, 1-6 yaş kateqoriyasındakı uşaqlara dənəvər qəhvə əvəzinə verilmiş kakaoya görə ödənilmiş 40951,0 manat, çörəyin növləri arasında (I növ və II növ) qiymət fərqi üzrə 29129,3 manat, işçilərə su mənbəyindən uzaqda yerləşməsinə görə düzgün olmayaraq ödənilmiş 29207,4 manat (o cümlədən 2020-ci il ərzində 13210,2 manat), istehlak olunmuş suya görə podratçıya artıq ödənilmiş 6020,0 manat, cari təmir, kommunal və kommunikasiya, abadlaşdırma işlərinin yerinə yetirilməsinə görə artıq ödənilmiş ümumilikdə 38673,31 manat, müqavilə şərtlərinə uyğun olaraq xidmətlərin göstərilməsi üzrə gecikdirilmiş günlər üçün hesablanmış cərimə məbləği üzrə 3440,0 manat, 1995-2011-ci illərdə ərzaq məhsullarının alınmasına görə yaranmış 9021,46 manat və Yasamal Qaz İdarəsi üzrə təbii qazın alınmasına görə yaranmış 144,96 manat debitor borc məbləği, malların orta bazar qiymətindən baha alınması hesabına artıq ödənilmiş 350000,0 manat, ümumilikdə 512040,4 manat məbləğində vəsait büdcəyə bərpa edilib.

Eyni zamanda, Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş nümunəvi ştat normaları intizamına əməl edilməyərək körpələr evi-uşaq bağçalarının artıq saxlanılmış 2 ştat vahidi ocaqçı ştatının ləğv edilməsinin təmin edilməsi, 01.01.2020-ci il tarixə yaranmış 3 902 404,9 manat məbləğində debitor borc məbləğinin, 872 600,85 manat kreditor borcun bağlanmasının təmin edilməsi tapşırılıb.

***Z.Məmmədli***

## Cəmil Həsənliyə görə istefa verdiyini deyən şəxslə bağlı YAP-dan açıqlama



***Son günlər sosial şəbəkələrdə özünü Yeni Azərbaycan Partiyasının (YAP) üzvü kimi təqdim edən Xəlilov Elvar Mirzəələkbər oğlunun Cəmil Həsənliyə görə partiyadan istefa verməsi barədə spekulyativ məlumatlar yayılmaqdadır.***

YAP-ın Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, E. Xəlilov uzun müddət partiya ilə əlaqə saxlamadığı, ərazi ilk partiya təşkilatının işində iştirak etmədiyi üçün YAP Səbail rayon təşkilatı İdarə Heyətinin 22.09.2020-ci il tarixli qərarı ilə partiya sıralarından xaric olunub.

YAP-ın Mətbuat xidməti sosial mediada informasiya paylaşılarkən onun dəqiqləşdirilməsini vacib hesab edir və bildirir ki, tez-tez yalnış məlumatlar yayan, xəbərləri ifşa olunan sosial media resursları oxucusunu itirməklə yanaşı, cəmiyyətdə saxta xəbər mənbəyi kimi də tanınır. YAP-ın nüfuzunu zədələmək məqsədilə yoxlanılmamış, obyektivlikdən və reallıqdan uzaq məlumatların məqsədli şəkildə yayılması siyasi spekulyasiyadır, manipulyasiyadır.

## Erkan Özoral sabah Azərbaycanı tərk edir

***Türkiyənin Azərbaycanda diplomatik fəaliyyəti başa çatan fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral Bakını tərk edəcək.***

"Unikal" xəbər verir ki, diplomat aprelin 16-da ölkəsinə qayıdacaq. E.Özoral 2016-cı ildən Türkiyənin Azərbaycandakı səfiri vəzifəsində çalışıb. Onun səlahiyyət müddəti bu ay başa çatıb.

Qeyd edək ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın sərəncamı ilə Cahit Bağçı Azərbaycana səfir təyin olunub. Yeni səfirin yaxın günlərdə Azərbaycana gələcəyi gözlənilir.

## "Ermənistan nə özünə, nə də tarixinə güvənir" - Çavuşoğlu



***"Qondarma "erməni soyqırımı" ilə bağlı Ermənistana ortaq komissiya yaratmaq barədə təklif vermişdik. Ermənistan nə özünə, nə də tarixinə güvənir, əksinə propaqandaya üstünlük verir".***

"Unikal" xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu NTV telekanalına müsahibəsində deyib.

ABŞ-ın yeni administrasiyası tərəfindən 24 apreldə qondarma "erməni soyqırımı"na hansı reaksiyanın olacağına dair suala cavabında XİN başçısı qeyd edib ki, deyiləcək hər hansı bir sözlə tarix dəyişməyəcək.

## Qobu bələdiyyəsinin sədri cərimələndi

***Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin əməkdaşları tərəfindən sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə mütəmadi olaraq reydlər keçirilir.***

Daxili İşlər Nazirliyindən (DİN) "Unikal"a verilən məlumata görə, aprelin 14-də Abşeron rayonu ərazisində keçirilən növbəti belə tədbir zamanı Qobu qəsəbəsi ərazisində sənaye və məişət tullantılarının qalaqlanması faktı aşkar edilib.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduğuna görə Qobu bələdiyyəsinin sədri A.Nəcəfov barəsində protokol tərtib edilərək 3.000 manat məbləğində cərimələnib. Bu istiqamətdə tədbirlər davam etdirilir.



## Sahibə Qafarova mina xəritəsi məsələsini MDB PA-da qaldırdı

***“Zorakı ekstremizmə qarşı addımların mühüm istiqaməti silahlı münaqişələrin həllidir. Azərbaycan da ötən il torpaqlarını azad edərkən bu problemlə üzləşib. Yəni mövcud pandemiya dövründə bütün ölkələr çarə axtararaq birləşməyə çalışarkən Ermənistan növbəti dəfə Azərbaycana qarşı hərbi təxribata əl atdı, yeni ərazilər ələ keçirməyə çalışdı. Münaqişə bölgəsinə dünyanın müxtəlif yerlərindən, əsas etibarilə Suriya, Livan, Avropa ölkələrindən erməni terrorçular axışırdı”.***

“Unikal” xəbər verir ki, bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova Sankt-Peterburq şəhərində MDB Parlamentlərarası Assambleyası çərçivəsindəki iclasda deyib.

Azad edilmiş torpaqlarda minalanmış ərazilərin xəritəsinin hələ də təqdim olunmaması məsələsini qaldıran Milli Məclis sədri iştirakçı ölkələri bu məsələdə Ermənistana təzyiq göstərməyə çağırıb: “Hazırda minalardan təmizləmə işləri görülür və bu əsnada insanlar həlak olur. Ermənistan beynəlxalq hüquq çərçivəsində mükəlləfiyyətini yerinə yetirərək minalanmış ərazilər xəritəsini təqdim etsəydi, o insanlar ölməzdi. Məcbur olub bildirməliyəm ki, beynəlxalq təşkilatlar Ermənistana təzyiq göstərməlidir”.

S.Qafarova 44 gün davam etmiş Vətən müharibəsi vaxtı Azərbaycanın işğalçıları layiqincə geri oturtduğunu xatırladıb: “Artıq Dağlıq Qarabağ münaqişəsi həll olunub. Bu yerdə 10 noyabr sazişinin imzalanmasında iştirak etmiş Rusiyanın xüsusi rolunu vurğulamaq istərdim”.

Pandemiyanın ilk günlərindən Azərbaycanın koronavirusa qarşı mübarizənin ön sıralarında olduğunu diqqətə çatdıran Milli Məclis sədri daha sonra qeyd edib: “Ölkəmiz Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində maliyyə yardımı, 30-dan artıq ölkəyə COVID-19-a qarşı müxtəlif vasitələr şəklində humanitar yardımlar göstərib. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələsinə həsr olunmuş xüsusi sessiyası da keçirildi”.

***Hüseyn***

# “MTN dövlətin milli təhlükəsizliyi ilə məşğul deyildi”

## Razi Nurullayev: “Onlar pul qazanırdılar, kimlərisə çarmıxa çəkib əmlakını, obyektini əlindən alırdılar və nəticə də belə olmalıydı”



***Xəbər verdiyimiz kimi, bir müddət öncə ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin sabiq idarə rəisləri, generallar Mövlan Şıxalıyev və Nizami Şirinov saxlanılıb. Hər iki şəxs Baş Prokurorluğun İstintaq İdarəsində dindirilib, daha sonra Nəsimi rayon Məhkəməsi tərəfindən hər iki general barəsində həbs qətimkan tədbiri seçilib. Bu və ya digər məsələlərlə bağlı “Unikal” qəzetinə müsahibə verən, Milli Məclisin deputatı, MCP sədri Razi Nurullayevlə söhbətə də son günlər baş verən həbslərlə bağlı sualla başladıq.***

***-Razi bəy, bir müddət öncə sabiq MTN generallarının həbs olunması cəmiyyətin diqqətini yenidən bu istiqamətə yönəltdi. Öncə bu barədə fikirlərinizi bilmək istərdik. Dövlətin təhlükəsizlik orqanlarının yüksək çinli zabitlərinin həbsi nəyin nəticəsidir?***

- Prezident İlham Əliyev deyir ki, şəffaflıq olsun, orqanlar düzgün işləsin, sahibkarların işinə qarışmasınlar, birbaşa öz vəzifələri ilə məşğul olsunlar, insanları boş yerə incitməsinlər, vətəndaşlara qarşı teror əməliyyatı keçirməsinlər, insanları haqsız yerə tutmasınlar. Amma onlar da qanunları pozur, haqsızlıq edir, öz cibləri üçün çalışırdılar, sahibkarları incidirdilər, insanları şərləyir, birbaşa MTN-nin səlahiyyətlərindən kənar olaraq narkotiklə tuturdular. MTN dövlətin milli təhlükəsizliyi ilə yox, sadəcə olaraq polisin işləri ilə məşğul idi, pul qazanırdılar, pul silirdilər, kimlərisə çarmıxa çəkib əmlakını, obyektini əlindən alırdılar. Və nəticə də belə olmalıydı.

***-Hazırda istintaq gedir və yəqin ki, daha dərinə gedərək problemin kökü tapılacaq. MTN-nin sabiq rəhbəri Eldar Mahmudov hələ də azadlıqdadır. Haqlı olaraq belə bir sual yaranır ki, bu cəzalandırma nəyə görə birinci şəxslərə şamil olunmur?***

- Biz dövlətin yerinə nəyisə deyə, tələb edə bilmərik. Dövlətin başçısı Prezident İlham Əliyev bizdən, hər kəsdən daha çox məlumatlıdır, daha çox informasiyalar alır, daha doğru qərar vermək imkanlarına malikdir. Çünki bütün informasiyalar ondadır. Yəqin ki, hər bir şeyin arxasında bir səbəb var, onun üçün də bu məsələlər bizim münasibət bildirməyimizlə, deməyimizlə həll olunan deyil. Mən düşünürəm ki, istintaq gedir, müəyyən məsələlər gedir, hər şeyin öz zamanı, öz yeri var və doğru zamanda doğru qərarlar veriləcək. Hər bir məsələ ilə bağlı yəqin ki, çıxarlan nəticələr nəzərə alınır, onun ziyanı və xeyri hesablanır. Bütün məsələləri də dövlət başçısı, dövlətin hüquq mühafizə orqanları, bu işi aparanlar daha yaxşı bilirlər və onlar da doğru olanı etməlidirlər. Onun üçün də bu məsələyə birmənalı cavab vermək mümkün olmur.

***-Müharibədən sonra hərbi sistemlə bağlı da araşdırmaların getdiyi, müəyyən “təmizləmə” prosesinin aparıldığı bildirilir. Bu barədə nə deyə bilərsiniz?***

- Əlbəttə. Bilirsiz ki, müharibə dövründə, hər bir ölkə müharibə aparan zaman müəyyən boşluqları görür, zəif cəhətlərini bilir və ondan sonra bu zəif cəhətləri, bu problemləri, çatışmazlıqları aradan qaldırmaqla bağlı qərar qəbul edir. Azərbaycan da bunu artıq görür və bununla bağlı qərarlar qəbul edib. Prezident də bunu bir neçə dəfə səsləndirib və düşünürəm ki, bu qəbul olunan qərarların içərisində, çatışmazlıqların aradan qaldırılmasında həm də təmizləmə əməliyyatı var. Kifayət qədər insanlar ora başqa, qara yollarla, məqsədlərlə yerləşdirilib. Ola bilsin ki, ölkələrin maraqlarına, fərdlərin istəklərinə xidmət edən qüvvələr var. Bilik və bacarığı olmayan sahələrə təyinatlar var və onun da nəticəsində təbii ki, görülən işlərdə axsamalar olur. Və düşünürəm ki, təmizləmə əməliyyatı olacaq. Təmizləmə əməliyyatı sırf orada azərbaycançı qüvvələrin, dövlətçi qüvvələrin qalmasından ibarətdir. Çünki bu günə qədər həqiqətən də orada dövlətini sevməyən, dövlətinə qarşı işləyən, dövlətçi olmayan, başqa dövlətin maraqlarını daha üstün tutan, başqa dövlətin maraqlarına xidmət edən qüvvələr, fərdlər, şəxslər olub. Bəziləri özlərinə şəbəkə də yaradıb. Və bütün bunların da hamısının aşkara çıxarılması və tımizlənməsi üçün yəqin ki, aylar lazımdır. Bu iş daimi olaraq getməli və azərbaycan ordusu doğrudan da mobil, çevik bir orduya çevrilməlidir. Bunula bağlı prezident də mesaj verib ki, Azərbaycan Türkiyə ordusunun kiçik bir prototipini yaradacaq. Mən inanıram ki, tezliklə Azərbaycan ordusu dövlətçiliyimizin maraqlarını qorumaq üçün profissional vəziyyətə gətiriləcək.

***-Razi bəy, bu günlərdə əsas müzakirə mövzularından biri də Şuşaya atılan “İsgəndər” raketlərinin Ermənistana hansı yollarla gətirilməsi məsələsidir. Rusiyada da bu mövzuda araşdırmaların aparıldığı deyilir. Sizin informasiyalar nə deyir?***

- Təəssüf edirəm ki, Rusiya rəhbərliyi belə dəhşətli addıma yol verib. Rusiya bu şəkildə ermənipərəst mövqe sırgılənməməli idi, bu, dinc qonşuluq siyasətinə ziddir. Axı biz heç zaman Rusiyaya gizlin və arxadan zərbə vurmamışıq. İndi deyirlər ki, erməni lobbisi gizli yolla gətirib. Bu nağıllara heç kim inanmaz. Rusiya rəhbərliyinə daxil olan şəxslərin bilgisi xaricində bu mümkün deyildi.

Sadəcə, biz də Rusiyanın üzərinə getmirik ki, çünki onsuz da xeyri olmayacaq. Münasibətimizi korlamaq bizə sərf etmir. Mən isə müxalifət nümayəndəsiyəm və həqiqət hesab etdiyim fikri deyirəm. Rusiya onu da bilir ki, 44 gün ərzində Rusiyadan Ermənistana silah daşınması bir gün də olsun dayanmayıb.

***-Necə bilirsiniz, Rusiya bu dəfə 90-cı illərdən fərqli davranış sərgiləyəcəkmi, Qarabağ məsələsində? Yoxsa yenə də öz ampulasına qayıdacaq? Hər halda, son günlər post-sovet ölkələrinə ərazi iddialarının səsləndirilməsi narahatlıq yaradır...***

- Rusiyanın siyasətində davam edən imperya ruhu narahatlıq doğurmaya bilməz. Əlbəttə, o çalışacaq ki, Qarabağı əlində özünün regionda iştirakı və nüfuzu kimi saxlasın. Bizim də vəzifəmiz bu siyasətin qarşısını almaqdır. Amma incə siyasət və götür-qoyla. Bu kimi geopolitik məsələlərdə çox ehtiyatlı və tədbirli olmaq vacibdir. Mənə belə gəlir ki, bir çox vətəndaşlarımızın ürəyi yandığından, 30 il ürəyində nisgil gəzdirdiyindən tələsirlər. Amma bu kimi məsələlər tələblə olmur, tədbirlə olur.

***Z.Məmmədli***

# Pensiyanın ümidinə qalmış sabiqlər...

## Azərbaycanın sabiq məmurları niyə "ağlaşma" qurmağa başlayıblar?

***Bu yaxınlarda "unikal.org" saytı Azərbaycanda sabiq məmurların aldığı pensiyaların məbləği ilə bağlı maraqlı bir məlumat yaymışdı. Həmin məlumatda keçmiş nazirlərin, digər sabiq yüksək çinli məmurların və millət vəkillərinin bir neçəsinin aldığı təqaüdün məbləği barədə bəhs edilirdi.***

Saytın yazdıqlarından belə bəlli olurdu ki, məsələn, Baş nazirin sabiq müavini, Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı Hacıbala Abutalıbov 4000 manat təqaüd alır. Baş nazirin başqa bir sabiq müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov da həmin məbləğdə təqaüd alır. Baş nazirin sabiq müavinlərindən olan keçmiş Kənd Təsərrüfatı naziri İsmət Abbasov 3500, keçmiş Təhsil naziri, hazırda Riyaziyyat və Mexanika İnstitutunun direktoru işləyən Misir Mərdanov 2300, Bakı Dövlət Universitetinin (BDU) eks-rektoru Abel Məhərrəmov 4 min, Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov isə 3640 manat təqaüd alırmış. Nə deyirik, sağlıqla xərcləsinlər!

Göründüyü kimi, keçmiş iri məmurlarımızın aldıqları pensiya ilə sadə vətəndaşın təqaüdü arasında yerlə göy qədər, daha da dəqiqləşdirsək 10-15 dəfə fərq var. Lakin fərq bununla da məhdudlaşmır. İş burasındadır ki, həmin eks məmurların aldıqları təqaüd əslində onlar üçün ciddi heç nə ifadə eləmir. Götürək Abel Məhərrəmovu... Sadə pensiyaçının bir ildə aldığı təqaüdü cəmi bir ayda alan BDU-nin sabiq rektoru üçün 4 min manat "semiçka pulu"dur desək yanılmarıq. Bunu onun misilsiz sərvətindən anlamaq elə də çətin deyil. Qısaca yada salaq: "El Faro hotel Nabran" ailəvi istirahət mərkəzi (200 hektar ərazidə 61 milyon manat dəyərində ölçülən istirahət mərkəzi. Qızı İzabellanın adına qeydiyyatdan keçib); "Mono Liza" - Bakıda ən bahalı və məşhur şadlıq sarayıdır. Dəyəri 12 milyon manat civarında ölçülür; "İzabella" şadlıq sarayı. Dəyəri 23 milyon manat civarında ölçülür; Bakıda 11 müxtəlif ərazidə SPA idman salonları. Hər birinin dəyəri 4-7 milyon manat civarında ölçülür; "Sahil" ticarət mərkəzində bahalı "Ramsey" mağaza (İtaliya-Türkiyə istehsalı olan brendlər olan kişi kostyumları mağazaları şəbəkəsi); "Lamborghini", "Bentley", "Porsche Cayenne", "Land Rover", "Mercedes AMG", "Audi Q7", "Audi Q8", "Mercedes Gelandewagen", "BMW X6" və s. kimi son model avtomobillərdən ibarət kolleksiya, Qubada, Xızıda, Nabranda, Şüvəlanda, Mərdəkanda villalar, paytaxtın ən müxtəlif yerlərində - saysız-hesabsız şəxsi mənzillər, dəbdəbəli mülklər, qızı Nərminə Sadıqovaya məxsus "Qlobus" uşaq bağçası...

Daha nələr, nələr...

Düzünü demək lazımdırsa, Abel müəllimin aldığı 4 min manat təqaüd onun hər hansı villasından birinin heç bir aylıq məsrəflərini qarşılamağa yetməz. Bu mənada sabiq rektor əgər sabah çıxıb keçmiş nəqliyyat naziri Ziya Məmmədov, ya da Bakının sabiq meri Hacıbala Abutalıbov kimi dolanışığın çətinliyindən gileylənsə, sadə həyat sürdüyünü söyləsə, mal-qoyun saxlamaqla güzəranını təmin etməyə çalışdığını bildirsə qətiyyən təəccüblənməməliyik. Doğrudan da 3-4 min manat pensiya ilə hansı dəbdəbəyə ümid eləmək olar?!

Zarafat bir kənara qalsın, eks məmurlarımız danışanda elə bilirlər camaat çörəyi qulağına yeyir və nə onların vəzifədə olarkən rüşvətlə, korrupsiya ilə topladığı fantastik pullardan xəbərdardır, nə də ailə üzvlərinin, digər yaxın qohum-əqrəbalarının adına rəsmiləşdirdikləri ticarət obyektlərindən, restoranlardan... Sabiqlər belə fikirləşirlər ki, mətbuata çıxıb göz yaşı tökələr camaat bunların həqiqətən də pensiyanın ümidinə qaldığına inanacaq, süddən çıxmış ağ qaşıq olduqlarına şübhə eləməyəcək. Lakin unudurlar ki, biz həqiqətən bir az sadəlövh camaatıq, ancaq daha eks məmurlar düşündüyü qədər də yox!



Hər halda nəyi olmasa da, bunu yaxşı anlayırıq ki, vəzifədə ikən yüz milyonlarla manat dövlət vəsaitinin altından girib üstündən çıxan, özlərinə orta əsr hökmdarlarının belə qibtə eləyəcəyi şəkildə var-dövlət toplayan eks məmurlarımızın kreslolarını itirdikdən sonra özləri barədə kasıb, fağır obrazı yaratmasının iki səbəbi var.

Birincisi, öz aləmlərində guya göz qaytarırlar. Bu ki cəhalətdir deyə düşünməyin! Elə həmin məmurlar deyilmi falçılara, cadu-pitiyə ətək-ətək pul xərcləyənlər?!

İkincisi, bəzi keçmiş vəzifəlilər həbs olunduqdan sonra o, biriləri həyəcanlanıblar. Növbənin onlara da çata biləcəyini təxmin edir və qabaqdangəlmişlik edirlər: guya nə vaxtsa korrupsiyaya bulaşıblar, nə də indi əllərində-ovuclarında qəpik-quruşdan başqa bir şey var. Ümidləri də qalıb pensiyaya, yonca, arpa əkib mal-qoyun saxlamağa...

Ay sizi çoxbilmişlər! Doğrudanmı belə zənn edirsiniz ki bu nağıllara inanan tapılar - camaat arasında da, hüquq-mühafizə orqanlarında da?! Əgər elədirsə, adam istər-istəməz heyrətlənir - bu "dərin" zəka ilə o qədər yüksək vəzifələrə necə yüksəlibmişsiniz, görəsən?!

*Sənan Mirzə*

# Ramiz Mehdiyevi məhkəməyə verən direktor işinə qayıtdı

***Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclasında bir müddət əvvəl tutduğu vəzifədən azad edilmiş Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru Əlövsət Quliyev vəzifəsinə bərpa olunub. Bu barədə Əlövsət Quliyev öz sosial şəbəkə hesabında məlumat verib:***

"Bu gün Rəyasət Heyətinin iclasında məni öz vəzifəmə qaytarmağa səs verdilər. Rəyasət Heyətinin üzvlərinə təşəkkür edirəm. Qoy hər yerdə ədalət zəfər çalsın".

Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Ümumi işlər üzrə direktor müavini Mürsəl Məmmədov Unikal.org-a açıqlamasında bildirib ki, Qərib Məmmədov hazırda işdədir. İnstituta Əlövsət Quliyevin bərpa olunması ilə bağlı rəsmi məlumat göndərilməyib.

Qeyd edək ki, martın 16-da Səbail Rayon Məhkəməsində AMEA-nın müxbir üzvü, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun sabiq direktoru Əlövsət Quliyevin şikayətinə baxılmışdı. Hakim Mədinə Bağırovanın sədrliyi ilə keçirilən məhkəmə Əlövsət Quliyevin işdən azad edilməsinin qanuni əsasının olmadığına və onun yenidən Torpaqşünaslıq və Aqrokimya İnstitutunun direktoru vəzifəsinə bərpasına qərar vermişdi.

*Famil Fərhadoğlu*

# Aprelin pensiyaları tam ödənildi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən aprel ayı üzrə pensiyaların ödənişi başa çatdırılıb.***

Fonddan "Unikal"a verilən məlumata görə, aprelin 8-dən başlayaraq əvvəlcə Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu, aprelin 15-də isə bölgələr üzrə, eləcə də güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları ödənilib.

Vətəndaşlar pensiyalarını kartları vasitəsilə müvafiq banklarin bankomatlarından əldə edə bilərlər.

# "Yaşma" yarımstansiyası yenidən qurulur

***"Azərenerji" Respublikanın şimal-şərq rayonlarının, eləcə də Abşeron yarımadasının enerji təchizatında mühüm əhəmiyyət kəsb edən, Rusiya və Azərbaycan enerjisistemləri arasında yük mübadiləsini həyata keçirən, strateji əhəmiyyətli 330, 220, 110 kilovoltluq "Yaşma" yarımstansiyasını əsaslı şəkildə yenidən qurur.***

"Azərenerji"dən "Unikal"a verilən məlumata görə, enerjisistem üçün mühüm düyün nöqtəsi olan "Yaşma" yarımstansiyası 50 il əvvəl tikildiyindən istismar müddətini başa vurmuşdu. Bu səbəbdən də tez-tez qısaqapanmalara, enerjisistemdə qəza vəziyyətinin yaranmasına səbəb olurdu. Bunun üçün müasir tələblərə cavab verən yeni avadanlıqlar quraşdırılır, avtotransformatorlar daha güclüləri ilə əvəz edilir, açıq paylayıcı qurğular genişləndirilir.

Məlumata görə, yarımstansiyada müasir avadanlıqlarla təchiz ediləcək yeni inzibati idarəetmə binası tikilir, məsafədən idarəolunan müasir SCADA dispetçer sistemi yaradılır. Onu da qeyd edək ki, "Yaşma" yarımstansiyasına yeni tikilən "Qobu" yarımstansiyasından 42 km məsafədə 330 kilovoltluq yüksək gərginlikli elektrik xətti çəkilir.

Ən əsası isə "Yaşma" yarımstansiyasında reaktiv gücün kompensasiyası istiqamətində əhəmiyyətli layihə gerçəkləşdirilir. Belə ki, Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində şuntlayıcı reaktorlar quraşdırılıb ki, onlardan biri məhz Respublikanın şimal-şərq rayonlarını, eləcə də Abşeron yarımadasını əhatə edən 330 kilovoltluq "Yaşma" yarımstansiyasında olacaq. Digər reaktor isə Qarabağ və ətraf rayonları əhatə edən 330 kilovoltluq "Goranboy" paylayıcı məntəqəsində quraşdırılır.

Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində qoyulan şuntlayıcı reaktorlar yüksəkgərginlikli 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək. Xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.

# “Fransa XİN Azərbaycandan üzr istəməlidir” - Partiya sədri



***Fransanın Ermənistandakı səfirinin Hərbi Qənimətlər Parkını ”tamaşa” və Ermənistanın məğlubiyyətini ”ləyaqətli məğlubiyyət” adlandırması diplomatiyadan kənar ifadələr və davranışdır. Səfir birbaşa qərəzini ortaya qoyur və bu, səfir üçün yolverilməz haldır.***

Bunu deputat, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib. Deputat bildirib ki, Azərbaycan XİN sözçüsünün fikri ilə razılaşır:

”Yəqin ki, səfir üçün ”ləyaqət” anlayışı fərqli məna daşıyır. Amma, inanmaq istərdim ki, Fransa dövləti üçün anlayış dünyanın qəbul etdiyi tərzdədir. Hərbi Qənimətlər Parkında nümayiş olunan eksponatların hamısı orijinaldır, döyüş meydanında vurulan və erməni hərbçilərinin döyüş meydanında qoyub qaçdığı hərbi texnikalardır. Ölkəmin atdığı bu addım çox doğrudur və bizim şanlı qələbəmizi nümayiş etdirir. Azərbaycan xalqı, dünyada yaşayan soydaşlarımız və o cümlədən haqq və ədalətin yanında dayanan xalqlar, millətlər də bu muzeylə fəxr edir. Təəssüf edirəm ki, səfir bir milyona yaxın azərbaycanlının 30 il didərgin düşdüyünü, Ermənistanın işğal etdiyi əraziləri xarabazara çevirdiyini, məscidlərimizdə donuz saxladığını ”unudub”. Şəhər və kəndləri xarabazar edən bir xalq necə ləyaqətli ola bilər? Bu suala cavab versin”.

Partiya sədri hesab edir ki, Fransa XİN səfirin bu sözlərinə görə, Azərbaycandan üzr istəməlidir.

Fransanın Ermənistandakı səfiri Azərbaycanda Hərbi Qənimətlər Parkının açılışı ilə bağlı şərhində bildirib ki, “müharibə tamaşa predmeti olmamalıdır”. Səfir, həmçinin Ermənistanın məğlubiyyətini “ləyaqətli məğlubiyyət” adlandırıb.

# Türkiyənin yeni səfiri gələn həftə Bakıya gəlir

***Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Cahid Bağçı gələn həftə Bakıya gələcək.***



Bu barədə Azvision.az -a Türkiyənin Azərbaycanda səlahiyyət müddəti başa çatmış səfiri Erkan Özoral məlumat verib.

Diplomat bildirib ki, yeni səfir gələn həftənin əvvəlində Bakıda olacaq.

Xatırladaq ki, Türkiyə Prezdenti Rəcəb Tayyib Ərdoğanın sərəncamı ilə Cahit Bağçı Azərbaycana yeni səfir təyin edilib. C.Bağçı daha əvvəl Türkiyə Böyük Millət Məclisinin deputatı olub.

# Gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir

***Azərbaycan Ordusunun bütün hərbi hissələrində hərbi xidmətə yeni çağırılmış gənc əsgərlərin hazırlığına xüsusi diqqət yetirilir, bu kateqoriyadan olan hərbi qulluqçularla müxtəlif nəzəri və praktiki məşğələlər keçirilir.***

Müdafiə Nazirliyindən “Unikal”a verilən məlumata görə, məşğələlərdə gənc əsgərlərə hərbi intizam qaydaları öyrədilir, onların sıra vərdişləri formalaşdırılır və təkmilləşdirilir. Məşğələ rəhbərləri tərəfindən keçirilən dərslərdə şəxsi heyətə sıra hazırlığının fənn və elementləri öyrədilir.

Hərbi hissələrdə hərbi qulluqçuların fiziki hazırlığına da xüsusi önəm verilir. İdman şəhərciklərində şəxsi heyətlə fiziki hazırlıq üzrə dərslər keçirilir. Dərslər zamanı şəxsi heyət müxtəlif idman qurğularında məşqlər keçir müxtəlif normativlər yerinə yetirir.

Azərbaycan Ordusunda günün nizam qaydasına uyğun olaraq hərbi qulluqçuların asudə vaxtını səmərəli keçirməsi üçün hərbi hissələrdə istirahət guşələri, ideoloji otaqlar mövcuddur. Burada hərbi qulluqçular hərbi mətbu orqanlarının nəşr etdiyi qəzet, jurnal və digər məhsulların yeni buraxılışları ilə tanış olurlar.

# Toy oliqarxlarının ilginc fəndləri...

## Ölkənin aparıcı şəhərlərindəki şadlıq evlərində karantin rejimi tələblərinin kobud şəkildə pozulmasında məmur izləri də az deyil

***Məlum olduğu kimi, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarına əsasən COVİD-19 (koronavirus) pandemiyasına görə, ölkədə ötən ilin mart ayından etibarən toy-nişan mərasimlərinin keçirilməsi qadağan edilib. Buna baxmayaraq hər gün qanunları pozub, övladlarına toy-nişan etmək istəyənlərlə bağlı xəbərlər yayılır.***

Xüsusilə son günlər Bakı, Abşeron və Sumqayıtdakı müxtəlif restoranlarda, şadlıq evlərində gizli toy məclislərinin təşkil olunduğuna dair iddialar səslənir. Elə hüquq-mühafizə orqanlarının axır həftələrdə müxtəlif şadlıq evlərində toy mərasimlərinin keçirilməsinə dair məlumatları da bu iddiaları təsdiqləyir. Aydın görünür ki, günlərdə isə qalanları iştirak edirlər. Tutaq ki hansısa toy sahibi 300 nəfərlik məclis qurmalıdır. Belədə qonaqlar əsasən hər birində 100 nəfər olmaqla üç gün ərzində iştirak edirlər. Buna məna verməк çətindir. Çünki hər hansı məclisdə 100, yoxsa 200 nəfərin iştirakı heç bir əhəmiyyət kəsb eləmir. Qanunvericiliyin tələbləri istənilən halda pozulduğu üçün...

Bəzi şadlıq evlərində isə ”kafe üsuluna” əl atılır. Elə mənzərə yaradılır ki, sanki bura şadlıq evi yox, hansısa kafedir, içəridəkilər də hansısa toy mərasimi üçün yox sadəcə ailəvi, yaxud dost-tanışla birgə yeyib-içməyə, istirahət eləməyə gəliblər. Məsələn, masalar bir-birindən xeyli aralı qoyulur, bəy və gəlin onlar üçün ayrılmış xüsusi yerdə yox, adi masalar-



dan birində əyləşdirilir, bəzən isə hətta bəy və gəlinin libası digər qonaqlardan elə də fərqlənmir. Lakin bu halda da qanunvericiliyin tələbləri pozulmuş olur. Çünki: 1. Həmin obyektlərin adı üzərindədir - şadlıq evi. Yəni təyinatı bəllidir. 2. Hətta kafelərdə də eyni vaxtda qəbul edilə biləcək müştəri sayı bəllidir. Yəni hər bir kafe öz sahəsinə uyğun icazə verilmiş sayda müştəri qəbul edə bilər.

Əlbəttə, bir ildən çoxdur işləməyən şadlıq evləri və onların sahiblərinin vəziyyətini başa düşürük. Bu obyektlərin işləmədikləri halda belə müxtəlif xərcləri kifayət qədər böyük məbləğ təşkil edir. Toy oliqarxlarının müəyyən müddətdən sonra həmin xərcləri öz ciblərindən ödəmək istəməmələri başa düşüləndir. Lakin bu vəziyyətdən çıxış yolu heç də karantin rejimi qaydalarının pozulması yaxud hökumətin pandemiya əleyhinə tədbirlərini sabotaj eləmək deyil.

Sabotaja cəhd edənlərin koronavirus təhlükəsinə və qanunlara etinasız münasibətinin səbəbi isə yuxarıda vurğuladığımız kimi çox açıqdır: əksər şadlıq evlərinin müəyyən nüfuzlu məmurlar tərəfindən himayə olunması! Bu obyekt sahiblərinin - ”toy oliqarxlarının” kimlərinsə gücünə güvənməsi!

Bəli, vətəndaşlar indiki şəraitdə məsuliyyətli olmalı, kütləvi tədbirlər barədə düşünməməli, qlobal bir bəladan daha az itki ilə çıxmaq üçün ictimai məsuliyyət hissindən və həmrəylik duyğusundan uzaqlaşmamalıdırlar. Lakin bunun üçün şərait yaradanlar da ictimai qınaqdan və tənbehdən yaxaları-nı kənara çəkə bilməzlər.

Həqiqətən, acınacaqlı vəziyyətdir: cəmiyyətə örnək təş-

bəzi vətəndaşlarla yanaşı, bir çox şadlıq evləri, restoranlar da karantin qaydalarına etinasız yanaşırlar.

Əvvəla, onu qeyd edək ki, Azərbaycanda əksər toyxanaların arxasında hansısa məmur dayanır. Bu şadlıq evləri ya onların özlərinə, ailə üzvlərinə məxsusdur, ya da himayə etdikləri iş adamına, biznesmenə... Elə məhz buna görə də bir sıra şadlıq evləri hökumətin qərarlarına və dövlətin qanunlarına dırnaqarası münasibət sərgiləyirlər. Belə hesab edirlər ki, onları himayə edən məmurların nüfuzu, təsir imkanları sayəsində istədiklərini eləməkdə sərbəstdirlər.

İkincisi, əldə etdiyimiz məlumata görə, şadlıq evlərinin sahibləri toyların təşkili üçün müxtəlif maraqlı fəndlər fikirləşib tapıblar. Məsələn, bəzi şadlıq evlərində bir toy iki, hətta üç gün davam edir. Toyun ilk günü dəvətlilərin bir qismi, növbəti

kil etməli olan adamlar, keçmişdə və yaxud indi yüksək post tutanlar bu qədər ölüm-itimlərdən sonra da COVİD-19 pandemiyasının hər birimizin sağlamlığı üçün nə qədər ciddi təhlükə təşkil etdiyinin fərqində deyillər. Üstəlik, bununla bağlı dövlətin müəyyənləşdirdiyi tələblərə dırnaqarası yanaşaraq ya özlərini qanunlardan üstün tutur, ya da ”qaz vurub qazan doldurmağı” daha önəmli sayırlar. Yayılan məlumatlar, söz-söhbətlər, ən əsası, konkret faktlar onu göstərir ki, belələrinə qarşı dövlət hüquq çərçivəsində ən sərt cəza tədbirlərinə əl atmaqda haqlıdır. Hətta bu cür addımlarını bir az da kəskinləşdirməlidir.

Unudulmamalıdır ki, kiminsə şəxsi maraqları millətin sağlamlığından və qanunların aliliyindən, eyni zamanda dövlətin iradəsindən yuxarıda dayana bilməz!

***Hüseyn İsgəndərov***

# Bəzi məmurların "sənədsiz ev sabotajı" - sensasiyalı təfərrüatlar...

## Qanunsuz tikililərin sənədləşdirilməsində müəmmalı maraq toqquşmaları: köhnə problemin həllini kimlər və niyə dalana dirəyirlər?

***Yola saldığımız həftə paytaxt və ətrafında inşa olunan evlərin sənədləri̇lə bağlı məsələ yenidən gündəmə gəlib. Milli Məclisdə keçirilən iclasda deputat Fazil Mustafa deyib ki, qanunsuz tikilən evlərlə bağlı problemlər həll olunmalıdır. Deputat bildirib ki, Bakıya girəndə Sulutəpədən başlamış, şəhərin bütün giriş-çıxışlarına baxanda Bakı bir gecəqondu şəhərini xatırladır: "Bunu dəyişməliyik.***

Bu məsələdə qurumlararası münasibətlər acınacaqlı vəziyyətdədir. Bələdiyyələrin qərarı keçərli deyilsə, onda hansı sənəd burada əsas götürülə bilər? Yüzlərlə qanunsuz sərəncam Şəhərsalma və Arxitektura Komitəsinə miras qalıb. Rayonlarda elə vəziyyət yaradılmalıdır ki, insanlar dədə-baba yurdlarında yaşasınlar. Bu, ciddi problemledici addım ata, problemi yoluna qoya bilmirlər. Bu isə haqlı olaraq belə təəssürat yaradır ki, sənədləşmə işi kimlərinsə marağına cavab vermir. Əlbəttə, bunun səbəb yaxud səbəblərini demək çətindir. Lakin qanunsuz tikililərin sənədləşdirilməsi yubandıqca dövlət xəzinəsinin hər il külli miqdarda vəsaitdən məhrum olduğu da bir gerçəklikdir.

İndi də ortaya pandemiya bəhanəsi atılıb. Əmlak Məsələləri Dövlət Xidməti yanında Torpaqların Dövlət İdarəetməsinin Təşkili üzrə Dövlət Agentliyinin direktor müavini Şamil Abdullayev bu günlərdə deyib ki, hazırda sənədsiz tikililərin inventarlaşdırılması işləri davam edir. Onun sözlərinə görə, bu proses hələ ki, tam başa çatdırılmayıb: "Pandemiyaya görə sənədsiz evlərin inventarlaşdırılması ilə bağlı yaradılmış komissiyaların fəaliyyətində müəyyən Hacıbala Abutalıbova göstəriş vermişəm. Bu məsələnin həlli üçün şəffaf mexanizm işlənməlidir ki, biz burada korrupsiyanı, rüşvətxorluğu tamamilə aradan götürək. Yoxsa, xoşniyyətli bir təşəbbüs yenə də bəzi adamların tamahkarlığı ucbatından bizə ancaq problemlər gətirə bilər".

Amma görünən odur ki, ölkə başçısının dediyi kimi, ötən müddətdə bu xoşniyyətli təşəbbüsdən qaz vurub qazan dolduranlar vardı. Əks halda sənədləri qaydasında olan vətəndaşları min bir bəhanə ilə get-gələ salmazdılar.

Son illərdə ölkədə genişmiqyaslı kadr və struktur silahatları aparılıb. Bu islahatların qanunsuz evlərin sənədləşdirilməsi prosesinin süni yubadılmasının qarşısını alacağına dair gözləntilər var idi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, hələlik bu gözləntilər özünü doğrultmayıb. Hələ də hansısa "gizli əllər" məsələnin həllini dalana dirəməkdə davam edirlər. Elə ekspertlər də eyni qənaətdədirlər; məsələn, "MBA Konsaltinq" Şirkətinin rəhbəri Nüsrət İbrahimli açıqlamalarının birində demişdi ki, sənədsiz evlərin qeydiyyatı məsələsinin həll olunmamasına obyektiv və subyektiv amillər əngəl olur. Sitat: "Subyektiv amillər olaraq onu deyə bilərəm ki, sənədsiz evlərin qeydiyyatının ləngiməsi yaqin kiminsə maraqlarının tapdanması ilə əlaqədardır...".



Unutmayaq ki, qeydiyyatsız evlərin sənədləşdirilməsi prosesinin yubanması həm vətəndaşlara, həm də dövlətə ciddi ziyan vurur. Müstəqil ekspertlərin hesablamalarına əsasən, qeydiyyatsız evlərin mövcudluğundan hər il dövlət büdcəsinə təxminən 100 milyon manatdan artıq vəsaitin daxil olmasının qarşısı alınır. Evlərin qeydiyyatsız olması həmin mülk sahiblərinin əmlak vergisindən kənarda qalması ilə nəticələnir. Görünür, hansısa maraqlı qüvvələr sənədləşdirməni yubatmaqla həmin böyük pulları dövlətin xəzinəsindən yayındırmağa, öz ciblərinə yönəltməyə çalışırlar.

Bundan başqa bəzi ekspertlərin fikrincə, sənədləşmə normal qaydada həyata keçirilərsə, bu, bir çox məmurların maraqlarına toxuna bilər. "Bəzi sahələrə məmurların gözü düşübsə, onlara sənədsiz evlərdə yaşayanları ərazidən çıxarmaq daha asandır. Qanunsuz tikililər adı ilə öz niyyətlərini gerçəkləşdirmək daha asandır" - onlar belə deyirlər.

Yuxarıda sadalanan faktorları ciddiyə almaq lazımdır, əks halda adi bir problemin 10 ildən çoxdur heç cür həllini tapmamasına məntiqi izah vermək çətindir. Həm də çox çətindir...

dir və həllini tapmalıdır".

Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə yerli KİV-ə bildirib ki, Sulutəpə yaşayış massivində, eləcə də Bakıətrafı ərazilərdə yerləşən sənədsiz tikililər arasında gecəqondular olsa da, qanunsuz evlərin hamısı gecəqondu sayıla bilməz: "Elə evlər var ki, onlara gecəqondu demək olmaz. Sözügedən ərazidə elə evlər inşa olunub ki, onları tikməyə aylarla vaxt lazımdır. Gecəqondular isə bir gecəyə tikilən evlərdir". Bununla belə ekspert bildirib ki, hətta gecəqondu sayılan evlərə belə işıq, qaz, su sayğacları qoyulub: "Vətəndaş özünə elektrik, qaz və su xətti çəkib. Aidiyyəti qurumlar isə o evlərə sayğac qoyub. Deməli aidiyyəti qurumlar bu evin vətəndaşlara məxsus olduğunu təsdiqləyiblər. Ona görə də gecəqondular da sənədləşdirilməlidir..."

"Sənədləşdirilməlidir!" - mütəxəssislər sənədsiz evlərlə bağlı bu tələbi illərdir səsləndirirlər; lakin problem sözün həqiqi mənasında dalana dirənib. Az qala 10 ildir ki, aidiyyatı qurumlar bu məsələ ilə bağlı həlfasilələr olur. Amma bu komissiyalar işləyirlər. 8-9 nəfərin təmsil olunduğu komissiyalar rayon icra hakimiyyətlərinin nəzdində yaradılıb...."

Əvvəla, pandemiya bir ildir ortaya çıxıb, qanunsuz tikililərin sənədləşdirilməsi zərurətindən, bu istiqamətdə addımlar atıldığından isə hardasa 10 ildir danışılır.

İkincisi, əksər ekspertlərin fikrincə, sənədləşdirmə prosesini sabotaj eləyən elə icra hakimiyyətlərinin özləridir. Onlar hansısa səbəblərdən bu işin sürətlənməsində maraqlı deyil.

Hələ 2011-ci ilin martında Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə prezident rəsmi icazə olmadan tikilmiş evlərin sənədləşdirilməsi ilə bağlı hökumətə xüsusi tapşırıq verdiyini demişdi: "Bakıda evlərin qeydiyyata alınması problemi var. Ancaq elə etmək lazımdır ki, bu problem həll olunarkən xoşagəlməz halların qarşısı tam şəkildə alınsın. Sirr deyil ki, qeydiyyata alınma zamanı əsassız tələblər irəli sürülə, rüşvət, əsassız maraqlar ola bilər. Bu, reallıqdır. Ona görə də

*Aytac Nurullayeva*



## Putin və Lukaşenko Qarabağı müzakirə edib

***Rusiya Prezidenti Vladimir Putinlə Belarus lideri Aleksandr Lukaşenko arasında telefon danışığı olub.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb.

Qeyd edilib ki, tərəflər müttəfiqlik münasibətlərini gücləndirmək niyyətlərini dilə gətirib, həmçinin Dağlıq Qarabağ mövzusuna toxunublar.

"Lukaşenkonun 13-14 aprel tarixlərində Azərbaycana səfəri kontekstində Dağlıq Qarabağ mövzusu müzakirə edilib", - deyə məlumatda vurğulanıb.

## Vilayət Eyvazov generala yeni köməkçi təyin etdi

***Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Gəncə polisinin rəisi, general-mayor Teymur Hacıyevə köməkçi təyin edib.***

Unikal.org Qafqazinfo-ya istinadən xəbər verir ki, nazirin əmri ilə polis polkovnik-leytenantı Füzuli Şıxıyev Kəpəz Rayon Polis İdarəsinin Təhqiqat Bölməsinin rəisi vəzifəsindən azad edilib.

Nazirin digər əmri ilə F. Şıxıyev Gəncə şəhər Baş Polis İdarəsinin rəisi, polis general-mayoru Teymur Hacıyevin Şəxsi heyətlə iş üzrə köməkçisi təyin edilib.

## "YAŞAT" daha bir şəhidin övladına hesab açır

***"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.***




"Unikal" xəbər verir ki, daha bir şəhidimizin yeni doğulan övladının, şəhidimiz Kamran Kazımovun övladı Kamrananın zəruri xərcləri Fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 18 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər.

Allah şəhidimizə rəhmət etsin!

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# Jurnalistlər növbəti dəfə Ağdama səfər etdi



***Dünən bir sıra media nümayəndələri işğaldan azad edilmiş Ağdam rayonunun Təzəkənd kəndinə səfər edib.***

Unikal.org-un Ağdama ezam olunan əməkdaşının verdiyi məlumata əsasən, səfər zamanı media nümayəndələri minalanmış ərazilərin təmizlənməsi barəsində ətraflı məlumat alıblar. Həmçinin ANAMA-nın region üzrə əməliyyat meneceri Ehtiram Cəfərov jurnalistlərə açıqlamasında bildirib ki, ermənilərin ağır artilleriyadan atəşə tutduğu yaşayış məntəqələri və əkin sahələri hərbi sursatla çirklənmiş ərazi hesab olunur: “Atəşə tutulan həmin ərazilər təhlükəli ərazi hesab olunur. Hazirda həmin ərazilərin ANAMA-nın əməliyyat qrupuları tərəfindən tam təmizlənmə işləri davam etdirilir.”

***Gülayə Mecid***

# Evdən çıxan koronavirus xəstəsi saxlanıldı

***Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən COVID-19 infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən nəzarət-profilaktik tədbirlər zamanı aktiv koronavirus xəstəsi ictimai yerdə aşkar olunub.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Unikal.org-a verilən məlumata görə, Hacıqabul rayon sakini Vüqar Cəbrayılov koronavirus testinin nəticəsi pozitiv olduğu üçün ev şəraitində müalicə təyin edilsə də o, sanitar-karantin qaydalarını pozaraq yaşadığı ünvanı tərk edib.

V.Cəbrayılovun yeri polis əməkdaşları tərəfindən müəyən edilib, onunla izahedici söhbətlər aparılıb, tibbi prosedurlar gözlənilməklə yaşadığı evə qaytarılıb.

# "Bandotdel" əməliyyat keçirdi: Saxlanılanlar var



***Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən keyfiyyətsiz, insan sağlamlığı üçün ciddi təhlükə yarada biləcək şampun və digər kosmetik vasitələrin satışının qarşısının alınması istiqamətində əməliyyat həyata keçirilib.***

Unikal.org DİN-ə istinadən xəbər verir ki, belə ki, Baş İdarəyə vətəndaşlardan daxil olan çoxsaylı şikayətlər əsasında həyata keçirilən əməliyyat zamanı Bakı şəhər sakini Fuad Abdullayev saxlanılıb. Ona məxsus paytaxtın Nizami rayonunda yerləşən anbara baxış zamanı kustar üsulla qablaşdırılmış mənşəyi məlum olmayan hazır şampunlar, digər kosmetik məhsullar, külli miqdarda etiketlər, holoqramlar, qapaqlar və sair ləvazimatlar aşkar olunaraq götürülüb.

Araşdırma zamanı müəyyən edilib ki, Fuad Abdullayev şəxsiyyəti istintaqa məlum olan hazırda xarici ölkələrdən birində gizlənən tanışı ilə cinayət əlaqəsinə girərək dəyərindən aşağı qiymətə mənşəyi məlum olmayan məhsulları qeyd edilən anbarda əvvəlcə boş qablara doldurub. Daha sonra onlar həmin qabların üzərinə saxta “Brasil Botox-Keratin” əmtəə nişanlı etiket və holoqramlar yapışdıraraq orijinal məhsul adı ilə satışını həyata keçiriblər. Həmçinin, Fuad Abdullayev və tanışı sosial şəbəkələrdə özlərinə məxsus səhifələr yaradaraq qeyd edilən məhsulların onlayn satışını da təşkil ediblər. Həmin məhsullardan götürülən nümunələr əsasında keçirilən ekspertiza zamanı müəyyən olunub ki, aşkar edilən şampun, eləcə də, digər vasitələr keyfiyyətsiz olmaqla yanaşı, istifadəyə yarasızdır və insan sağlamlığına ciddi mənfi təsir göstərə bilər.

Qeyd edilən faktla bağlı Baş İdarənin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin 200.1-ci (İstehlakçıları aldatma və ya pis keyfiyyətli məhsul istehsal etmə və satma) maddəsi ilə cinayət işi başlanılıb, əməliyyat və istintaq tədbirləri davam etdirilir.

# Əsabil Qasımovun adı indi də tikinti qalmaqallarında hallanır

## Sabiq deputat və oliqarxın adı ətrafında skandallar niyə səngimir?

***Keçmiş millət vəkili, eyni zamanda Azərbaycanın ən iri oliqarxlarından biri olan Əsabil Qasımovun adı növbəti qalmqala qarışıb. Belə ki, Bakı şəhər sakini Zərifə Zülfüqarova tərəfindən yerli mediaya daxil olan müraciətdə sabiq deputatın da adı hallanır.***

Z.Zülfüqarova müraciətində “Azəri Tikinti” MMC-nin qanunsuz olaraq Nəsimi rayonu, Sahib Zeynalov 19 ünvanında yerləşən ona məxsus qeyri-yaşayış sahəsini dağıtdığını bildirib. Məsələ belədir ki, Nazirlər Kabineti 2016-cı ildə Bakının bir neçə rayonunda, o cümlədən, Nəsimi rayonunda köhnə və qəzalı yaşayış binalarının sökülərək yerində çoxmənzilli yaşayış binalarının tikilməsi barədə qərar verib. Qərarda aydın və birmənalı şəkildə deyilir ki, tikintini aparacaq podratçı şirkət əmlak sahibləri ilə tam anlaşma əldə etməli, onların əmlakına dəymiş ziyanın əvəzlənməsi barədə razılıq əldə etməli və yalnız bundan sonra qəzalı və ya köhnə yaşayış binası sökülməlidir. Ancaq, konkret halda, şikayətçinin iddiasına görə, “Azəri Tikinti” MMC onunla heç bir razılaşma əldə etmədən, əvəz ödəmədən, yalnız özünə sərf edən şərtlər qoymaqla qanunsuz şəkildə binanı dağıdıb.

Şikayətçi bildirib ki, üstəlik, şirkət deputat Əsabil Qasımovun himayəsində olduğu üçün hətta məhkəmələrə də təzyiq göstərilir, onun əmlakı qeyri-yaşayış sahəsi olduğu halda, ona yaşayış sahəsinə uyğun təkliflər edilir, halbuki, bunların arasında fərq böyükdür.

Şikayətçinin nümayəndəsi isə KİV-ə deyib ki, ”Azəri Tikinti” MMC-nin direktoru İlqar Həsənov Əsabil Qasımovun qardaşının kürəkənidir. Sitat: ”Əsabil Qasımovun burada əlbəttə ki, çox ciddi və bilavasitə rolu var. Bu tikinti şirkəti Əsabil Qasımovun özünə məxsusdur, sadəcə, qohumu olduğu üçün onun idarə olunması İlqar Həsənova həvalə edilib”.

Qeyd edək ki, Ə.Qasımovun adı istər deputat olduğu dövrdə, istərsə də ondan sonrakı dönəmdə saysız-hesabsız qalmaqalda hallanmaqdadır. Hətta belə də demək mümkündür: Əsabil müəllimin adına mətbuat səhifələrində sadəcə skandal xəbərlərdə, müxtəlif məzmunlu şikayətlərdə rast gəlmək olar. O, xüsusilə son vaxtlar un və un məhsullarının bahalaşmasında əsas günahkarlardan biri kimi göstərilir. Bu da səbəbsiz deyil: ölkədə un istehsal edən ən böyük şirkətlərdən birinin - “Karat Holdinq” MMC-nin sahibi məhz Əsabil Qasımovdur. Bu səbəbdən də iddia edilir ki, qiymət qalxmasında əsas rolu ”Karat Holdinq” oynayır. Bu həm adıçəkilən şirkətlər qrupunun inhisarçı mövqelərindən qaynaqlanır, həm də keçmiş təcrübədən. Belə ki, hələ 2015-ci ildə holdinqin əsas istehsal sahəsinin yerləşdiyi İmişli şəhərində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları əməliyyat keçirmişdilər. Nəticədə “Karat”da istehsal olunan unun topdansatışı ilə məşğul olan iki böyük anbardan birinin sahibi tutulmuşdu. Lakin bu ümumi vəziyyəti dəyişmədi. İki il sonra - 2019-cu ildə Ə.Qasımovun holdinqi ölkədə unun növbəti dəfə bahalaşmasının əsas günahkarı kimi göstərildi. Həmin vaxt sabiq deputat bu qiymət artımına müxtəlif bəhanələrlə haqq qazandırmağa çalışdı. Aradan daha iki il keçib. Unun qiymətində yenidən yüksəliş var, bu da çörəyi də bahalaşdırmaq istəyənləri hərəkətə keçirir. Hədəf isə haqlı olaraq dəyişməyib: tənqidlər yenə də Əsabil müəllimin ”Karat Holdinq”inə - bazarın ən böyük un istehsalçısına yönəlib.



Lakin son zamanlar sabiq deputatın adı ətrafında tikinti qalmaqalları da az deyil. Söhbət yalnız yazının əvvəlindəki şikayətdən getmir. Məsələn, bir müddət öncə məsələn, Əsabil Qasımovun Nəsimi rayonu Mikayıl Rəfili küçəsi 17 ünvanda yerləşən binanın sakinlərinin də evini sökdürdüyü məlumatı yayılmışdı. Belə ki, həmin ünvanda yaşayan sakinlər bildirmişdilər ki, evdə olmadıqları vaxtda deputata aid olan ”Karat” MTK şirkətinin işçiləri onların mülkünü dağıdırlar. 60 yaşlı Quliyev Aydın İmran oğlu evdən çıxan kimi, evinin söküldüyünü görmüş və demişdi: ”Baxın, görün məni nə günə salıblar? Bu yaşımda başıma belə bir ”oyun” açacaqlarını gözləmirdim. Evimi sökməklə məni öldürdülər”.

Nümunələrdən belə görünür ki, Ə.Qasımov yalnız un yox, həm də tikinti biznesinə sahibdir. Üstəlik, bu biznesində də qanunlara qarşı gəlməkdən çəkinmir, vətəndaşlara məxsus yaşayış, yaxud qeyri-yaşayış sahələrini dağıtmağı adət halına çevirib.

Maraqlı olan isə bu qədər qalmqallara, şikayətlərə baxmayaraq sabiq deputat hələ də ürəyi istədiyi kimi davrana bilir. Səbəbi maraqlıdır. Belə çıxır ki, millət vəkili mandatından məhrum edilsə də, nəhəng biznesini qoruyan Qasımovun oliqarx olaraq gücü kimlər üçünsə qanunların gücündən daha yüksəkdə dayanır...

***Ülviyyə Quliyeva***

# "Şəhid ailələri və müharibə əlilləri dövlətin diqqət mərkəzində olacaq" - Cavid Osmanov

*"Vətən müharibəsi Azərbaycanın hər cəhətdən güclü dövlət olduğunu bütün dünyaya sübut etmiş oldu. Ölkəmizin iqtisadi gücünün olması isə parlaq Zəfərimizi təmin edən əsas amillərdən biri hesab edilə bilər. Çünki iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir".*



Bu fikirləri Unikal.org-a açıqlamasında Milli Məclisin deputatı Cavid Osmanov deyib. O bildirib ki, Azərbaycanın iqtisadi cəhətdən güclü olmasını postmüharibə dövründə də görmək mümkündür: "Belə ki, müharibənin yaratmış olduğu mənfi təsirlərin aradan qaldırılması istiqamətində görülən işlər, şəhid ailələri və müharibə əlillərinə dövlət tərəfindən davamlı diqqətin göstərilməsi ölkəmizin iqtisadi gücünə bağlıdır. Azərbaycan sosialyönümlü dövlətdir və ölkə başçısı, cənab Prezident İlham Əliyev hər zaman qeyd edir ki, mənim siyasətimin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bütün bu əsasda dövlətimiz tərəfindən ölkə vətəndaşlarının sosial-rifah halının yaxşılaşdırılması üçün davamlı olaraq tədbirlər həyata keçirilir. Postmüharibə dövründə dövlətimizin sosial siyasətinin əhatə dairəsi daha da genişlənib. Belə ki, şəhid ailələrinin hərtərəfli dövlətin təminatına götürülməsi, müharibədə yaralanan hərbiçilərimizin müayinə-müalicə, reablitasiya kursları keçməmləri, eyni zamanda yüksək texnoloji protez və avadanlıqlarla təmin olunmaları bu istiqamətdəki işlərin bir qismidir. Bundan əlavə şəhid ailələri və müharibə veteranlarına mənzil və avtomobillərin verilməsi də dövlətimizin sosial siyasətinin əsasını təşkil edir".

Deputat onu da qeyd edib ki, bu günə qədər 2862 şəhidin 7314 ailə üzvünə 13333 sosial ödəniş (pensiya, müavinət, təqaüd) təyin edilib, bütün mülki şəhid ailələrinə təyinatlar yekunlaşdırılmış, 252 müharibə əlilinə sosial ödənişlər təyin edilib: "2021-ci ilin planı üzrə artıq 260 mənzil şəhid ailələri və müharibə əlillərinə verilmişdir. Eyni zamanda keçmiş məcburi köçkünlər üçün inşa olunmuş 6365 mənzilin şəhid ailələrinə verilməsi üçün işlər aparılır ki, məhz ilk mərhələdə Bakı, Sumqayıt, Abşeron üzrə 2600 mənzil şəhid ailələrinə veriləcəkdir.

Postmüharibə dövründə məşğulluq və özünüməşğulluq məsələləri dövlətimizin diqqət mərkəzindədir. Məşğulluq və özünüməşğulluq proqramları çərçivəsində 7293 nəfərlə ümumi iş aparılmışdır ki, onlardan da 5 412 nəfərin məşğulluğu təmin olunub".

C.Osmanovun sözlərinə gööörə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə maaş, təqaüd və müavinətlərin ödənişlərində heç bir gecikmələr olmayıb və ölkə üzrə təqaüdlərin ödənişləri hər ayın 15-nə kimi həyata keçirilib: "Ölkədə sosial müdafiə tədbirlərinin gücləndirilməsi, pensiyaçıların rifahının yaxşılaşdırılması məqsədilə Prezident İlham Əliyevin 5 fevral 2021-ci il tarixli Sərəncamı ilə Əmək pensiyalarının indeksləşdirilməsi həyata keçirilmiş və artımlar 2021-ci ilin 1 yanvar tarixindən tətbiq olunmuşdur. Cənab İlham Əliyev 25 yanvar 2021-ci il tarixdə "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalamışdır ki, bununla da Sərəncamda qeyd olunan kateqoriyadan olan şəxs və ailələrin 2021-2025-ci illər ərzində mənzil və ya fərdi yaşayış evləri ilə təmin edilməsi həyata keçiriləcəkdir. Şəhidlər, müharibə əlilləri və veteranların dəqiq uçotun aparılması və operativliyi təmin etmək üçün elektron reyestrin yaradılması planlaşdırılır ki, bu məqsədlə də Azərbaycan Respublikası qanunlarına dəyişikliklərin edilməsi üçün Milli Məclisdə müzakirələr aparılır. Şəhid ailələri və müharibə əlilləri məhz bundan sonra da dövlətin diqqət mərkəzində olacaq və onların sosial-rifah halının davamlı olaraq yaxşılaşdırılması üçün lazimi tədbirlər həyata keçiriləcək".

***Murad İbrahimli***

# İtaliya parlamentinin üzvləri Gəncədə olublar

*İtaliya parlamentinin nümayəndələri Gəncə şəhərinə səfər ediblər. Qonaqları Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Kamran Məhərrəmov və şəhər rəsmiləri qarşılayıblar. Onlar Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində dağılan əraziyə baş çəkiblər.*



Gəncə ŞİH-dən Unikal.org-a verilən məlumata görə, qonaqlar oktyabrın 11-də Gəncədə erməni terroru nəticəsində çoxsaylı insanın öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Bildirilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Oktyabrın 11-də Ermənistan silahlı qüvvələrinin Gəncənin mərkəzi hissəsindəki çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 nəfər həlak olub, 35-dən çox şəxs yaralanıb, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib. Həmçinin qonaqların nəzərinə çatdırılıb ki, eyni hadisə oktyabrın 17-də də baş verib. Bu terror aktı zamanı isə 15 nəfər həlak olub, 50-dən çox şəxs xəsarət alıb. Ümumilikdə Gəncə 5 gün - 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket atəşlərinə tutulub. Nəticədə 26 şəxs həlak olub, 120-dən artıq dinc sakin yaralanıb.

İtaliya parlamentinin nümayəndələri Ermənistan silahlı qüvvəlləri tərəfindən törədilən terror aktını psiləyiblər. Bildiriblər ki, Azərbaycanda 44 gün ərzində davam edən Vətən müharibəsi zamanı İtaliya hökuməti daim ölkəmizi dəstəkləyib.

Daha sonra qonaqlar erməni terroru nəticəsində həlak olanların ruhuna hörmət əlaməti olaraq əraziyə güllər düzüblər.

Xatırladaq ki, parlament üzvləri Gəncə şəhərindən sonra ermənilər tərəfindən viran edilmiş Ağdam rayonuna gediblər.




## Azərbaycan bankları üçün BAFT tərəfindən beynəlxalq seminar keçirilib

*Kapital Bank və Amerika Banklar Assosiasiyasının (American-BankersAssociation) törəməsi olan BAFT (TheBankersAssociationforFinance and Trade), tərəfindən 13-14 aprel 2021-ci il tarixlərində "Müxbir Bankçılıq" adlı onlayn seminar keçirilib. Tədbir Azərbaycan Respublikası Mərkəzi Bankının dəstəyi ilə təşkil olunub.*

Unikal.org xəbər verir ki, tədbirin əsas proqramı beynəlxalq təcrübəyə əsaslanaraq müxbir bankçılıq münasibətlərinin qurulması və onların dəstəklənməsinə həsr olunub. Bu mövzu regionda ilk dəfə təqdim olunaraq Amerikanın və Avropanın qlobal banklarının mütəxəssislərinin iştirakı ilə keçirilib. Seminarda Azərbaycanda fəaliyyət göstərən 20 yerli kommersiya bankı və xarici bankların nümayəndələrindən ümumilikdə 50 mütəxəssis iştirak edib.

Seminarın açılışına qatılan BAFT-ın prezidenti TodBurwell və Azərbaycan Respublikası Mərkəzi Bankının Baş direktoru Toğrul Əliyev tədbirin beynəlxalq əhəmiyyətini qeyd edib və bu istiqamətdə beynəlxalq əməkdaşlıqları dəstəklədiklərinivurğulayıblar.

Kapital Bank-ın İdarə Heyəti sədrinin birinci müavini Fərid Hüseynov seminarın yerli bankların beynəlxalq səviyyədə müxbir bankçılığın hansı təcrübə ilə həyata keçirilməsini daha geniş öyrənməsinə, həmçinin ölkə bankları üçün bu istiqamətin gücləndirilməsi və potensialın artırılmasına dəstək verəcəyini bildirib.

Proqramı zamanı bu sahədəki yeni qlobal trendlərə, daxili və xarici maraqlı tərəflərlə işin təşkili, partnyorlarınseçilməsinin strategiya ilə uzlaşdırılması, gözləntilərin idarə edilməsi, bu prosesdəki potensial risklərin müəyyən edilməsi, banklar arasında əməkdaşlığın inkişafı və idarə edilməsi kimi mövzulara toxunulub. Proqramda həmçinin bu istiqamətdə İT, kiber-təhlükəsizlik və rəqəmsal məqamların da nəzərə alınması kimi mövzular əhatə olunub.

Ölkənin birinci bankı olan Kapital Bank PAŞA Holdingə daxildir və Azərbaycanda ən böyük filial şəbəkəsi - 102 filialı və 19 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.azsaytına, 196 Sorğu Mərkəzinə və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərsiniz.



# Müdafiə Nazirliyi nəhəng soyuducu kameradan videogörüntülər yaydı

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminatının və sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar göstərişinə əsasən həyata keçirilən tədbirlər davam edir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Tədbirlər çərçivəsində mərkəzi ərzaq anbarının bölgələrdə yerləşən bir bölməsində yenidənqurma işləri görülüb. Burada ərzaq məhsullarının qəbulu, saxlanılması və qoşunlara paylanılması üçün lazımi şərait yaradılıb.

Tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq soyuducu kamera, quru ərzaqların saxlanması üçün ümumi tutumu 1000 ton olan saxlanc, kartof və tərəvəzlərin saxlanması üçün isə ümumi tutumu 200 tonluq saxlanc və toxunulmaz ehtiyat ərzaqının saxlanması üçün 140 ton tutumu olan saxlanc binası mövcuddur.

Bundan əlavə ərazidə quru ərzaqların saxlanması üçün soyutma sistemi ilə təchiz edilmiş 500 tonluq saxlanc binası və tez xarab olan ərzaqların saxlanması üçün 200 tonluq saxlanc binası inşa edilib.

Hazırda bu istiqamətdə fəaliyyətlər davam etdirilir.

# Zərifə Əliyevanın anım günüdür

***15 aprel əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Zərifə Əliyevanın anım günüdür.***

"Unikal" xəbər verir ki, görkəmli alimin ölümündən 36 il keçir.

Z.Əliyeva 1923-cü il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olub.

1947-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirib. Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışıb .

Z.Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, o cümlədən "Terapevtik oftalmologiya", "İridodiaqnostikanın əsasları" kimi nadir elmi əsərlərin müəlliflərindən biridir. 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi olub.

Z.Əliyeva yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf edib.

Zərifə Əliyeva görkəmli dövlət xadimi Əziz Əliyevin qızı, ümummilli lider Heydər Əliyevin həyat yoldaşı, hazırkı prezident İlham Əliyevin anasıdır.

Zərifə Əliyeva 1985-ci il aprelin 15-də Moskva şəhərində vəfat edib. Zərifə xanımın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunub.

# Əgər qazancın 25%-dən çoxu ərzağa xərclənirsə... - Yoxsulluqla bağlı hökumətə təklif

***Sizdə də maaş hər ay qapıdan girib, bacadan çıxır? Siz də maaşı alan kimi ora-bura bölüb ayının sonunu zar-zor gətirirsiniz? Yoxsa elə bilirsiniz bu problemi təkcə siz yaşayırsınız? Narahat olmayın, siz tək deyilsiniz.***



Elə rəsmi rəqəmlər də vəziyyətimizin ürəkaçan olmadığını göstərir. Küçədə qaş-qabaqlı gəzən, avtobuslarda bir-birini diri-diri yeməyə hazır olan vətəndaşın psixoloji vəziyyətinin gərginliyinin əsas səbəbi məhz budur. Aldığı maaşı yeməyə, gündəlik tələbat mallarına və nəqliyyata xərcləyən vətəndaşın təbii ki, əyləncəyə, kinoya, teatra, restorana getməyə pulu qalmır. Bəziləri deyə bilər pandemiyadır. Guya pandemiyadan əvvəl hər gün restorana, kinoya pul xərcləyirdilər?..

Görək rəsmi rəqəmlər nə deyir? Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına görə, bu ilin yanvar-mart aylarında əhali pərakəndə ticarətdə 9 mlrd. 525 mln. manat pul xərcləyib. Bu vəsaitin 4 mlrd. 429 mln. manatını sırf ərzağa, 549 mln. manatını spirtli içki və tütün məmulatlarına, 514 mln. manatını yanacağa, 216 mln. 100 min manatını isə əczaçılıq məhsulları və tibbi ləvazimatlara sərf edib.

Dünyada qəbul olunmuş standartlara görə, əgər əhali qazancının 20-25%-dən çoxunu ərzağa xərcləyirsə, deməli o ölkə kasıbdır. Bu barədə Modern.az-a danışan iqtisadçı Natiq Cəfərli bildirib ki, Azərbaycanda yoxsulluq səviyyəsi rəqəmlərdə 5 faizdir, reallıqla uzlaşmır: "Rəqəmlərlə ciddi oynanılır ki, yoxsulluq göstəricisinə uyğunlaşdırılsın və daha aşağı faizlər alınsın. Çünki bizdə kasıblığın və yoxsulluğun hesablanması texnikaları çox köhnəlib. Əhalinin gündəlik ərzaq səbətinə daxil olan məhsulların kalorisi əsasən çörək və kartofla hesablanır. Çünki bu qidaların kalorisi yüksək, dəyəri azdır. Nəticə etibarilə də səbətə görə guya, kalori ehtiyacı ödənilir. Ölkədə yağ və ət istehlakı olduqca aşağıdır. Gündəlik yağ istehlakı ümumilikdə 17 qram, həftəyə 2 yumurta və s. Burada hansı ehtiyacın ödnilməsindən söhbət gedir? Bunlar çox aşağı göstəricilərdir. Bura internet xərcləri daxil edilməyib. Dörd nəfərlik bir ailəyə həftəyə 1 saatlıq internet istifadəsi nəzərdə tutulub. Yəni vətəndaş aldığını ərzağa, dərmana verir, təhsil, mədəniyyət, əyləncəyə heç nə qalmır. Bu, həm də insanların psixoloji vəziyyətinə mənfi təsir edən amildir. Dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinin əksəriyyətində ərzaq səbətinə daxil edilənlər bizdə daxil edilmədiyindən çox aşağı göstərici alınır. Aşağı göstərici hesabına da yoxsulluğun daha aşağı fazilə ifadə olunmasına çalışılır. Əslində normal hesablamalar aparılsa, Azərbaycan əhalisinin təqribən 1/3-nin, 30 faizinin kasıblıq həddində yaşadığı üzə çıxar".

N.Cəfərli Nazirlər Kabinetinə yeni istehlak səbətinin hesablanması ilə bağlı qərar verməsini təklif edib: "Mən Almaniya, Norveç standartlarını tətbiq etsinlər demirəm. Çünki bu, real deyil. Ən azından qonşu dövlətlərin - Qazaxıstan, Rusiya, Gürcüstan, Türkiyənin təcrübələrindən yararlanaraq, yaşayış minimumu və yoxsulluğun hesablama qaydalarını nəzərdən keçirib yeni indikatorlar hazırlanmalıdır. Hesablamalar aparılandan sonra yaşayış minimumu artacaq. Bunun da müqabilində minimum əmək haqqı, minimum təqüdlər artırılmalıdır. Nəticə etibarilə kasıblıq həddinin yeni metodika ilə hesablanması, digər sahələrdə də artımlara səbəb olacaq. İndiki rəqəmlərlə oynayaraq, elə bir mərhələyə gətirib çıxarıblar ki, yaşayış minimumundan daha üst dolanışıq göstəriciləri göstərərək, bu rəqəmi 5 faizə salmaq mümkün olub. Əslində bir çox ölkələrdəki kimi 4 nəfərlik bir ailənin aylıq gəlirləri əsas götürülərək, hesablanmalıdır".

Ekspert həmçinin deyib ki, vətəndaşlar yüksək bank faizlərindən əziyyət çəkirlər: "Dünya ölkələrində insanlar istehlak kreditlərindən yararlanırlar. Amma bank faizləri olduqca aşağıdır. Bu gün Avropada, ABŞ-da istehlak və gündəlik ehtiyac kreditlərinin dərəcəsi 2 faiz civarındadır. Bizdə isə istehlak kreditləri 20-30 faiz arasındadır. Bunlar isə çox yüksəkdir. Əgər bizdə də bank kreditləri 2-3 faizlə verilsə, əhali əziyyət çəkməz. Problem ondadır ki, insanlar ehtiyacdan kredit götürür və keditlərin faiz dərəcəsinin yüksəkliyindən onu ödəyə bilmirlər".

# Yol polisi bir həftədə 19 şəhər və rayonda reydlər keçirib

***Yol hərəkət iştirakçılarını əhatə edən maarifləndirmə və nəzarət-profilaktik tədbirlər çərçivəsində aprel ayının 9-dan başlayaraq Gəncə, Ağdam, Ağdaş, Ağstafa, Qazax, Qəbələ, Zərdab, Göygöl, Neftçala, Oğuz, Samux, Salyan, Tərtər, Tovuz, Xızı, Hacıqabul, Cəlilabad, Şamaxı və Şəki şəhər rayon polis orqanlarının Dövlət Yol Polisi qurumlarının əməkdaşları tərəfindən yollarda piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədi ilə tədbirlər təşkil olunub.***




Bu barədə "Unikal" Baş Dövlət Yol Polisi İdarəsindən (BDYPİ) məlumat verilib.

Piyada keçidlərindən istifadə etməyərək öz həyat və sağlamlıqları ilə yanaşı digər hərəkət iştirakçılarına da təhlükə yaradan piyadalar saxlanılaraq onlarla maarifləndirici söhbətlər aparılıb, kobud formada qayda pozuntusuna yol verən piyadalar barəsində inzibati xəta haqqında protokollar tərtib edilib.

Bununla yanaşı, qanunla nəzərdə tutulmuş hallarda yollarda piyadalara yol verməyən sürücülər də müəyyən edilərək barələrində inzibati tənbeh tədbirləri görülüb, yol hərəkəti qaydalarına riayət etməyin vacibliyi bir daha onların diqqətinə çatdırılıb.

# Tarixi qələbəmiz regional əməkdaşlığın yeni mərhələsinə keçidi şərtləndirib

***"Azərbaycan Cənubi Qafqazda yaratdığı yeni reallıqlarla həm də regionun tarixində yeni bir səhifə açdı. Artıq region ölklərinin və qonşu dövlətlərin qarşısında tamamilə yeni, daha perspektivli inkişaf istiqamətləri açılıb. Əlbəttə ki, bu imkanlardan yararlanmaq üçün beynəlxalq əməkdaşlığın qurulması lazımdır. Azərbaycan isə hər zaman konstruktiv əməkdaşlığın tərəfdarı olub. Aprelin 13-də ADA Universitetində keçirilmiş "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda səslənən fikirlər də bunu bir daha təsdiq etmiş oldu."***



"Unikal" xəbər verir ki, bu barədə Trend-ə açıqlamasında Milli Məclisin deputatı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev deyib.

Millət vəkili qeyd edib ki, Azərbaycan xalqı öz Qələbəsini dövlətimizin iqtisadi və siyasi gücü, eləcə də beynəlxalq nüfuzunun xüsusilə son illər artması nəticəsində əldə etmişdir: "Qarabağ mövzusu həmişə ölkənin bütün gündəliklərində olub. Bütün beynəlxalq tədbirlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyev Dağlıq Qarabağ məsələsini hər zaman prioritet edib və bütün bu illər ərzində dünyanın ən mötəbər kürsülərindən etdiyi bütün çıxışlarında dövlətimizin başçısı bu məsələni daima önə çəkib. Lakin rəsmi İrəvan bütün bu illər ərzində Azərbaycanın dəyişildiyini və gücləndiyini dərk edə bilmədi. Buna görə də indi Ermənistan məğlub və misgin bir ölkəyə çevrilmişdir. Azərbaycanın Qələbəsi isə həm ölkəmizin, həm də regionun inkişafında yeni bir mərhələ açıb. Lakin möhtərəm Prezidentimizin də dediyi kimi, inkişafın əsası sabitlikdir. İnkişaf üçün Azərbaycan daxilində, eləcə də sərhədlərdən kənarda stabilliyə ehtiyac var. Təbii ki, Azərbaycan riskləri minimallaşdırmaq üçün müvafiq addımlar atacaq. Azərbaycanın Qoşulmama Hərəkatında götürdüyü öhdəliklər və bu əsasla regionda yaratdığı yeni əməkdaşlıqlar dövlətimizin böyük uğurudur. Buraya Türkiyə-İran, Gürcüstan-Türkiyə, Rusiya-İran üçtərəfli əməkdaşlıq daxildir və əməkdaşlıq formatları regional stabilliyə misilsiz töhfədir.

Səttar Möhbalıyev daha sonra vurğulayıb ki, Azərbaycanın indiyədək bütün məsələlərdə konstruktiv mövqe sərgilədiyi və beynəlxalq hüququn tərəfdarı olduğu da konfrans iştirakçıları tərəfindən birmənalı qəbul edilib: "Konfrans iştirakçıları da öz çıxışlarında qeyd etdilər ki, Azərbaycan innovasiya, texnologiya və taktika ilə yanaşı, misilsiz cəsarət nəticəsində həlledici Qələbə qazanmışdır. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təmkinli şəkildə müharibə apardı. Qarşı tərəfin mülki infrastrukturuna zərər və mülki vətəndaşlar arasında itki minimal səviyyədə olmuşdur. Azərbaycan Prezidenti müharibənin hərbi fazasını Şuşadakı Qələbəmizdən sonra dayandırmaqla dərin strateji baxış nümayiş etdirdi. Müharibə zamanı vurğulanan hədəflər, əslində, illər boyu aparılmış danışıqların, ilkin razılaşmaların, 2009-cu ildə razılaşdırılmış baza prinsipləri ilə uzlaşır. Həmçinin İkinci Qarabağ müharibəsinin yenidən qabarıq formada üzə çıxardığı məqamlardan biri də Azərbaycanın həqiqətən tolerant və multikultural bir ölkə olmasıdır. Azərbaycan burada yaşayan bütün xalqların doğma Vətənidir və Azərbaycan çoxmillətli ölkədir. Vətən müharibəsi zamanı bütün etnik qruplardan olan insanlar son damla qanlarınadək tək düşmənə qarşı vuruşublar. Azərbaycan həmişə konstruktiv mövqedə olub, danışıqların simulyasiyasına etiraz edib. Ölkəmiz münaqişənin həlli yollarının tapılmasında hər zaman maraqlı olub, çünki biz münaqişədən əziyyət çəkən tərəf olmuşuq. Lakin bu gün biz artıq bu çəkdiklərimizin hesabını tələb etmək iqtidarındayıq və bunu edirik. Azərbaycan rəsmi İrəvandan "İsgəndər-M" raketi ilə bağlı açıqlamaları tələb edir və biz bu cavabı alacağıq. Ermənistandan fərqli olaraq Azərbaycan müharibə dövründə də məsuliyyətli ölkə kimi davranıb. Müharibə zamanı hərbi qulluqçularımız tərəfindən bir nəfər belə olsun mülki vətəndaşlara zərər yetirilmədi. Ermənistan tərəfində mülki əhali arasında 40 nəfərdən az tələfatın olması bunun açıq sübutudur."

Həmçinin Səttar Möhbalıyev qeyd edib ki, Prezident İlham Əliyevin tarixi həqiqətlərin təhrif olunmasının yolverilməzliyinə dair konfransda səsləndirdiyi fikirlər Ermənistanın bəzi revanşist əhval-ruhiyəli dairələrinə ünvanlanmış sərt xəbərdarlıq nesajı kimi qəbul olunmalıdır: "Möhtərəm dövlət başçımızın öz çıxışında toxunduğu tarixin təhrif olunması məsələsi son dərəcə vacib məqamlardan biridir. Bu gün münaqişədən sonrakı mərhələ barədə danışıqlarda iştirak edəcək bütün tərəflər başa düşməlidirlər ki, məhz bizim ərazilərimiz 30 il işğal altında qalıb. Cənab Prezidentimizin də dediyi kimi, münaqişənin tarixi təhrif olunmadan xalqın yaddaşında qalmalıdır. Xüsusilə gənc nəsil tarixi həqiqətləri olduğu kimi bilməlidir. Gənc nəsil Zəngəzurun tarixi Azərbaycan ərazisi olmasını bilməlidir. Azərbaycan ümumi gələcək naminə konstruktiv addımlar atmağa hazırdır, lakin Ermənistan ordusu tərəfindən törədilmiş vəhşiliklər də xalqımız tərəfindən heç zaman unudulmayacaq. Və əgər Ermənistanda kimlərsə yenə də revanşist şüarlar səsləndirməyə qalxarlarsa, bu, erməni xalqına daha böyük bədbəxtliklərdən başqa heç nə gətirməz".



## "Zəfər yolu"nun inşası sürətlə davam etdirilir

***Şuşanın düşməndən azad edilməsinin mənəvi rəmzi olan "Zəfər yolu"nun dövlətimizin başçısının tapşırıq və sərəncamına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən genişləndirilərək inşası davam etdirilir. Ötən il noyabr ayının 16-da, Qələbə günündən 8 gün və Ermənistanın kapitulyasiyasından 6 gün keçəndən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı təməli qoyulmuş "Zəfər yolu" cəmi 2 ay ərzində genişləndirildi. Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olundu.***

"Zəfər yolu" başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanır. Layihələndirilən yolun uzunluğu 101 kilometrdir. Dövlətimizin başçısının tapşırığına əsasən, "Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla 2 hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilir.

Artıq yolboyu genişmiqyaslı tikinti işləri həyata keçirilir. İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı" MMC və "7 nömrəli Magistral Yolların İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkəmizdə indiyədək bir neçə layihəni uğurla tamamlamış Türkiyənin "KOLİN" İnşaat Turizm San. və Tic. Anonim Şirkəti və "Azvirt" MMC birgə icra edir.

Hazırda sözügedən avtomobil yolu boyunca torpaq işləri icra olunur. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yolun profilə salınması və ikinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun olaraq suların ötürülməsini təmin etmək məqsədilə dairəvi boru və düzbucaqlı su keçidləri, həmçinin zəruri olan yerlərdə 3 yeni avtomobil körpüsünün inşası da aparılır. Körpülərin uzunluqları 33, 99 və 75 metr olmaqla yolun 0.6-cı, 26-cı və 57-ci kilometrlik hissələrində layihələndirilib. Bununla da bu avtomobil yolu ilə rahat gediş-gəliş təmin olunacaq.

"Zəfər yolu"na cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinin sürütləndirilməsi ilə yolun asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilməsi nəzərdə tutulur. Sözügedən prosesin həyata keçirilməsi ilə cari ilin sentyabr ayınadək yolun tam olaraq 2 hərəkət zolağı enində asfaltlanaraq istifadəyə verilməsi planlaşdırılır.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir.

"Zəfər yolu" işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilir. Avtomobil yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək.

Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin nəqliyyat, rabitə və yüksək texnologiyalar İşçi Qrupu çərçivəsində digər aidiyyəti dövlət qurumları ilə koordinasiyada həyata keçirilən bu yol layihəsi Qarabağın vahid nəqliyyat konsepsiyasının ayrılmaz tərkib hissəsini təşkil edir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# ABŞ hərbi gəmilərini Qara dənizə göndərməkdən imtina etdi



***ABŞ hərbi gəmilərini Qara dənizə göndərmək planını təxirə salınıb.***

Unikal.org-un Türkiyənin Xarici İşlər Nazirliyinə istinadla verdiyi məlumata görə, bu barədə ABŞ-ın Türkiyədəki Səfirliyindən bildirilib.

Qeyd edək ki, ABŞ iki hərbi gəmisinin İstanbul boğazından Qara dənizə çıxacağı ilə bağlı keçən həftə Türkiyəyə məlumat vermişdi.

Bildirilmişdi ki, ABŞ Donanması gəmilərini Qara dənizə göndərilməsi Ankara ilə imzalanmış Montre konvensiyası çərçivəsində olacaq və iki hərbi gəmi may ayının 4-nə qədər Qara dənizdə qalacaq. Amma sonradan bu plan təxirə salınıb.

# "Ermənistan nə özünə, nə də tarixinə güvənir" - Çavuşoğlu

***"Qondarma "erməni soyqırımı" ilə bağlı Ermənistana ortaq komissiya yaratmaq barədə təklif vermişdik. Ermənistan nə özünə, nə də tarixinə güvənir, əksinə propaqandaya üstünlük verir".***

Unikal.org-un xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu NTV telekanalına müsahibəsində deyib.

ABŞ-ın yeni administrasiyası tərəfindən 24 aprel-qondarma "erməni soyqırımı"na hansı reaksiyanın olacağına dair suala cavabında XİN başçısı qeyd edib ki, deyiləcək hər hansı bir sözlə tarix dəyişməyəcək.

# Levon Ter-Petrosyan koronavirusa yoluxub

***Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyan koronavirus testindən keçib, nəticə müsbət olub.***

Unikal.org "Sputnikarmeniya"ya istinadən xəbər verir ki, bu barədə Levon Ter-Petrosyanın mətbuat katibi Arman Musinyan "Facebook"da məlumat yayıb.

Qeyd edib ki, sabiq prezidentə profilaktik müalicə təyin olunub: "Ter-Petrosyan evdə həkimlərin nəzarəti altında müalicə olunur".

# Baydenlə Əşrəf Qəninin telefon danışığı oldu

***ABŞ Prezidenti Co Baydenin Əfqanıstan Prezidenti Əşrəf Qəni ilə telefon danışığı olub.***

Bu barədə Unikal.org "RİA Novosti"yə istinadən xəbər verir. "Bu gün mənim prezident Cozef Baydenlə telefon söhbətim oldu, biz ABŞ-ın sentyabrın əvvəlindən başlayaraq qoşunlarını Əfqanıstandan çıxarmaq qərarını müzakirə etdik. Əfqanıstan İslam Respublikası ABŞ-ın qərarına hörmət edir və biz tərəfdaşlarımızla işləyəcəyik.

Biz əməkdaşlığımızın növbəti mərhələsinə keçid müddətində sülh səylərinin həyata keçirilməsini davam etmək üçün ABŞ-dan və NATO-dan olan partnyorlarımızla işləməyə davam edəcəyik", - Qani özünün tvitterdəki səhifəsində yazıb.

Qaninin sözlərinə görə, Əfqanıstanın təhlükəsizlik və müdafiə qüvvələri ölkəni və xalqı qorumağa tam ölçüdə qadirdir.

# "Azərbaycan kəşfiyyat peyki alanda, Ermənistan torpaq alırdı" - Paşinyan

***"2017-ci ildə Azərbaycanın iki peyki vardı, onlardan birini - kəşfiyyat peykini almışdılar. Bəli, Azərbaycan kəşfiyyat peyki alanda, Ermənistan hakimiyyəti Yunanıstan adalarında, Avropada, mümkün olan yerlərdə torpaq sahələri alırdı".***

Unikal.org xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan deyib:

"Deyirlər ki, mən qərar vermişəm: "Serj Sarkisyan Lələtəpəni verdi, mən isə deyirəm, gedin, alın" və bu zaman 700 nəfər həlak olub. Bu tamamilə absurddur. Bu əməliyyat təklifi generala məxsusdur, onu reallaşdırmaq qərarını general verib. Biz 20 illik xəyanət, 20 illik kapitulyasiya ilə mübarizə aparırıq".

# Ermənistanda "Böyük depressiya" dövrü başlayıb

***Ermənistanda yaşanan siyasi böhran və növbədənkənar seçki hazırlığı gündəmi zəbt etdiyindən, iqtisadi problemlər bir qədər diqqətdən kənarda qalıb. Halbuki, ən maraqlı proseslər məhz həmin ölkənin iqtisadi sferasında gedir. Çünki dünyada əksər dövlətlərin iqtisadiyyatı pandemiya şokundan çıxmağa hazırlaşdığı bir vaxtda Ermənistan iqtisadiyyatı əksinə, əlavə olaraq, bir də müharibə şokunu yaşadı. Bu isə 2021-ci ildə iqtisadiyyatın bərpa templərilə bağlı verilən bütün proqnozları alt-üst etdi.***



Bu sözləri Ukrayna Ticarət Evinin baş direktoru, iqtisad elmləri doktoru, professor Əlibala Məhərrəmzadə deyib. O, xatırladıb ki, müharibəyə qədər irəli sürülən proqnozlarda 2021-ci ilin sonuna qədər Ermənistan iqtisadiyyatının 2019-cu ildəki səviyyələrə qayıda biləcəyi söylənilirdi. Amma indi həmin proqnozun vaxtı 2023-cü ilə qədər uzadılıb. Yəni nəinki bu il, hətta gələn il də Ermənistan pandemiyaya qədərki iqtisadi vəziyyəti bərpa edə bilməyəcək.

- Beynəlxalq Valyuta Fondunun qiymətləndirməsinə görə, 2020-ci ildə Ermənistanda iqtisadi geriləmə 7 faiz olub. Cari il üçün 1 faizə yaxın artımdan danışılsa da, nəzərə almaq lazımdır ki, burada söhbət əsasən iki drayverdən gedir - daxili istehlakdan və xaricdəki miqrantların köçürdükləri pullardan. Ona görə də, dövlət büdcəsində bu il üçün rəsmən ploqnozlaşdıran 3,2 faizlik artım əsla inandırıcı görünmür. Ölkənin Mərkəzi Bankı artıq həmin proqnozu 1.4%-ə qədər endirib, amma hətta bu da şişirdilmiş rəqəmə oxşayır. İnfliyasiyanın rəsmən göstərilən 4 (▪1,5) faizdən xeyli çox olacağı isə heç bir şübhə doğurmur. Elə mart ayında bu rəqəm artaraq, 5,8 faizə çatdı (fevralda 5,3 faiz idi). Milli valyuta ilə bağlı da əsl dram yaşanır: Son 5 ayda o, 10% ucuzlaşıb. Mərkəzi Bank hələ ki, çətinliklə də olsa, 1 dolları 510 dram həddində saxlaya bilib, amma ekspertlərin fikrincə, ilin sonuna doğru dolların məzənnəsi 600 drama yaxınlaşacaq,- deyə Əlibala Məhərrəmzadə bildirib.

Ekspertin sözlərinə görə, hazırda iqtisadi geriləmə fonunda yüksək infliyasiya və istehlak qiymətlərinin durmadan artması, xüsusilə ərzağın bahalaşması Ermənistanda ciddi sosial problemlə çevrilməkdədir. Son bir neçə ayda əsas ərzaq məhsulları 20-40 faiz bahalaşıb: "Düzdür, bu proses hazırda bütün dünyada gedir, amma qlobal vəziyyətin üstünə Ermənistandakı ikiqat böhranı da gələndə, həqiqətən, qorxulu vəziyyət yaranır. Dramın ucuzlaşması səbəbindən, idxal edilən məhsulların qiymətinin qalxmasını da bura əlavə etmək lazımdır. Ermənistan isə un, şəkər, günəbəxan yağı kimi bir sıra ilkin tələbat məhsullarını tam olaraq xaricdən idxal edir. Nəticədə, onların qiymətində maksimal bahalaşma qeydə alınıb. Ötən il ölkədə kasıbçılıq 5% çoxalıb. Yerli mütəxəssislər qeyd edirlər ki, bu gedişlə, 2021-ci ilin sonuna doğru Ermənistanda hər iki nəfərdən biri kasıbçılıq həddində yaşayacaq".

Professor xatırladıb ki, vəziyyəti düzəltmək ümidilə İrəvan yanvar ayında 750 milyon dollarlıq avroobliqasiyalar buraxıb, üstəlik, BVF-dən əlavə 400 milyon, Rusiyadan 1,15 milyard dollar kredit almağa hazırlaşır. Amma bu addımlar milli valyutaya təzyiqləri daha da artırır: "Çünki artıq ölkənin xarici borcları 8 milyard dollara çatıb, yeni kreditləri də nəzərə alandan sonra 9.5 milyard dolları keçəcək. Ölkənin ümumi daxili məhsulunun cəmi $12,8 milyard dollar olduğunu nəzərə alsaq, bu, o deməkdir ki, xarici borclar ÜDM-in ? hissəsinə çatıb. Bu, çox böyük rəqəmdir, çünki Ermənistan kimi dövlətlər üçün xarici borcun maksimal həddinin ÜDM-in 37-38%-dən çox olması artıq normal göstərici sayılmır".

Daha bir vacib məqam ondan ibarətdir ki, bura qədər biz leqal iqtisadiyyatdan danışırdıq, halbuki, Ermənistanın işğal altında saxladığı Azərbaycan torpaqlarında böyük qeyri-leqal iqtisadiyyatı da vardı.

- Məğlubiyyət nəticəsində qanunsuz istismar etdiyi ən azı 100.000 hektar əkin sahəsi, 14 mədən və xeyli digər aktivlər Ermənistanın əlindən çıxıb. Söhbət qeyri-leqal iqtisadiyyatdan getdiyindən, Azərbaycan torpaqlarını istismar etmək imkanını itirdiklərinə görə ermənilərin nə qədər gəlirdən məhrum olduqlarını hələ ki, dəqiq hesablamaq mümkün deyil,- deyə Ə.Məhərrəmzadə əlavə edib.

Ekspertin fikrincə, bütün bunlar o deməkdir ki, müharibədən sonra Ermənistanda əsl "Böyük depressiya" dövrü başlayıb. Bu, özünü həm iqtisadiyyatda, həm də sosial sferada göstərəcək. Üstəlik, Ermənistan hakimiyyətinin populist bəyanatlarını kənara qoysaq, bu bataqlıqdan çıxmaq üçün məntiqli bir planları da yoxdur: "Normal dövlət belə vəziyyətdə ilk növbədə qonşularla münasibətlərini, iqtisadi əlaqələrini qaydaya salmağa çalışardı. Amma biz Ermənistandan danışırıq, normal dövlətdən yox".

## Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Erməni vəhşiliyi: Xarabalıqdan boylanan uşaqlıq - Onlar 28 illik həsrətdən sonra...

### Viran qalmış ata yurduna dönən jurnalist: "Dünya siyasətinə yön verən böyük dövlətlər, aparıcı beynəlxalq təşkilatlar hələ də Dağlıq Qarabağla bağlı adekvat davranmırlar"



***Doğulduğu, boya-başa çatdığı, həyətində yürüdüyü yeri xaraba görmək, meyvəsindən dərib yediyi ağacları yerində görməmək, uşaqlığının keçdiyi evi uçuq tapmaq, uşaqlığa dönmək üçün bir iz belə tapa bilməmək çox ağırdır. Amma bu gün Dağlıq Qarabağda işğaldan azad edilmiş torpaqlarına, evlərinə 28 ildən sonra geri dönən hər kəs bu ağrını, bu acını yaşayır. İşğaldan azad edilmiş torpaqlarına, yurd yerlərinə geri dönən insanlar öz evlərini belə tapmaqda çətinlik çəkirlər. 28 il əvvəli yada salıb uşaqlıq xatirələrinin cığırına düşüb birtəhər tapırlar öz evlərini...***

Bu günlərdə bir qrup jurnalist Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilatçılığı ilə işğaldan azad olunmuş Ağdam, Cəbrayıl və Qubadlı rayonlarına səfər edib. Onların arasında o torpaqlarda dünyaya göz açanlar da var.

"Unikal" qəzetinə həmin jurnalistlər 28 ildən sonra öz evlərinə qayıtmağın təəssüratlarını, Dağlıq Qarabağ həqiqətlərinin işğaldan azad olunmuş torpaqların simasında dünyaya çatdırılmasının yollarından danışıblar.

İlk həmsöhbətimiz tanınmış jurnalist Seymur Verdizadədir. Seymur Verdizadə Cəbrayıl rayonunun Soltanlı kəndində dünyaya göz açıb. İllərdir ki, doğulub boya-başa çatdığı torpağa həsrət qalan jurnalistin arzusu nəhayət ki, iki gün öncə həyata keçib. O, təcavüzkar Ermənistanın xaraba qoyduğu Soltanlı kəndinə, yurd yerinə geri dönüb. Seymur Verdizadə deyir ki, xarabalıqlar arasında öz doğulduğu evi çətinliklə tapıb: "Soltanlı çox dəyişib. 18 il yaşadığım evi tapmağa çox çətinlik çəkdim. Həyətimizdə 100-dən çox ağac vardı. Ermənilər hamısını kəsiblər. İkimərtəbəli, topdağıtmaz evimiz vardı. Ermənilər hətta 28 il ərzində dağıda bilməyiblər. Üstü sökülüb, tavanı çöküb, amma divarlar qala kimi yerindədir. Həmin divarlar təkcə mənim uşaqlıq illərimin deyil, həm də erməni vandallığının şahididir".

S. Verdizadə deyir ki, işğaldan öncə Soltanlı kəndində böyük bağçaları, həyətyanı təsərrüfatları olub: "Mən 10-cu sinfə keçəndə evimizi təmir etdirdik. Səbəbini bir gün atamla, anam öz aralarında danışanda eşitdim. Deyirdilər ki, "sabah, birisigün Seymurun tələbə yoldaşları qonaq gələcək. İndidən hazırlaşmaq lazımdır". Evimz o qədər böyük idi ki, biz orda bütöv bir qrupu qonaq edə bilərdik...Amma o evdə mənim bircə tələbə yoldaşım da qonaq qalmadı. 1993-cü ildə Cəbrayıl işğal olunduğu üçün evimiz ermənilərə qaldı. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkil etdiyi media-tur çərçivəsində 28 ildən sonra dünən ilk dəfə kəndimizə getdim. Ömrümün 18 ilini yaşadığım evimizi tapmağa çətinlik çəkdim. Hətta buna görə-əməlli başlı xəcalət çəkdim".

Seymur deyir ki, müharibədən sonra Azərbaycan dövləti bu vandallığı beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq üçün müəyyən addımlar atıb: "Xarici diplomatlar dəfələrlə işğaldan azad olunmuş ərazilərə aparılıb, nüfuzlu KİV-lər ölkəmizə dəvət olunub. Hesab edirəm ki, müasir dünyanın böyük hissəsi ermənilərin hansı azğınlıqları törətdiyindən xəbərdardır. Amam dünya siyasətinə yön verən böyük dövlətlər, aparıcı beynəlxalq təşkilatlar hələ də adekvat davranmırlar. Bəzi dövlətlər və beynəlxalq təşkilatlar özlərini karlığa, korluğa, lallığa vurub. Bununla belə hesab edirəm ki, işğaldan azad edilmiş torpaqlarımızın simasında təcavüzkar Ermənistanın əsl siması dünyaya nümayiş etdirilməlidir. Bu vəhşilikdən bütün dünya xəbərdar olmalıdır".

APA-nın əməkdaşı Günay Eladqızı da uşaqlığını qoyub gəldiyi Ağdamına qovuşub. Öz ata ocağına gedə bilməsə də, Ağdama qayıda bilməyinə belə şükr edir həmkarımız... Deyir ki, jurnalistika dünyada ən çətin və məsuliyyətli işlərdən biridir. Çünki istər yaşadığın cəmiyyətdə, istərsə də dünyada nə baş verirsə sən çatdırmalısan, bu sənin peşə borcundur. Burada hansı hisslər keçirməyindən asılı olmayaraq, ilk işin bu məlumatı çatdırmaqdır. Onun sözlərinə görə, Azərbaycanda jurnalistlərin üzərinə düşən ən böyük məsuliyyətlərdən biri də Qarabağla bağlı həqiqətləri dayanmadan, yorulmadan bildirmək, dilə gətirmək, qələmə almaqdır: " Bu mənim üçün ikiqat vacibdir, həm azərbaycanlı, həm də qarabağlı kimi. Müharibə vaxtı Prezident İlham Əliyevin hər gün müxtəlif media orqanlarına müsahibələr verməsi, Qarabağla bağlı həqiqətləri dünyaya çatdırması medianın nə qədər önəmli rol oynadığını bir daha sübut etdi. Çox istərdim ki, işğaldan azad olunmuş ərazilərə gedən hər bir həmkarım bunun məsuliyyətini dərindən dərk etsin, çünki bizim çatdıracağımız hər bir söz bir informasiyadır. 44 günlük müharibə demək olar ki, həyatımın ən sevincli, ən kədərli, həm də ən həyəcanlı günlərindən idi. Hətta gecələr belə gözümə yuxu getmirdi. Zəfər qazanmaq isə həyatımın ən qürurlu hadisələrindən biri idi, çünki mən də bu cəmiyyətin bir üzvüyəm. Bütün dünya qarşısında qürurumuzun tam bərpası üçün bu zəfərə çox ehtiyacımız var idi, təkcə cəmiyyət olaraq yox, həm də fərd olaraq. 44 günlük müharibə başa çatandan sonra ən böyük arzularımdan biri də işğaldan azad olunmuş ərazilərə səfər etmək idi, ən çox da doğulduğum Ağdama. Gedəndə hansı görüntülərlə qarşılaşacağımı bilsəm də, canlı görmək başqadır, bu adamı çox dərindən sarsıdır. Mən Ağdamdan çıxanda 5 yaşım var idi, yəni hər yeri tam xatırladığımı demək yalan olar. Sadəcə öz evimizi və anamın doğulub-böyüdüyü baba evimizi təxmini xatırlayıram. Amma illərdir doğmalarımın dilindən eşitdiyim yerlərin heç birini olduğu kimi görmədim, hamısı dağılmış, məhv edilmiş formadadır. Çox təəssüf ki, kəndimizə gedə bilmədim, mən Seyidlidə doğulmuşam, amma səfər proqramında Seyidliyə səfər yox idi. Bu səbəbdən Ağdama məhz Seyidlini görmək üçün getməyi çox arzulayıram, evimizin yerini də tapmaq istəyirəm, kaş ki, tapa biləm, çünki anam belə (atam rəhmətə gedib) Seyidlinin videosuna baxanda heç bir yeri tanıya bilmədi".

Jurnalist deyir ki, Ağdamda onu ən çox duyğulandıran hər yerdə lalələrin açması olub: "Təbiət özü yaşamaq uğrunda mübarizə aparıb. Ağdamda gördüklərimdən dəhşətə gəldim, heç bir insan bu vəhşiliyi edə bilməz, demək ki, bunu edənlərdə heç bir insani duyğular olmayıb. Çox istərdim ki, bütün dünyadan buna reaksiya verilsin, ermənilərin törətdikləri vəhşilikləri görsünlər, qınasınlar. Amma buna çox da ümidim yoxdur. Ümid edirəm ki, işğaldan azad olunmuş ərazilərə gedən hər bir həmkarım bunun məsuliyyətini tam başa düşər, Qarabağla bağlı gördüklərini çatdıra bildikləri bütün resurslardan dünyaya çatdırarlar".

Onu da qeyd edək ki, işğaldan azad olmuş torpaqlara səfirlərin, hərbi ataşelərin, müxtəlif dini konfensiyaya malik şəxslərin, eləcə də xarici və yerli media nümayəndələrinin səfərləri ənənəvi hal alıb. Xarici media nümayəndələrinin işğal olunmuş ərazilərimizə səfəri çox mühüm addım kimi qiymətləndirilir. Ekspertlər də bildirir ki, biz artıq informasiya müharibəsinin yeni mərhələsinə qədəm qoymuşuq.

Müstəqil Jurnalistlərə Texniki və Hüquqi Yardım İctimai Birliyinin sədri Asəf Quliyev də belə səfərlərin davamlı olmasının vacibliyini vurğulayır. O qeyd edib ki, xarici jurnalistlərin bu vandallığı öz gözləri ilə görməsi çox əhəmiyyətlidir:

"Sözsüz ki, xarici media nümayəndələrinin işğal olunmuş ərazilərimizə səfəri çox mühüm addım idi. Çünki biz artıq informasiya müharibəsinin yeni mərhələsinə qədəm qoymuşuq. Bir neçə gün əvvəl Cənab Prezident azad olunmuş ərazilərə beynəlxalq müşahidəçilərin gələcəyini anons etmişdi. Güman edirəm ki, bu səfərlər qarşımızda duran işlər üçün yaxşı fon yaradır. Əcnəbi jurnalistlərin bu vandallığı öz gözləri ilə görməsi də çox əhəmiyyətlidir. Yəqin ki, bundan sonra da işğaldan azad edilmiş ərazilərə belə səfərlər təşkil olunacaq. Hətta istərdim ki, belə səfərlərə Azərbaycana qarşı daha qərəzli mövqeyi ilə seçilən xarici kütləvi informasiya vasitələrinin nümayəndələri də dəvət olunsun və onlar da bu faktları öz gözləri ilə görsünlər. Çox istərdim ki, belə səfərlər təşkil olunan zaman həmin yaşayış məskənlərində yaşamış insanlar da dəvət olunsunlar. O yerlərə səfər edən əcnəbilər də onların hisslərinin, həyəcanlarının şahidi olsunlar".

**Mələk Eyvazlı**

Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.

## Azərbaycanda şok olay

### 2 qadın kişinin əl-ayağını bağlayıb, təcavüz etdi

***ARB TV-də yayımlanan "Elgizlə izlə" verilişinə qonaq gələn şəxs şok iddia ortaya atıb.***

Unikal.org xəbər verir ki, Bəhruz adlı şəxs iki qadının təcavüzünə məruz qaldığını söyləyib. İddia olunur ki, Bəhruzun əl-qolunu bağlayaraq başına iş açıblar və bu anlar kameraya çəkilib. Bəhruz bu görüntülərlə şantaj olunduğunu da söyləyib.

Zərərçəkən şəxs qadınlardan birinə ərinin kömək etdiyini də əlavə edib.

## Cəlilabadda ata öldürüldü - oğlu yaralandı

***Cəlilabad rayonunda bıçaqlanma hadisəsi ölümlə nəticələnib.***

Unikal.org-un verdiyi məlumata görə, rayonun Qarazəncir kəndində ata və oğul bıçaqlanıb. Nəticədə bıçaq xəsarəti alan Ceyhun Cabir oğlu Əliyev xəstəxanaya yerləşdirilib, atası Cabir Əliyev isə ölüb.

Hazırda hadisəni törədən şəxsin kimliyi müəyyənləşdirilir.

Faktla bağlı araşdırma aparılır.

## Prokurorluq kişinin arvadını öldürməsi ilə bağlı MƏLUMAT YAYDI

***Aprelin 14-də saat 15 radələrində Ucar rayonu, Qarabörk kəndi ərazisində rayon sakini 1985-ci il təvəllüdlü Kərimova Validə Məzahir qızının bıçaqlanaraq öldürülməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Bu barədə Unikal.org-a Ucar Rayon Prokurorluğundan məlumat verilib. Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, digər prosessual hərəkətlər yerinə yetirilmişdir.

Aparılmış ilkin araşdırmalarla zərərçəkmişin əri Məmmədov Qasım Fazil oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranmış mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək Validə Kərimovanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilmişdir.

Faktla bağlı Ucar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanmışdır.

Qasım Məmmədov şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

## Ucarda bıçaqlanma olub, ölən var

***Ucar rayonunda bıçaqlanma hadisəsi baş verib.***

Unikal.org xəbər verir ki, hadisə bu gün saat 16:00 radələrində rayon ərazisində qeydə alınıb.

Ağır bıçaq xəsarətləri ilə rayon sakinləri - 1985-ci il təvəllüdlü Validə Məzahir qızı Kərimova və Qarabörk kənd sakini, 1988-ci il təvəllüdlü Qasim Fazil oğlu Məmmədov Ucar Rayon Mərkəzi Xəstəxanasına gətiriliblər. Həkimlərin səyinə baxmayaraq, V.Kərimova xəstəxanada ölüb.

Hadisənin hansı şəraitdə baş verməsi hələ ki, dəqiq məlum deyil.

Faktla bağlı araşdırma aparılır.

# Xırdalanda gənc oğlandan sevgilisinə qarşı dəhşətli əməl - Təfərrüat

***Qəbələ rayon sakini, 1992-ci il təvəllüdlü Sahib sevgilisi Arzuya Xırdalan şəhərində birlikdə yaşadıqları evdə xəsarət yetirib.***



Sahib qeyri-rəsmi yaşadığı Arzu ilə mobil telefonda başqa şəxsə mesaj yazdığına görə müahisə edib. Yumruqla gicgah nahiyəsinə vuraraq ona xəsarət yetirib. İstintaq orqanı tərəfindən Sahibin barəsində Cinayət Məcəlləsinin 128-ci (qəsdən sağlamlığa yüngül zərər vurma) maddəsi ilə ittiham elan edilib.

Təqsirləndirilən şəxs qismində ifadə verən Sahib elan olunmuş ittiham üzrə özünü təqsirli bilib. O, ifadəsində göstərib ki, Arzu ilə 2019-cu ildə tanış olub: "Bir müddət mobil telefon vasitəsilə danışdıqdan sonra onunla otaq yoldaşı kimi yaşamağa başladıq. Hadisə baş verən günü saat 21 radələrində Arzu ilə yaşadığımız şəhərciyin həyətində yerləşən mağazaya getdik. Mağazadan bazarlıq etdikrən sonra yaşadığımız evə gəldik.

Həmin vaxt Arzu "Viski" tərkibli 2, mən isə 1 "Goo" enerjili içki içdim. Bir az sonra Arzu ilə aramızda telefon üstündə sözlə mübahisə baş verdi. Onun əlindən telefonu almaq istədim. Lakin Arzu buna imkan vermədi, onun boğazından tutaraq itələdim. Arzu da mənim boğazımdan tutdu. Mübahisə vaxtı onun sifət nahiyəsindən bir şillə ilə vurdum. Arzu yataq taxtının üzərinə yıxıldı".

Sahibin sözlərinə görə, Arzu hamama keçib: "Hamamdan çıxanda Arzunun sifət nahiyəsində şişkinlik gördüm. Soyuducudan buz götürərək gicgah nahiyəsinə qoymaq üçün Arzuya verdim. Arzu buzu götürərkən evdən gedəcəyini bildirdi. Mübahisə daha da gərginləşməsin deyə siqaret almaq üçün evdən çıxdım. Siqaret alaraq yaşadığım evə gələn zaman blokun qarşısında təcili tibbi yardım briqadasının həkimlərinin Arzuya yardım göstərdiyini gördüm. Onlara yaxınlaşmadan yaşadığım evə getdim".

Sahib törətdiyi əməlindən peşmançılıq hissi keçirdiyini, hadisədən sonra zərərçəkmiş şəxslə barışdığını, barəsində olan cinayət təqibi üzrə icraata xitam verilməsini xahiş edib.

Zərərçəkmiş şəxs qismində ifadə verən Arzunun sözlərinə görə, barəsində şikayət etdiyi təqsirləndirilən Sahiblə 2019-cu ilin martında tanış olub: "Bir müddət telefonla danışdıqdan sonra onunla qeyri-rəsmi ərarvad kimi yaşamağa başladıq. Sahiblə qısqanclıq zəminində aramızda tez-tez mübahisələr baş verdiyi üçün ondan ayrılmaq qərarına gəldim.

Təxminən üç aya yaxın onunla Xırdalan şəhəri ərazisində bir evdə yaşamışıq, münasibətimiz yaxşı olmayıb".

Arzunun bildirdiyinə görə, hadisə günü mağazadan alış-veriş etdikdən sonra evə gəliblər: "Gecə saat 2 radələrində telefona baxarkən Sahib məndən kiminlə danışdığımı soruşdu. Heç kiminlə danışmadığımı bildirdirdim. Bir neçə dəqiqə keçdikdən sonra Sahibdən çay süzməsini xahiş etdim. Sahib üzərimə hücum çəkdi və telefonu əlimdən almağa çalışdı. Mənim kiminləsə danışdığımı iddia etdi. Sahibə telefonu vermədim, yataq otağına keçdim.

Sahib telefonun kodunu açmaq üçün barmağımı zorla tutaraq telefona tərəf aparmağa çalışdı. Ona imkan vermədim. Bu vaxt Sahib məni sağ əli ilə boğdu. Mən də onun boğazından tutdum. Sahib məni boğduğu zaman huşumu itirdim, o da məndən əl çəkdi.

Özümə gələndən sonra ayağa qalxdım və Sahibdən evdən çıxmağı tələb etdim. O, evdən çıxmaq istəmədiyini, telefonuma baxaraq mesajları oxuyacağını bildirdi. Mən də qışqırdım. Sahib üzərimə hücum çəkərək yumruq zərbəsi ilə sol gicgah nahiyəmdən vurdu. Zərbənin təsirindən başım fırlandı və yerə oturdum. Sahib əlini üzümə tutdu. Bundan qorxaraq güzgünün qarşısına keçdim, sol gicgah nahiyəmin şişdiyini, sol gözümün üstünə qan yığıldığını gördüm.

Sahib mənim belə vəziyyətimi görəndə mətbəxdən buz gətirdi. Maz almaq üçün evdən çıxaraq getdi".

Zərərçəkmişin ifadəsinə görə, təcili yardıma və Daxili İşlər Nazirliyinin 102-xidmətinə zəng vurub. Bir neçə dəqiqə keçdikdən sonra həkimlər blokun qarşısına gəlib: "Mənə avtomobildə ilkin tibbi yardım göstərdilər. Həmin vaxt Sahib evdə olduğu üçün evə qalxmadım və həyətdə oturacaqda əyləşdim".

Arzu qeyd edib ki, səhər saat 9 radələrində Abşeron rayon Polis İdarəsinə gedib və şikayətçi olub. O, ifadəsinin sonunda Sahiblə barışdığını və ona qarşı heç bir şikayəti olmadığını bildirib.

Bu cinayət işi Abşeron rayon Məhkəməsində hakim Şövkət Nəcəfovanın sədrliyi ilə keçirilib. Zərərçəkmiş şikayətçi olmadığı üçün Sahibin barəsində olan cinayət təqibinə xitam verilib.

# 2 şəxs yaşlı qadının evinə girdi, əllərini və ağzını bağladı

***Quldurluq edən şəxsin başqa cinayətlərinin üstü açılıb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Şəki regional qrupundan Unikal.org-a verilən məlumata görə, iki nəfər maskalı şəxs Balakən rayonu Katex kəndində tək yaşayan ahıl qadının evinə gecə saatlarında daxil olaraq onun əllərini və ağzını bağlayıb, pul və qızılların yerini deməsi üçün bıçaqla hədə-qorxu gəliblər.***



Məqsədlərinə nail olduqdan sonra qadına xəsarət yetirib oradan uzaqlaşıblar. Daxil olan müraciət əsasında Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən təxirəsalınmaz əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində qeyd edilən quldurluğu törətməkdə şübhəli bilinən zərərçəkmişin həmkəndliləri - Nicat Teneşov və Samir Abdulhəmidov tutularaq istintaqa təqdim ediliblər.

Quldurluq yolu ilə ələ keçirdikləri qızılların bir qismi onlardan maddi sübut kimi götürülüb.

Davam etdirilən araşdırmalarla N.Teneşovun 5 il əvvəl - 2016-cı ilin aprel-may aylarında yaşadığı Katex kəndi ərazisində daha 3 fərdi yaşayış evindən ümumi dəyəri 10 min manata yaxın olan qızıl-zinət əşyaları, 4 min manat pul və 15 min rus rublunu oğurladığı, izi itirmək üçün isə həmin evləri yandırdığı məlum olub.

Faktlarla bağlı Balakən Rayon Polis Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# İpoteka və Kredit Zəmanət Fondunun saytında "Rəy və təkliflər" bölməsi yaradılıb

***İpoteka və Kredit Zəmanət Fondu (İKZF) satmaq öhdəliyi ilə kirayə mexanizminin yaradılması ilə bağlı hazırlıq işlərinin başladığı vaxtdan bu günədək mexanizm üzrə vətəndaşların tələb və istəklərinin öyrənilməsi üçün müntəzəm sorğular təşkil edir.***

İKZF-dan "Unikal"a bildirilib ki, bununla əlaqədar fond tərəfindən vətəndaşların kirayə mexanizminə dair rəy və təkliflərinin əldə olunması prosesinin sürətləndirilməsi və daha da sadələşdirilməsi məqsədilə rəsmi internet səhifəsində (www.mcgf.gov.az) "Rəy və təkliflər" bölməsi yaradılıb. Qeyd olunan bölmə "Sorğu anketi" və "Kirayəçi məmnunluğu" alt bölmələrindən ibarətdir.

"Sorğu anketi"ndən istifadə edərək satmaq öhdəliyi ilə kirayə mexanizmi çərçivəsində mənzil sahibi olmaq istəyən vətəndaşlar yaşayış sahələrinə dair tələblərini (ərazi, otaq sayı, mənzilin sahəsi və sair), kirayəçilər isə əldə etdikləri mənzillərlə bağlı rəy və təkliflərini qeyd edə biləcəklər.

Kirayəçilərdən fonda yazılı şəkildə və ya rəsmi elektron poçt ünvanı (info@mcgf.gov.az) vasitəsilə daxil olan məktublar isə "Kirayəçi məmnunluğu" bölməsində yerləşdirilir.

Qeyd edək ki, kirayəçilərə dair tələblər, müraciətlərin qəbulu, onlara baxılması, yaşayış sahələrinin seçilməsi və rəsmiləşdirilməsi barədə ətraflı məlumatı fondun internet səhifəsindən, "1549" Çağrı mərkəzinə zəng etməklə və ya 2 saylı Bakı "ASAN Kommunal" və ya Sumqayıt "ASAN xidmət" mərkəzinə yaxınlaşaraq, həmçinin "Elektron ipoteka və kredit zəmanət" sistemində yerləşdirilmiş təlimatla tanış olaraq əldə etmək mümkündür.

# "TURKUAZ" layihəsi çərçivəsində ilk konteyner qatarı Bakıya çatıb

***"TURKUAZ" layihəsi çərçivəsində ilk ekspres konteyner blok qatarı Bakıya çatıb. Test qatarı hər biri 45 futluq olmaqla 21 konteynerdən ibarətdir. Qatarla Türkiyədən ölkəmizə 588 ton yük gətirilib.***

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Konteyner"dən bildirilib ki, şirkətin Türkiyə və Gürcüstandan olan tərəfdaşları ilə birgə hazırladığı yeni logistik məhsul - "TURKUAZ" ekspres konteyner qatarı həftədə iki dəfə olmaqla İstanbul (Asiya hissəsindən) və Mersin ətrafından Bakıya və əks istiqamətdə yükdaşımalar həyata keçirəcək. "TURKUAZ" ekspres blok qatarının səfər müddəti 6 gündən ibarətdir.

Türkiyədən Azərbaycana və əks istiqamətdə ixrac-idxal yükləri daşıyacaq qatarın müntəzəm olaraq fəaliyyət göstərməsi Bakı-Tbilisi-Qars dəmir yolu ilə daşınan yüklərin həcminin artmasına, bu xəttin imkanlarının genişlənməsinə və rəqabətqabiliyyətinin gücləndirilməsinə təkan verəcək.

"TURKUAZ" ekspres blok qatarı ilə həmçinin Avropadan Türkiyənin Qara dəniz və Aralıq dənizi limanlarına gətirilən yüklərin Azərbaycana çatdırılması nəzərə tutulur.

Qeyd edək ki, xüsusilə pandemiya dövründə, ölkələr arasında nəqliyyat əlaqələrinin məhdudlaşdığı bir şəraitdə dəmir yolu ilə daşımalar bir an da olsun dayanmadı və dəmiryolu öz effektivliyini bir daha göstərdi.

"TURKUAZ" exspres blok qatarı ilə gətirilən konteynerlər Abşeron




Logistika Mərkəzinə çatdırıldıqdan sonra burada yaradılmış müasir A+ kateqoriyalı anbarlara boşaldılacaq. Yüklər çeşidləndikdən sonra yük sahiblərinin ünvanlarına çatdırılacaq.

# Gəmiçilik ötən ilin yekunları, təhlükəsizlik və ətraf mühitin mühafizəsi haqqında hesabat hazırlayıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) 2020-ci ilin yekunları və IV rübü üzrə Keyfiyyət Sağlamlıq Əməyin Təhlükəsizliyi və Ətraf mühitinin mühafizəsi haqqında hesabatı hazırlanıb.***

ASCO-dan bildirilib ki, hesabatda sözügedən dövrdə təhlükəsizlik xəbərləri, təhlükəsizlik videoları, baş vermiş qəza və hadisələr, tibbi hesabat, KSƏTƏMM statistikası, xarici və daxili auditlər, monitorinqlər, əməyin mühafizəsi, yanğın təhlükəsizliyi, ekologiya üzrə ümumi nöqsanlar, ətraf mühitin mühafizəsi üzrə məlumatlar, I, II, III rüblər üzrə çatışmazlıqların müqayisəsi, IV rübdə Təhlükəsizliyin Keyfiyyət idarəetmə sisteminə edilmiş dəyişikliklər, hazırlanmış Təhlükəsizlik




bülletenləri, SƏTƏMM üzrə keçirilmiş təlimlər və sair kimi məsələlər haqqında ətraflı məlumat yer alıb.

Qeyd olunub ki, 2020-ci ilin IV rübü ərzində ASCO-nun bütün idarələri üzrə əmək qabiliyyətinin itirilməsinə yol verilmədən iş saatların miqdarı 3 milyon 4 min 40 saat təşkil edib.

Hesabatda koronavirusla əlaqədar tətbiq olunan karantin rejimi ilə bağlı ASCO-da həyata keçirilən tədbirlərdən bəhs olunub. Təhlükəsizlik hesabatında qarşıdakı hədəflər barədə də geniş məlumat verilib.

Qeyd edək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də koronavirus pandemiyasından öncə hər rübün sonu və ilin yekununda "Təhlükəsizlik Günü" keçirilirdi. Pandemiya ilə əlaqədar olaraq hazırda bu tədbir təxirə salınsa da, ASCO üzrə Keyfiyyət Sağlamlıq Əməyin Təhlükəsizliyi və Ətraf mühitinin mühafizəsi haqqında rüblük və illik hesabat hazırlanaraq aidiyyəti strukturların diqqətinə çatdırılır.

# "Azəriqaz" payız-qış mövsümünə hazırlıqlara başlayıb

***"Azəriqaz" İstehsalat Birliyi 2021-2022-ci illər üçün payız-qış mövsümünə hazırlıqla bağlı bir sıra mühüm tədbirlər planının icrasına başlayıb.***

Birlikdən bildirilib ki, bu tədbirlər planına uyğun olaraq korroziyaya uğramış və qəzalı şəraitdə olan qaz xətlərinin yeniləri ilə əvəzlənməsi, vətəndaş müraciətləri əsasında küçə xətlərinin çəkilməsi, qaz xətlərinə mövsümi qulluq, torpaq üzərinə düşən böyük diametrli qaz xətlərinin beton dirəklər üzərinə qaldırılması, abonent sayı artmış yerlərdə (xüsusən Bakı şəhəri) tələbata uyğun olmayan qaz kəmərlərinin daha böyük diametrli qaz kəmərləri ilə əvəzlənməsi və sair işlər görüləcək. Nəticədə minlərlə abonentin qaz təchizatı yaxşılaşacaq, şəbəkədə dayanıqlılıq, fasiləsizlik, etibarlılıq təmin ediləcək.

Həmin tədbirlərdən biri olaraq bu gün Nəsimi rayonu ərazisində Azadlıq prospekti ilə F.Qasımzadə küçəsinin kəsişməsində yeraltı qaz xəttinin üzərindəki istifadəyə yararsız siyirtmə yenisi ilə əvəzlənəcək. Eyni zamanda, avtomobil yolunda təmir işləri aparıldığı bir vaxtda həmin ərazidən keçən qaz xətlərinə texniki baxışın aparılması üçün də yaxşı fürsət yaranıb. Belə olan halda bu yerdəki qaz kəmərlərinin əsaslı təmiri prosesi önə çəkilib ki, sonradan yolda bir daha qazıntı işi aparılmasın. Bütün bu tədbirlərin icrası zamanı aprelin 15-də səhər saat 10:00-dan etibarən Azadlıq prospekti, M.Qaşqay, E.Tağızadə, E.Qasımzadə, A.Səhhət, S.Əsgərova, R.Axundov, S.Rəhimov, Ş.Bədəlbəyli, H.Ələsgərova, Q.Quliyev və digər bir neçə küçədə qazın verilişində müvəqqəti fasilə yaranacaq. Qaz təchizatında bərpa işlərinin texniki olaraq tələb olunan vaxtdan ən azı 2 saat öncə başa çatdırılması planlaşdırılır.

# "Azərenerji": "Yaşma" yarımstansiyası əsaslı şəkildə yenidən qurulur

***"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti (ASC) respublikanın şimal-şərq rayonlarının, eləcə də Abşeron yarımadasının elektrik enerjisi təchizatında mühüm əhəmiyyət kəsb edən, Rusiya və Azərbaycan enerji sistemləri arasında yük mübadiləsini həyata keçirən, strateji əhəmiyyətli 330, 220, 110 kilovoltluq "Yaşma" yarımstansiyasını əsaslı şəkildə yenidən qurur.***

ASC-nin mətbuat xidmətindən bildirilib ki, "Azərenerji" itkiləri azaldıb, maliyyəyə qənaət layihəsi təqdim edir. Reaktiv gücün kompensasiyası layihəsi çərçivəsində keyfiyyət artacaq.

Enerji sistemi üçün mühüm düyün nöqtəsi olan "Yaşma" yarımstansiyası 50 il əvvəl tikildiyi üçün istismar müddətini başa vurmuşdu. Bu səbəbdən də teztez qısaqapanmalara, enerji sistemində qəza vəziyyətinin yaranmasına səbəb olurdu. Bunun üçün müasir tələblərə cavab verən yeni avadanlıqlar quraşdırılır, avtotransformatorlar daha güclüləri ilə əvəz edilir, açıq paylayıcı qurğular genişləndirilir. Yarımstansiyada müasir avadanlıqlarla təchiz ediləcək yeni inzibati idarətmə binası tikilir, məsafədən idarəolunan müasir "SCADA" dispetçer sistemi yaradılır.

Qeyd edək ki, "Yaşma" yarımstansiyasına yeni tikilən "Qobu" yarımstansiyasından 42 kilometr məsafədə 330 kilovoltluq yüksəkgərginlikli elektrik xətti çəkilir. Ən əsası isə "Yaşma" yarımstansiyasında reaktiv gücün kompensasiyası istiqamətində əhəmiyyətli layihə gerçəkləşdirilir. Belə ki, Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində şuntlayıcı reaktorlar quraşdırılıb ki, onlardan biri məhz respublikanın şimal-şərq rayonlarını, eləcə də Abşeron yarımadasını əhatə edən 330 kilovoltluq "Yaşma" yarımstansiyasında olacaq. Digər reaktor isə Qarabağ və ətraf rayonları əhatə edən 330 kilovoltluq "Goranboy" paylayıcı məntəqəsində quraşdırılır.

Azərbaycanın enerji sisteminin 2 əsas düyün nöqtəsində qoyulan şuntlayıcı reaktorlar yüksəkgərginlikli 330 kilovoltluq elektrik verilişi xətlərinin tutum reaktiv gücünü qəbul edərək tənzimləyəcək. Xətlərin ötürmə qabiliyyətini artırmaqla bərabər texniki itkiləri azaldacaq və bununla yükün keyfiyyətini yüksəltməyə, böyük miqdarda elektrik enerjisinə və maliyyə vəsaitinə qənaət etmiş olacaq.



## İçməli su probleminin həlli üçün yeni layihənin icrasına başlanılır

***"Azərsu" ASC Neftçala rayonunun içməli sudan əziyyət çəkən kənd və qəsəbələrində yeni layihənin icrasına başlayır.***

Unikal.org xəbər verir ki, bu barədə quruma istinadən xəbər verir. Məlumata görə, layihə 12 yaşayış məntəqəsini (Mirqurbanlı, Həsənabad, Qoltuq, Uzunbabalı, Mirzəqurbanlı, Tatarməhlə, Abbaslı, Kürqarabucaq, Birinci Qaralı, İkinci Qaralı, Qədimkənd, Yuxarı Qaramanlı kəndləri) əhatə edir. İndiyə qədər bu yaşayış məntəqələrinin içməli su təchizatı modul tipli sutəmizləyici qurğular hesabına aparılırdı. Qlobal iqlim dəyişikilyi nəticəsində Kür çayında suyun azalması və Xəzər dənizi suyunun çay istiqamətində axması səbəbindən ilin isti dövrlərində həmin qurğuları xam su ilə təmin etmək mümkün olmur.

Yeni layihəyə əsasən, rayonun 5 kəndini (Kürqarabucaq, Birinci Qaralı, İkinci Qaralı, Qədimkənd, Yuxarı Qaramanlı kəndləri) içməli su ilə təmin etmək məqsədilə 450 mm diametrli polietilen borularla 11 km uzunluğunda magistral su kəmərinin tikintisi nəzərdə tutulub. Eyni zamanda yeni çəkiləcək magistraldan kəndlərdəki modul tipli sutəmizləyici qurğulara qədər 6 km paylayıcı su xətləri çəkiləcək. Yaradılacaq yeni infrastruktur içməli su ilə ötən il istismara verilmiş Şirvan-Muğan qrup su kəmərindən Neftçala şəhərinə çəkilmiş magistraldan təmin olunacaq.

Mirqurbanlı və Həsənabad kəndlərinin, həmçinin Qoltuq məhəlləsinin su təchizatı Neftçala şəhərinin şəbəkəsi hesabına aparılacaq. Bu məqsədlə şəhər şəbəkəsindən həmin kəndlərə 5,7 km uzunluğunda yeni xətlər inşa olunacaq.

Şirvan-Muğan qrup su kəmərindən Neftçalaya çəkilmiş magistral kəmərin marşrutu boyu yerləşən Uzunbabalı, Mirzəqurbanlı, Tatarməhlə və Abbaslı kəndlərinə isə içməli su birbaşa magistraldan veriləcək. Bu kəndlərdəki modul tipli təmizləyici qurğuların təmiz su anbarına qədər ümumilikdə 3,8 km uzunluğunda yeni xətlər çəkiləcək.

7 yaşayış məntəqəsində tikinti-quraşdırma işlərinin 45 günə, digər 5 kənddə isə 75 günə yekunlaşacağı planlaşdırılır. Tikinti-quraşdırma işləri başa çatdıqdan sonra bu yaşayış məntəqələrinin 20 minə qədər sakini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunacaq. Rayonun digər kəndlərinin içməli su tələbatı isə müvəqqəti olaraq sudaşıyan maşınlar hesabına təmin ediləcək. Maşınlarla daşınan su həmin yaşayış məntəqələrindəki mövcud modul tipli təmizləyici qurğuların təmiz su çənlərinə doldurularaq ümumi istifadə üçün quraşdırılmış bulaqlara ötürüləcək.

# "Qələbə şəhidləri" kitabı Gəncədə evlərdə təqdim edildi

## Hər görüşə unudulmaz anlar, qürur, nikbinlik hakim oldu

***Gəncədən yenicə qayıtmışıq. İkinci Qarabağ müharibəsində torpaqlarımızın erməni işğalçılarından təmizlənməsində misilsiz şücaət göstərərək əbədiyyətə qovuşmuş igidlərin evlərində olmuş, valideynlərinə, doğmalarına "Qələbə şəhidləri" kitabının birinci cildini təqdim etmişik. Bu görüşlərin hər biri orijinallığı, bənzərsiz lövhələri ilə yadda qalıb. Hamısına unudulmaz anlar, qürur və nikbinlik hakim olub.***

Cəmi 18 evə baş çəkməli idik. Çünki həmin cilddə adları yer alan gəncəlilərin sayı bu qədər idi. Daha 60-dan yuxarısı ilə görüşlərimiz sonrayadır - "Qələbə şəhidləri"nin digər 9 cildində Vətən yolunda canlarını qurban verən hər bir azərbaycanlımızın adı doğulduğu şəhər, rayon, qəsəbə və kənddən asılı olmayaraq yer alacaq.




Kitabın nəşrinin, materialların toplanmasının, təqdimatının təşəbbüsçüsü İbrahim Hüseynovun sədri olduğu "Aran" Uşaqların Sağlam Gələcəyi İctimai Birliyidir. Redaktoru isə mənimlə yanaşı Azərbaycan Jurnalistlər Birliyinin üzvü, gənc həmkarım Leyla Nəsirlidir.

Birinci cildin təqdimatına başlanılıb. Salyan və Neftçalada yaşayan şəhid ailələri ilə görüşlər keçirilib. Qərara almışıq ki, imkan daxilində bu nəşrlər bilavasitə həmin igidlərin həyata pərvazlandıqları doğma yurdlarında valideynlərinə, yaxud əzizlərinə əl-əl verilsin. Gəncəyə səfərimizdə də bunu planlaşdırmışdıq. Baxmayaraq ki, Şəhər İcra Hakimiyyətində çoxdan bəri yaxından tanıdığım şöbə müdiri Həsən müəllim də bütün gününü bu işə sərf etməyə hazır idi. O, təşəbbüsümüzü xeyirxahlıq nümunəsi adlandırdı, söhbət əsnasında vurğuladı ki, birinci cilddə 18 nəfər gəncəli şəhid barədə materiallar toplanıb, ümumi sayları isə 80-ə yaxındır. Yaratdığımız "Gəncə şəhidləri" saytından istədiyiniz məlumatı əldə edə bilərsiniz, biz də köməyimizi əsirgəməyəcəyik.

Belə razılaşdıq ki, ünvanlar əlimizdə olduğundan rəsmi şəxslərsiz qapıları özümüz ərklə döyək. Belə də etdik. Birinci şəhərin Todan qəsəbəsində yaşayan Səlim Hümbətovun qapısını döydük. Bakıda olanda dəfələrlə zəngləşmişdik, kitab istəmişdi. Demişdik evində şəxsən özünə təqdim edəcəyik. Hümbətovlar ailəsi Gəncədə hərbi vətənpərvərlik məktəbi də sayıla bilər. Özü də, qardaşı Sabir də birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Hər ikisi xüsusi təyinatlı qüvvələrin tərkibində döyüşlərdə iştirak edib. Hərbi pensiyaçıdırlar. Oğlu Ruslan atasından və əmisindən nümunə götürüb. İki uşağı yadigar qalıb. Yəqin oğlu 7 yaşlı Səlim də nə vaxtsa ata yolunu davam etdirəcək.

Ruslanın döyüş yolundan, igidliklərindən ailədəki muzey-guşə söhbət açırdı. Azı bir kitablıq mövzu var. Eləcə də ata yurdlarında olduğumuz hər bir ölməz igidimizin həyatı yazarlara geninə-boluna mövzular verir.

Adıgözəlov ailəsində isə Allahverdi kişi və Sücaət nənə ilə söhbətlərdən aydın oldu ki, əslən Güney Azərbaycanın Əhər şəhərindəndirlər. Hər iki Qarabağ müharibəsində əslən Cənubdan olanların şücaətlərindən fəxrlə danışdılar. Nəvələri İbrahim Azər oğlu Məmmədovun nəinki bu qəhrəman nəslə, eləcə də igidlər yurdu Gəncəyə şərəf gətirməsi ilə fəxr etdiklərini dilə gətirdilər. Allahverdi kişi balaca nəvəsi Arazı göstərərək dedi ki, yavaş-yavaş ona niyə bu adı qoyduğumuzu anlatmaqdayıq.

Təbii ki, missiyamız nə qədər nəcib olsa da köməksiz keçinə bilməzdik. Bu mənada şəhər 4 saylı musiqi məktəbində pianino müəllimi işləyən Sara Əkbərova da yaddaşımızda qaldı. Təkcə dəstəyə görə yox, həm də əzizini cəbhədə itirmiş ürəyi sızıltılı bir insan kimi. Beləcə şəhidlərdən mayor Aqşin Nazim oğlu İbadovun və daha iki nəfərin ailələrinə çatacaq kitabları aidi şəxslərə verməyi öhdəsinə götürdü...

Nəcib məqsədlə yola çıxana Tanrı yardımçıdır, hətta tanımadığın insanlar isə dəstək verənin olur. Yenə Gəncəyə qayıdacağıq, bu dəfə fərqli ünvanlara, daha iri həcmli yazılar qələmə almaq üçün.

***Rəhim Hüseynzadə, əməkdar jurnalist, kitabın redaktoru***

# Şəhidlər torpağa gömülmür, könüllərə köç edirlər

***Sənan Nizami oğlu Ağazadə Vətən müharibəsində Qarabağın azadlığı naminə oddan-alovdan keçərək Zəfər tariximizdə silinməz iz qoydu.***

Qəhrəman Vətən oğlu Lənkəran rayonunun Göyşaban kəndində anadan olmuşdu. Azərbaycan Silahlı Qüvvələrin əsgəri Füzuli rayonu uğrunda gedən ağır döyüşlərdə qəhrəmancasına canını Vətəninə, torpağına fəda edəndə ömrünün 20-ci baharına qədəm qoymuşdu. Milyonların ürəyində mərdlik, igidlik simvoluna çevrilən Sənan Ağazadə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilibdir.

Şəhid Sənanın sevdalandığı Vətən adlı sevgilisinin sinəsinə baş qoyub qovuşduğu məkan kənd qəbiristanıdır. İndi bu, müqəddəs yer həm də bütün Göyşaban kənd camaatı üçün and yeridir. Bu günlərdə isə Lənkəran Regional Mədəniyyət İdarəsinin və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Lənkəran rayon Komitəsinin kollektivi buraya gələrək şəhidin məzarını ziyarət etmişlər, daha sonra onun ailəsinə baş çəkmişlər. Söhbət əsasında bildirilib ki, Vətən yolunda əbədiyyətə qovuşanlar xalqın ən əziz övladları sayılır. Şəhid Nazim ürəklərdə yaşamaqla, heç vaxt unudulmaz. Belə mərd övlad böyüdüb tərbiyə edən ata-anaların yanında olmaq, onların şərəfini yüksək tutmaq biz vətəndaşların borcudur. Şəhidlər torpağa gömülmür, könüllərə köç edirlər.



Şəhidin bacısı Xəyalə Lənkəran MKS-nin Göyşaban kənd kitabxana filialında kitabxanaçıdır. O, nümunəvi xidmətinə görə Azərbaycan Respublikası Mədəniyyət Naziri cənab Anar Kərimovun əmrinə əsasən 2 Fevral-Gənclər günü münasibətilə fəxri fərmana layiq görülmüşdü. Lənkəran Regional Mədəniyyət İdarəsinin rəisi Vüsal Nəsirli həmin fəxri fərmanı şəhidin bacısına təqdim etmişdir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Virusun gətirdiyi uğur, dünyanın izlədiyi ailə, cırtdan evdə bir gün - REPORTAJ



***...Tale onu Moskvaya, Pekinə, hətta uzaq Floridaya, Mayamiyə belə aparıb çıxarmışdı. Qusarın dağ kəndindən, Hildən olan bu cavan oğlanın, necə deyərlər əlinin duzu çox qısa zamanda uğur qazandırmışdı ona. Və...***

Və günlərin bir günü okeanın o biri tayından durur gəlir kəndlərinə. Ana-atasını görməyə. Amma geri qayıda bilmir. Lənətə gəlmiş pandemiya...

Hə, qayıda bilmir geri. Amma bu pandemiyanı nə qədər lənətləsə də, bir şöhrət də gətirir ona. Bu gün onu on milyonlarla insan tanıyır dünyada. Milyon yarım insan isə hər gün onu - Əmiraslanı izləməkdədir. Təkcə Əmiraslanı da yox ha? Anası Əzizə xalanı, atası Hörmət kişini. Onların bişirib hazırladıqları ləziz-ləziz təamları. Və o təamların necə hazırlanmasını...

Qusarın mərkəzindən 15 km aralıda yerləşir Hil. Ən böyük kəndidir rayonunun. Hə, yaddan çıxmamış onu da deyək ki, bir zamanlar rayonun mərkəzi də elə Hil olub.

Evlərini tapmaq o qədər də çətin olmadı. Həmkəndliləri dünyaca məşhur yerlilərinin evinə gedən yolu həvəslə göstərdilər bizə.

Qapını döyürük. Bizi Hörmət kişi qarşılayıb evə dəvət edir. Bir az da gileylidir nədənsə. Bunun səbəbini isə bir azdan biləcəyik...

Onlar nəinki Azərbaycanda, bütün dünyada "Kənd Həyatı" adlı YouTube kanalıyla məşhurlaşdılar. Təbiətin qoynunda, ocaqda bişirdikləri müxtəlif yeməklərin hazırlanmasını elə bu kanala yüklədikdən sonra bir də gördülər ki, milyonlarla insan onları izləyir.

- Bu, oğlumun ideyası idi. O, uzun müddət xarici ölkələrdə aşpaz kimi fəaliyyət göstərib, Moskvada, Pekində və Amerikanın Florida ştatında, Mayamidə işləyib. Keçən il bizi görməyə gəldi. May ayında qayıtmaq istəyirdi ki, pandemiya düşdü, gedə bilmədi. Elə o vaxtdan burada qalası oldu. Hazırda özü Bakıda yaşayır. İşsiz qaldı və bekarçılıqdan nə edim deyə düşündü. Sonra da belə bir ideya irəli sürdü. Hobbi kimi başladığı bu iş biz heç düşünməzdik ki, bu qədər maraq doğurar.

Əslində bu evdə aşpazlıq ənənəsi, necə deyərlər olub. Evin xanımı Əzizə xala kənd toylarında, məclislərdə aşpazlıq edib həmişə. Elə Əmiraslana ilk yardımçı da Əzizə xala olub.

- Oğlum "Yutub" kanalı açdı və anası yeməkləri bişirərkən çəkdiyi videoları ora yerləşdirdi. Yavaş-yavaş izləyici toplandı.

Paylaşılan videolar ingilis, rus, hətta Çin dilində subtitrlərlə yerləşdirilir. Qısa müddətdə milyon yarım abunəçi toplayan kanalın videoları dünyaca məşhur yemək səhifələrinin diqqətini çəkib. Məsələn, 26 milyondan çox izləyicisi olan "Taste Life" səhifəsi onların videolarını həvəslə paylaşırlar. Həmin videoları isə milyonlarla insan baxır.

Tərəvəzçiliklə və heyvandarlıqla məşğul olan ailə həftə ərzində iki yemək videosu hazırlayır. Bişirilən yeməklərdə özlərinin becərdiyi tərəvəzlərdən istifadə olunur. Və hər dəfə izləyicilərinə müxtəlif yeməklər təqdim edirlər.

Çəkilişləri həm evlərinin həyətində, həm də evdən xeyli uzaqda yerləşən meyvə bağlarında edirlər. Həmin meyvə bağında qurduqları kiçik ev cırtdanların evciyini xatırladır. Bəlkə də bura gələnlərin diqqətini elə videolardan gördükləri mənzərə çəkir.

- Əslində, fərqli heç nə etmirik. Öz mətbəximizin yeməklərini bişiririk. Tskan, afar (göy qutabı) və digər gündəlik hazırlanan yeməklər. Hər şey adi həyatda olduğu kimidir. Tək fərq ondadır ki, öz yetişdirdiyimiz məhsullardan yemək hazırlayırıq. Yeməklərin ocaqda hazırlanması da digər xoşagələn haldı.

Hörmət kişi deyir ki, məşhur olandan sonra onların evindən qonaq-qara əskilmir.

- Sanki bizim əlaqə nömrəmizi metroda elan ediblər. Bakının küçələrinə vurublar. Hər kəs zəng edir. Bura hər cür insan gəlir. Ailəsi ilə gələnlər də olur. Açığı, bizim onlara ayıracaq vaxtımız yoxdur. Kənd təsərrüfatı ilə məşğul olan adamlarıq. Elə bilirlər burada olanlar bekardı. Gəlirlər ki, onlara qonaqlıq verək. Belə olmaz axı.

Hə, yuxarıda qeyd etmişdik, gileylidir, narazıdır nədənsə Hörmət kişi. Bax, buna görə imiş.

- Xaricdən gələnlər də çox olur. Fransadan gələn olub. Amerikadan da gəlmək istəyənlər də var idi, amma razılaşmadıq. Biz heç kimdən heç nə istəmirik. Heç bir dəstək də gözləmirik. Vaxtı ilə gəlib bütün kanallardan çəkilişlər ediblər. Çox sağ olsunlar. Amma bundan sonra lazım deyil. Elə bu cür öz işimizə davam etmək bizə yetərlidir. Heç kimlə görüşmək istəmirik.

Əzizə xalanı soruşuruq. Evdə olmadığını deyir. Oğlu isə iki gündən sonra gələcək növbəti çəkiliş üçün. Qapının ağzında ağacdan yonulmuş stol və stulu göstərir.

- İstəyirik ki, hazırladığımız hər şey təbii olsun. Elə özüm bu stol və stulları ağacdan yonmuşam. Allah qoysa, bir neçə beləsini də hazırlayacam.

Qapın ağzında qəfil dillənir.

- Siz məni doğru anlayın. Vallah bezmişik Adam qarşılayıb yola salmaqdan. Axı biz kəndli adamlarıq. Qapıda bilirsiz nə qədər iş var? Gəlin sizə çay dəmləyim. Elə otlardan ki dadını heç vaxt unutmayacaqsınız...

...Təşəkkürümüz bildiririk. Çünki həm bizim həm də onun işləri var...

# Bir kəndin, bir nəslin Azərbaycana bəxş etdiyi Qəhrəmanlar!



***Vətən müharibəsinin ilk günündən bütün Azərbaycan xalqı kimi Qubanın igid oğulları da Ali Baş Komandan cənab İlham Əliyevin çağırışı ilə səfərbər olub ön cəbhədə savaşa atıldılar. Xaltan bələdiyyəsinin tərkibindəki Utuq kəndinin sakinlərindən olan Mövlanovlar ailəsinin isə üç təmsilçisi torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə əsil qəhrəmanlıq göstərdilər. Azərbaycan Silahlı Qüvvələrinin polkovniki Nizami Bəydəmir oğlu Mövlanov 1976-cı ilin 16 oktyabrında Quba rayonunun Utuq kəndində anadan olub.***

O, 1991-ci ildə Utuq kənd orta məktəbinin 7-ci sinfini bitirib Cəmşid Naxçıvanski adına İbtidai Hərbi məktəbə daxil olmuşdur. 1-ci Qarabağ savaşının iştirakçısı olan böyük qardaşı, o zaman kiçik gizir (indi polkovnik-leytenant) Tərlanın davamçısı olaraq vətəni qorumaq arzusu ilə yaşayan Nizami 1994-cü ildə orada təhsilini başa vurduqdan sonra Bakı Ali Birləşmiş Komandanlıq məktəbinə qəbul edilir. O, 1998-ci ildə buranı da bitirərək N saylı Hərbi hissədə leytenant rütbəsində hərbi xidmətə başlayır. 2015-ci ilin dekabrınadək müxtəlif hərbi hissələrdə yüksələn rütbələrlə fərqli vəzifələr daşıyan zabit N.Mövlanov, həmin vaxtdan 2018-ci ilin aprelinə kimi "Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzin"ndə baş müəllim işləmişdir. Polkovnik 2019-cü ildən bəri ön cəbhədə müdafiə məqsədli əməliyyatlarda N saylı hərbi hissənin qərargah rəisi kimi iştirak edib və Vətən müharibəsinin ilk günündən hərbi birləşmə komandiri kimi döyüşlərə qatılıb. Yaralanmağına baxmayaraq son döyüşlərədək cəbhədə fədakarcasına vuruşub. Xidmət etdiyi dövrdə 10-dan çox medal və 20-yə yaxın Fəxri Fərmanla təltif edilən, 2019-cu ildə "İgidliyə görə" medalına layiq görülən Nizami Mövlanov, Vətən müharibəsi Zəfərlə başa çatdığdan sonra "Şuşanın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən polkovnik Nizami Bəydəmir oğlu Mövlanova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib. 7 il təhsil aldığı Utuq kənd orta məktəbində şərəfinə məxsusi tanıtım güşəsi qurulan və Zəfərdən sonra Qubaya qayıdışı böyük təntənə və fəxarətlə qarşılanan bir oğul atası Nizami komutanı Müzəffər Ordumuzun generalı kimi görmək əksəriyyətimizin arzusudur şəksiz.

Qəhrəmanın qardaşı, 2016-cı il Aprel döyüşlərinin qazisi və təltifçisi ("Vətən uğrunda" medalı) olan polkovnik-leytenant, birinci ordu korpusunun artilleriya rəisinin müavini Tərlan Mövlanov da 44 günlük 2-ci Qarabağ müharibədə göstərdiyi igidliklərə və şücaətə görə "Azərbaycan Bayrağı" ordeni, "Ağdamın azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub. Bəydəmir müəllimin ailəsində doğulub yetişən bu igidlərlə bütün Qubalılar, bütün Azərbaycan xalqı fəxr edir və qürur duyurlar!!

***C.Alpoğlu Albantürk***

**ELAN**

**FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Qüdrətov Vüqar İzzət oğluna verilmiş AA 02228 gəmi bileti itdiyi üçün etibarsız sayılır.**

# Əliabad qəsəbəsinin sönməz ulduzu...

## Dörd dəfə komandirini ölümün pəncəsindən xilas edən, yengiloy şəhid - İsmayıl İrapov



***...44 günlük İkinci Vətən Müharibəsində tarixi və əbədi düşmənimiz, faşist xislətli ermənilərə qan udduran cəsur oğullarımız, millət seçimi etmədən döyüşlərdə birlik, əzmkarlıq və bir-birilərinə dayaq, dəstək nümayiş etdiriblər. Müharibə zamanı ən çıxılmaz, çətin, mürəkkəb vəziyyətlərdə isə bir-birilərinin ən yaxın köməkçisi və yardımçısı olublar... Respublikamızın bütün bölgələrindən olan valideynlərin alın təri ilə qazandıqları halal çörək ilə böyütmüş bu sadə gənclər bir-birilərinə arxa olaraq, təsəlli verərək, inamla, hətta ağır yaralı vəziyyətdə bir-birilərini xilas etməyə çalışırdılar. Bu oğullar bir yumruq kimi birləşərək, o, azğınlara qarşı hər an kəsərli cavablarını veriblər...***

Və, Zəfər Qələbəsinin qazanılmasında Azərbaycanda yaşayan az saylı xalqların, millətlərin, etniklərin nümayəndələri ancaq bir amal uğrunda, Azərbaycanımızın bütövlüyü və Qarabağ torpaqlarının düşməndən təmizlənməsi uğrunda döyüşüblər...

Yazılarımda qeyd etdiyim kimi, cəbhə bölgələr çox-çox uzaqda yerləşən qədim Zaqatala diyarında, bu torpaqda tarixən yaşayan bütün millətlərin cəngavərləri - düşmənə öz hünərlərini göstəriblər...

Əliabad qəsəbəsi Zaqatala rayonunun ən çox yengiloyların yaşadığı yaşayış məntəqəsidir. Qəsəbənin əhalisi 10 min nəfərdən çoxdur. Zaqatala Rayon İcra Hakimiyyətinin qəsəbə üzrə nümayəndəsi, təcrübəli ziyalı Həsən Həsənov söhbət zamanı bildirdi ki, Birinci Qarabağ Savaşında da Əliabad qəsəbəsindən onlarla vətənpərvər gənc Vətənimizin bütövlüyü və Qarabağ torpaqlarının azad edilməsi naminə vuruşublar. Onlardan bir qismi Qazi olub, 6 nəfəri isə şəhidlik statusunu alıb.

Həsən müəllimin söylədiyinə görə İkinci Qarabağ Müharibəsində qəsəbədə yaşayan 50 -dən yuxarı yengiloylu gənc həm könüllü, həm də səfərbərliklə və həmin zaman həqiqi hərbi xidməti keçirən hərbiçilərdən Azərbaycanımızın bütövlüyü uğrunda qəhrəmanlıqla döyüşüblər...

Qəsəbə icra nümayəndəsi Həsən Həsənovun verdiyi məlumata görə, İkinci Vətən Müharibəsində qəsəbədən 1 nəfər şəhadətə qovuşub, 8 nəfər isə yaralanaraq Hüquqi Qazi olublar.

Bu savaşda Əliabad qəsəbəsindən ağır döyüşlərdə mərdlik edərək, həlak olan igid yengiloylu kimdir? Onun keçdiyi qısa və şərəfli ömründən danışaq, qəsəbənin "Kürə" adlanan. obasında yaşamış, uşaqlıq, yeniyetməlik dövrünü və məktəb illərini bu obada yaşıdları ilə mənalı keçirmiş, İsmayıl Nəsrullah oğlu İrapov haqqında... Zaqatala rayonu Əliabad qəsəbəsinin sönməz ulduzu barəsində...

...Əlbəttə ki, Əliabad qəsəbəsində olduğum zaman, rayonun torpaqlarımızın işğaldan azad olunmasında cəsur, şəhid oğulları barədə ətraflı məlumatlar toplamaqla yanaşı Həsən müəllimlə birlikdə, şəhid İsmayıl İrapovu da xalqımıza tanıtmaq üçün onun ailəsi ilə görüşdük. Yenə də sadə, zəhmətkeş, nümunəvi bir ailə ilə elimizin-obamızın fəxrini Vətənə bağışlayan Nəsrulla kişi və Naimə xanımla. İsmayıl kimi ağıllı, tərbiyəli, vətənpərvər, zəhmətsevər, ağsaqqalın, ağbirçəyin hörmətini saxlamış, qəsəbə sakinlərinin sevimlisi olmuş bir gəncin valideynləri ilə...

...İkinci Vətən Savaşından sonra şəhidlik statusuna yüksəlmiş Nəsrulla və Naimə İrapovalar üçün söz yox ki, 18 yaşlı oğullarını bu çağlarda itirmək ağır itkidir, dərddir və sağalmaz yaradır... Bəli, nə qədər təsəlli versək də onlara zamansız övladın düşmən gülləsinə tuş gələrək həlak olması nə deməkdir...

...Bu ailənin iki övladı vardı: İsmayıl və onun bacısı Havva. Valideynlərinin söylədiklərinə görə İsmayıl İrapov 23 fevral 2002 -ci il tarixində Əliabad qəsəbəsində dünyaya gəlib. Qəsəbədəki, Birinci Qarabağ Savaşında həlak olan, qəsəbənin cəsur oğlu Adil Hacıyev adına 1 nömrəli tam orta məktəbinin 9 -cu sinfini müvəffəqiyyətlə bitirib.

- "Məktəbdə yaxşı oxuyurdu, məktəbin 9 -cu sinfini bitirəndə elə bilirdilər ki, o, harasa təhsilini davam etdirməyə gedəcək, dərs fənlərinin hamısına ciddi hazırlaşırdı. O, eyni zamanda Birinci Qarabağ Müharibəsində Əliabad qəsəbəsindən şəhid olan gənclərin həyatı və döyüş yolları ilə maraqlanır, öyrənər və onların qəbrlərini ziyarət edərdi" deyərək hələ də əynidən qara libasını çıxartmamış Naimə xanım çox mülayim səslə, təmkinlə söhbətini davam etdirdi: "Məktəbi bitirəndə oğlumdan soruşdum ki, "...Bala niyə oxumağını davam etdirmirsən, ürəyin hansı sənəti istəyirsənsə seç və oxu... Gələcəkdə həmin sənət sənin əlindən tutacaq..." Dedi ki, "Ana oxumaq heç vaxt gec deyil, hərbi xidmətdən qayıdandan sonra oxuyub sənət sahibi olaram, bir də ki, işğal altında olan Qarabağ torpaqlarımızı işğaldan azad edək... sonra"... Elə bil oğlum əvvəlcədən müharibə olacağını hiss etmişdi... Çox işgüzar uşaq idi, mənə də, atasına da ev və təsərrüfat işlərində yaxından köməklik edərdi. Boş vaxt keçirməzdi... Doqquzuncu sinifi bitirib, qəsəbədəki fındıq zavodunda işlədi, ailəmizə maddi cəhətdən köməklik etdi... İşdən qayıdandan sonra isə bizə əl tuturdu, biz hələ bir dəfə də olsa İsmayılı küçənin başında, yaşadığımız obada boş dayanaraq söhbət edəni görməmişik. Həqiqi hərbi xidmətə çağırılanda da oğlumuz böyük həvəslə Milli Ordu sıralarına xidmətə getdi... və..."

Şəhidin atası Nəsrulla İrapov isə söylədi ki, oğlu İsmayıl 2020 -ci ilin aprel ayında Azərbaycanın Silahlı Qüvvələrinə, yəni Milli Ordu sıralarına hərbi xidmətə gedib. Əvvəlcə oğlu Müdafiə Nazirliyinin Ağcabədidəki "N" saylı hərbi hissəsində xidmətə başlayıb.

Nəsrullah kişinin dediklərindən: "Oğlum hərbi xidmətinin ilk günlərindən vicdanla, qeyrətlə əsgərliyə başlayıb. Komandirlərinin tapşırıqlarını yerinə yetirib. Onlar oğlumun hərbi xidmətindən daima razılıq ediblər. Vaxtaşırı keçirilən hərbi təlimlərdə xüsusi ilə seçilən İsmayıl sərrast atıcı kimi birinci yer tutmuşdur. Oğlum dəfələrlə hərbi hissə komandirinin təşəkkürünü də almışdır. Hətta oğlum nümunəvi hərbi xidmətinə görə məzuniyyətə də buraxılmışdır. Ancaq evə gəlməkdən imtina etmişdir. Həmin vaxtlar artıq ermənilərin təxribatları səngimək bilmirdi. İsmayılla danışanda hər gün təlimlərdə olduğunu deyirdi... Onlar müharibənin qaçılmaz olduğunu bilirdilər. Ancaq bizə heç bu barədə heç nə bildirmirdi... Çünki azğınlaşmış mənfur düşmən Beynəlxalq qaydaları, şərtləri, danışıqları, atəşkəsi kobudcasına pozaraq, Milli Ordumuzun mövqelərini, sərhəd boyu yaşayış məntəqələrimizi daha müasir silahlardan, artileriya qurğularından mütəmadi atəşə tuturdular... Necə deyərlər, azğınlaşmış erməni köpəkləri gecə-gündüz hürürdülər..."

İsmayıl hərbi xidmətdə olduğu dövrdə and içmə mərasimindən sonra İsmayılın atası, anası və bacısı Havva onu görüşünə gediblər. Naimə xanım söyləyir ki, İsmayıl həmin görüşümüzdən çox məmnun qalmışdı, çox-çox sevinmişdi. Hərbi xidmətinin əla getdiyini söyləmiş, müharibə barədə də heç nə bildirməmiş və tezliklə məzuniyyətə gəlib görüşəcəyini demişdi. Sevimli bacısını bizə tapşırmışdı. "Bacımdan möhkəm muğayat olun, onu qoruyun, xətrinə dəyməyin, işlətməyin, qoy dərslərini oxusun, məktəbi bitirən kimi ali məktəbə oxumağa aparacağam. Yeganə bacımı mənim əvəzimə də tez-tez əzizləyin, ürəyi nə istəyirsə onu da alın. "Qardaşı" ölməyib ki, əsgərlikdən qayıdanda əvəzini çıxaram. Qayıdan da..."

...Söhbət zamanı şəhid atası qeyd etdi ki, onların oğulları ilə bu görüş son görüşü oldu. Belə ki, İrapovlar ailəsi bir də 2020 -ci ilin sentyabr ayının əvvəllərində İsmayılla telefonla danışıblar. Anası Naimə xanım daha sonra dedi: "Oğlumuz danışanda yenə də "narahat olmayın, vəziyyətimiz yaxşıdır, sakitçilikdir, özüm də, hərbiçi yoldaşlarım da yaxşıdırlar, siz özünüzdən muğayat olun, məndən nigaran olmayın, bu mənim vətəndaşlıq borcumdur. Lazım gələrsə, komandir əmr verəndə düşmənin başını da əzməyə hazırıq..." - demişdi. Oğlumuzla sonuncu dəfə 28 sentyabr 2020 -ci il tarixdə qısaca danışdıq. Artıq 27 sentyabr 2020 -ci ildə müharibə başlamışdı. Danışanda İsmayıl dedi ki, "Biz irəli gedirik; Allah sizi də, bizi də qorusun, tezliklə sağ-salamat qayıdacağıq - Qələbə müjdəsi ilə..."

...Amma, oğlum bu ölüm - dirim müharibəsində bizim üzümüzü ağ etdi, bizim təlqin etdiyimiz vətənpərvərlik ruhunu kişi oğlu kimi yerinə yetirdi..."

Bütöv Azərbaycanın, qədim Zaqatalanın, dünyaya göz açdığı Əliabad qəsəbəsinin, yengiloyların adını uca etdi - şəhid el oğlumuz İsmayıl...

Onun cəbhədə komandiri olmuş, mayor Anar Quliyev İsmayıl İrapovun müharibədə göstərdiyi qəhrəmanlıqlarındna danışdı: "Müharibə başlayan ilk gündən biz, İsmayılla birlikdə döyüşə başlamışıq. O, gənc olmasına baxmayaraq, qorxu nə olduğunu bilmirdi, əlindəki "TSKA" pulemyotu ilə ermənilərı dənləyirdi... Əvvəlcə Cəbrayıl rayonu istiqamətindən döyüşə-döyüşə Füzuli rayonunu düşmən tapdağından azad etməyə başladıq. Bu bölgə də daha ağır döyüşlərimiz oldu. Çünki, düşmən bu əraziyə daha çox canlı qüvvə, texnika toplamışdılar. Bütün çətinliklərə baxmayaraq, üstümüzə mərmi, raket yağışı yağmasına baxmayaraq, döyüşçülərimiz mərdliklə döyüşərək düşmənin həmlələrini dəf edirlər. Bizim cəsur döyüşçümüz İsmayıl İrapov 4 dəfə məni ölümdən xilas etdi, döyüş meydanından daha təhlükəsiz əraziyə çıxartdı. 2 oktyabr 2020 -ci il tarixində Füzulinin Qaraxanlı kəndini İkinci Vətən Müharibəsində ən ağır döyüşlərimiz oldu. Həmin vaxt düşmən hücumunu Ağdam istiqamətindən gözləyirdik. Lakin, faşist ermənilər Füzuli rayonunun hər tərəfindən hücuma keçərək, artileriyadan, minaatanlardan, digər iri çaplı silahlardan bizim mövqelərimizi ardıcıl atəşə tutmağa başladılar. Həmin gün elə bil göydən od ələnirdi... Biz, rayonun "Vodpad" adlanan yerdə və Qaraxanlı kəndində düşmənin dağıtdığı evlərin xarabalıqlarında yerləşmişdik. Düşməni ərazidən qovub, torpaqlarımızı onlardan təmizləmək istəyirdik. Daha güclü istehkamlar qurmuş erməni azğınları havadarlarının köməyi ilə əks hücumlarımızın qarşısını həmin anda dəf edirdilər. Həmin döyüşdə düşmən tərəf əsasən 82 -lik və 120 -lik minaatanlardan istifadə edirdilər. Mərmi yağışı altında tez-tez yerimizi dəyişməli olurduq. Mən, digər döyüşçülərimizlə, İsmayıl və Elvin Məlikovdan 30-40 metr aralıda idim. Düşmənin atdığı mərmilərin əksəriyyəti onların yaxınlığına düşdü...Düşmənin minamyot 82 -nin mərmisi bu dəfə onların yerləşdiyi mövqenin lap yaxınlığına düşdü. Artıq onların silahları susmuşdu... Çox çətinliklə də olsa özümü döyüşçülərimi yanına yetirdim. Artıq gec idi... Çünki, hər ikisi ağır yaralanmışdılar. Son nəfəsdə idilər. Yaralarını bağlasam da, təəssüflər olsun ki, onları xilas edə bilmədim. İsmayılın göz qapaqlarını bağladım, həmin döyüşdə daha 6 nəfər hərbiçimiz də ağır yaralandı. Şəhid və yaralıları çox çətinliklə də olsa döyüş meydanından çıxarda bildik... Heyf belə mərd döyşçülərimizdən..."

Qeyd edək ki, mayor Anar Quliyev növbəti döyüş zamanı ağır yaralanaraq 40 gün Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Hospitalında komada qalıb...

Bu məqamda İsamyılın altıncı sinifdə oxuyan bacısı Havvanın söylədiyi sözləri xatırlamaq istədim: "Mənim şəhid, əziz, şirin qardaşım hamımızın xilaskarıdır, o, əvəz olunmaz qəhrəmandır, yeganə qardaşımın ömrünün bahar çağlarında bu həyatdan köçdüyünə görə kədərlənsəm də, şəhadətə qovuşduğuna görə fəxrət, qürur hissləri keçirirəm. Axı, o, heç vaxt unudulmayacaq, daima qəlbimizdə yaşayacaqdır..."

...Yengiloy millətindən olan şəhid İsmayıl İrapovun atası Nəsrulla kişi də Birinci Qarabağ Savaşının iştirakçısı olub. Söylədiyinə görə, o, Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin taborunda Tərtər və Ağdam rayonlarında erməni işğalçılarına qarşı döyüşüb, şücaət göstərib, qəhərmanlıq salnaməsi yaradıb...

...İkinci Qarabağ Savaşında Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda gedən ağır döyüşlərdə 18 yaşında həlak olan, sərrast atıcı İsmayıl Nəsrulla oğlu İrapov isə 4 oktyabr 2020 -ci il tarixində Əliabad qəsəbəsindəki qəbristanlıqda son mənzilə əsil elin böyük xilaskarı kimi, ellikIə yola salındı. Ruhun şad olsun, Vətən oğlu. Qüssələnməyin, kədərlənməyin, başınızı dik tutun Nəsrulla Ata, Naimə Ana və Havva balamız! Siz qəhrəman İsmayılın əzizlərisiniz...

Ölkə başçısının sərəncamı ilə İsmayıl Nəsrullah oğlu İrapov, ölümündən sonra "Vətən uğrunda" medal ilə tltif edilib.

***Elman Maliyev***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Şuşa qalasında qəbirüstü abidələr

***Abidələr təkcə tarixi əhəmiyyəti olan hadisəyə ucaldılan heykəl, qoyulan nişangah və qədim dövrlərə aid mədəniyyət əsəri deyil. Görkəmli şəxsiyyət və tanınmış adamların məzarı üstündə onların şərəfinə yaradılan heykəltəraşlıq və memarlıq əsərləri də bu qəbildəndir. Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa qalasında da tarixdə iz qoyan görkəmli sənət adamlarının xatirəsini əbədiləşdirən qəbirüstü abidələr vardı...***

Şuşa karvansaraları haqqında məlumat verən Qarabağ tarixi, eləcə də qədim diyarın etnoqrafiyası barədə 20-dən çox kitabın müəllifi, tədqiqatçı-jurnalist Vasif Quliyev AZƏRTAC-a müsahibədə deyib: "Cıdır düzündə ana babası Mir Fəseh ağanın adı ilə adlandırılan qəbiristanlıqda Molla Pənah Vaqifin məqbərəsinin yaxınlığında Mir Möhsün Nəvvab Qarabağının qəbirüstü abidəsi vardı. Mir Möhsün Nəvvabın oğlu Mir İbrahim Ağamirzadə qəbir daşı üzərində maddeyi-tarix yazmışdı: "Böyük Nəvvaba, heyiflər olsun! Öz dövrünün arif, kamil şəxsiyyəti olmuşdur. Seyidin nəsli, peyğəmbərin pak övladı bir çox kitablar yazmışdır ki, cahanda yadigar qalsın. Allah ona rəhmət eləsin hər vaxt gecə-gündüz. Nəvvab 1919-cu il rəbiləvvəl ayının 29-da vəfat etmişdir".

1960-cı ildə UNESKO-nun xətti ilə Mir Möhsüm Nəvvab Qarabağının qəbri üzərində qırmızı mərmərdən abidə-barelyef qoyulmuşdu. Onun müəllifləri heykəltəraş Tokay Məmmədov və memar Rasim Əbdürrəhmanov idi".



Müsahibimiz mövzunu davam etdirərək bildirib: "1980-ci ildə şairin anadan olmasının 150 illiyi münasibətilə 1980-ci ildə İmarət adlanan memarlıq kompleksində Natəvanın qəbirüstü abidəsi qoyulub. Müəllifi heykəltəraş Elcan Şamilov idi. O, mövzunu xüsusi qayğı və səmimiyyətlə işləmiş, Natəvanı təkcə bədii söz ustası kimi yox, həm də bir ana, zərif qadın kimi təsvir etmişdi. Kompozisiyada əsas iki xətt - kədər və nikbinlik öz əksini dolğun şəkildə tapmışdı. Şairin üzündə məruz qaldığı bütün ağrı və çətinliklərlə yanaşı, xeyirxahlığın da izləri görünür. O, təkcə əzab çəkən bir qadın deyil, həm də mənəviyyatca gözəl insan, mübariz qəhrəmandır. Heykəltəraş Natəvana xas olan həyatı detalları kompozisiyada böyük bir ilhamla canlandırmışdı. Əsərdə üz cizgiləri, paltar bükümləri də sənətkarlıqla öz həllini tapmışdı. Şairin baxışları həyatdan vaxtsız köçmüş və yanında uyuyan oğlu Mirabbasın məzarına dikilib. Müəllif əsərdə şairin duyğu və hisslərinə ictimai məna verməyə çalışıb. Natəvanın çöhrəsi, saçları, geyimi elə ahənglə əks olunmuşdu ki, tamaşaçı, sadəcə olaraq, əsərə baxmır, elə bil axıb gələn kədərli bir melodiyanı dinləyir. Bu gözəl sənət əsəri Natəvanın həyatının bir növ rəmzi ifadəsinə çevrilib.

Tamaşaçı xalqının oduna yanan bu həssas insanın mətin iradəsinə inanır. Surətin psixoloji dərinliyi, təsvir elementləri Natəvanı tamaşaçıya bir ana kimi də təqdim edir. Bu mənada abidə Natəvanın simasında XIX əsr Azərbaycan qadınlarının yeni ifadəsidir".

Tədqiqatçı-jurnalist Şuşada ucaldılan digər qəbirüstü abidəni də xatırladıb: "Anadan olmasının 200 illiyi ilə əlaqədar olaraq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin xüsusi qərarına əsasən 1984-cü ildə Şuşada Mirzə Həsən qəbiristanlığında Qasım bəy Zakirin qəbirüstü abidəsi kiçik bir təpə üstündə - Cavanşir nəslinə mənsub olan sahədədir. Qasım bəy Zakirin qəbrinin ətrafında dəfn olunmuş XIX əsrin görkəmli şəxslərinin də məzarları bərpa edilmiş, kiçik təpəcikdə gül-çiçək və ağaclar əkilmiş, çəmənzar salınmışdı".

# "Cəfər Cabbarlı" biblioqrafiyası istifadəçilərə təqdim edilib

***1937-ci ildən ölməz sənətkarın adını daşıyan Respublika Gənclər Kitabxanası Cəfər Cabbarlının anadan olmasının 120 illik yubileyi münasibətilə onun biblioqrafiyasını yenidən işləyərək istifadəçilərə təqdim edib.***

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, bu istiqamətdə araşdırmaları 2 ilə yaxın davam edib. Gərgin zəhmət və inadlı axtarışlar nəticəsində Respublika Gənclər Kitabxanasının ədibin yubileyi münasibətilə hazırladığı yeni biblioqrafiya onun yaradıcılığının və haqqında yazılmış materialların 1907-2020-ci illərini əhatə edir.

Dörd mindən yuxarı mənbəni əhatə edən, ümumi və 4 xüsusi hissədən ibarət olan biblioqrafiyanın layihə rəhbəri Respublika Gənclər Kitabxanasının direktoru Oruc Quliyev, elmi redaktoru və "Ön söz" müəllifi filologiya elmləri doktoru, professor İslam Qəribli, elmi məsləhətçi tarix üzrə fəlsəfə doktoru, dosent Pərviz Kazımı, tərtibçilər kitabxananın əməkdaşları Tamella Məmmədova və Yeganə Sadıqlıdır.

Biblioqrafiyanın ümumi hissəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Cəfər Cabbarlının 120 illiyinin qeyd edilməsi haqqında Sərəncamının tam mətni, göstərici haqqında qısa məlumat, kitabın elmi redaktoru İslam Qəriblinin "Əbədiyaşar sənətkar" adlı "Ön söz"ü, Cəfər Cabbarlının həyat və yaradıcılığının əsas tarixləri, Cəfər Cabbarlının seçilmiş fikirləri və ifadələri, görkəmli şəxsiyyətlərin Cəfər Cabbarlı haqqında söylədikləri fikirlər təqdim olunur.




Biblioqrafiyanın 9 yarımbölmədən ibarət olan I hissəsi C.Cabbarlının Azərbaycan dilində çap olunmuş bütün əsərlərini əhatə edir. Burada sənətkarın kitabları, kitablarda, dərsliklərdə, məcmuələrdə və dövri mətbuatda dərc edilmiş əsərləri, dramları, hekayələri, poema və lirik şeirləri, satirik şeir və felyetonları, məqalələri, çıxışları, məktubları, müsahibələri, xatirələri və tərcümələrinin çap olunduğu mənbələr xronoloji ardıcıllıqla verilib.

Biblioqrafiyanın ikinci hissəsi "Cəfər Cabbarlının həyat və yaradıcılığı haqqında" adlanır.12 yarımbölməyə ayrılan bu hissədə C.Cabbarlı və onun irsi haqqında yazılan kitab, məqalə, monoqrafiya, dissertasiya, sözlərinə yazılmış mahnılar və s. bu kimi məsələlərə dair biblioqrafik təsvirlər qruplaşdırılaraq yığılıb.

Vəsaitin "Əlavələr" bölməsində "Elektron kitablar", "Filmoqrafiya", "Arxiv materialları", "İzomateriallar", "İnternet resursları" və "Cəfər Cabbarlının gizli imzaları" yarımbölmələri də verilib.

Biblioqrafiyanın III hissəsini sənətkarın həyatı və yaradıcılığı, əsərləri, haqqında yazılanlar və s. bu kimi məsələlər barədə rus və digər dillərdə olan materialların siyahısı təşkil edir.

Azərbaycan, rus və başqa dillərdə materialların öz əksini tapdığı biblioqrafik göstəricidə ədəbiyyat bölmələr daxilində xronoloji prinsip əsasında, əlifba sırası ilə verilib. Vəsaitdə ilk dəfə olaraq "Cəfər Cabbarlı dünya kitabxanalarında" bölməsi də yer alıb.

Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə tərtib edilən IV hissə "Köməkçi göstəricilər" adlanır ki, bu hissənin özü də Azərbaycan və rus dilində olmaqla iki bölmədən ibarətdir.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Biblioqrafiyanın tərtibçiləri vəsaiti tərtib edilərkən Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının, M.F.Axundzadə adına Milli Kitabxananın, AMEA Mərkəzi Elmi Kitabxanasının, AMEA-nın, Nizami adına Ədəbiyyat İnstitutunun, Nəsimi adına Dilçilik İnstitutunun, BDU-nun, ADPU-nun, ADMİU-nun kitabxanalarının fondlarından, ənənəvi və elektron kataloqlarından, internet resurslarından, C.Cabbarlının ev-muzeyi, C.Cabbarlı adına Teatr Muzeyi, M.Füzuli adına Əlyazmalar İnstitutunun, S.Mümtaz adına Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin sənədlərindən istifadə ediblər.




## Fəryad-2 filminin çəkilişi başlayır

***Mədəniyyət Nazirliyinin sifarişi ilə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Fəryad-2 adlı bədii filmin istehsalına başlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə nazirlikdən bildirilib. Qeyd olunub ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində qazanılmış qələbəyə həsr olunan filmin ssenari müəllifi və quruluşçu rejissoru tanınmış kinorejissor, xalq artisti Vaqif Mustafayevdir.

Filmin çəkilişlərinin bu ilin iyul-avqust aylarında, əsasən Vətən müharibəsi zamanı döyüş əməliyyatlarının aparıldığı ərazilərdə həyata keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, ilk "Fəryad" filmi 1993-cü ildə çəkilib. Film Birinci Qarabağ müharibəsinə həsr olunub. Baş qəhrəmanın prototipi var və burada təsvir olunan hadisələr real faktlara əsaslanır. Ekran əsəri Qarabağ müharibəsində döyüşən əsgərlərdən birinin başına gətirilən əhvalatdan bəhs edir.

## Çəkildiyim filmləri efirə vermirlər - Xalq artistindən açıqlama

***"Niyə mənim çəkildiyim filmləri gizlədirlər?". "Unikal" xəbər verir ki, bu sözləri lent.az-a açıqlamasında Xalq artisti Lətifə Əliyeva deyib.***



Lətifə xanım seriala, filmlərə çəkilməkdə ona mane olduqlarını deyir: "Qoymadılar ürəyim istəyən rolları oynayım, özləri oynadılar. Rejissor var bir aktrisanı 11 filmə çəkir, amma məni bir filmə də çəkmədi".

Xalq artisti Lətifə Əliyeva açıqlamasında yolunu kəsənləri, mane olanları Allaha tapşırdığını bildirir: "Mənə yaxşılıq edənin də qarşısına yaxşı adamlar çıxsın".

76 yaşlı aktrisa 52 yaşında xəstə oğluna qulluq etdiyini qeyd edir: "Oğlum 1992-ci ildə Kəlbəcərdə könüllü döyüşüb. Ayağı tankın altında qalıb, əsəbləri gərgindir. O da mənə qarşı olan bu münasibətə hirslənir. Onu sakitləşdirmək üçün sənətdə belə hadisələrin çox olduğunu deyirəm. Axı mən o filmlərə çəkiləndə əziyyət çəkmişəm".



## Göbələk zəhərlənmələri və müalicəsi

***Xəstəlik zəhərli göbələklərlə qidalanmalar zamanı meydana çıxır. Zəhərlənmənin əlamətləri göbələk yeyildikdən 2 saat sonra meydana çıxmağa başlayır. Göbələklə zəhərlənmə özünü aşağıdakı əlamətlərlə biruzə verir:***

- qarında ağrılar
- yuxuya meyilllilik
- aşağı arterial təzyiq
- gözdə toranlaşma
- üz və boyunda qızarma
- taxikardiya
- ağızda metal dadı
- tərləmə
- ürəkbulanma
- qusma.

Zəhərlənmənin əlamətləri yeyilən göbələyin növündən asılı olaraq dəyişir. Bəzi göbələk növləri orqanizmə daxil olduqdan 6 saat sonra böyrək, qaraciyər əlamətləri ilə özünü biruzə verir.

Xəstəyə ilk tibbi yardım:

Göbələk yeyildikdən sonra hansısa bir narahatlıq hiss olunan zaman, xəstəni təcili xəstəxanaya çatdırmaq lazımdır. Xəstəxanaya çatana kimi xəstəni qusdurmağa çalışmaq lazımdır. Əgər qida qəbulunun üstündən bir müddət keçibsə, xəstəyə bol duzlu maye içirdib təcili qusdurmağa çalışmaq lazımdır. Qusma və ishal əslində orqanizmin qəbul eləmək istəmədiyi bir şeyi, xaricə çıxarmaq üçün özünü yüngülləşdirmə vasitəsidir.

Çox vaxt xəstə, xəstəxanaya çatana qədər komaya düşür. Mümkün olarsa, əgər həkimə çatana qədər xəstənin vena daxilinə artopin məhlulu yeritmək məqsədəuyğundur.

## Alkoqol beyin toxumalarını qurudur

***Alkoqollu içkilərin qəbul edilməsi qaraciyər zədələnməsi daxil olmaqla, sağlamlıq üçün bir sıra mənfi nəticələrə səbəb olur. Bu nə qədər təhlükəli ola bilər?***

Alkoqolun ümumilikdə hər cəhətdən insan üçün ziyanlı olduğu məlumdur. Eyni zamanda onun nisbətən az miqdarda da qəbul edilməsi qaraciyər, sirrozu kimi təhlükəli xəstəliklə nəticələnə bilər.

Milli.Az deyerler.org-a istinadən bildirir ki, alkoqol təkcə qaraciyəri deyil, beyini də zədələyir. Spirtli içkilərdən istifadə demans riskini də artırır.

Aparılan son araşdırmada, orta dərəcədə belə alkoqol istehlakı, beyin həcminin azalması ilə əlaqəli olduğunu ortaya çıxıb. İçkinin qəti qəbul edilməməsi beyində zədələnmə riskini önəmli dərəcədə azaldır.

Bu, eyni zamanda sağlam həyat tərzi sürərək, düzgün qidalanma və fiziki fəaliyyəti işə salmaqla daha da effektli olar.

# Bu dərman COVID-19-a yoluxanların ağırlaşma riskini 90 faiz azaldır

***COVID-19 infeksiyası ilə bağlı aparılan daha bir kliniki elmi tədqiqat işi başa çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə "report"a Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının şöbə müdiri, tibb elmləri doktoru Nuran Abdullayev məlumat verib.

Onun sözlərinə görə, yeni tədqiqat artıq nüfuzlu "The Lancet" jurnalında dərc edilib. Azərbaycanlı alim bildirib ki, kliniki elmi tədqiqatda astma xəstələrində istifadə edilən Budesonid inhalyasiyasın COVID-19 xəstələrinə pozitiv təsirlərindən bəhs edir.

N.Abdullayev qeyd edib ki, Budesonid ilə 7 gün, gün ərzində 2 dəfə müalicə alanlarda aşağıdakı nəticələr alınıb:

- Budesonid almayanlarla müqayisədə ümumi müalicənin vaxtı azalıb
- Budesonid almayan kontrol qrupla müqayisədə Budesonid alanların temperaturu daha az davam edib
- İki həftədən sonra onların qalıcı simptomları daha az olub və buna görə də "Long COVID" simptomlarının da qarşısını ala biləcəyi düşünülür
- Budesonid alan xəstələr temperatur salıcı dərmanlardan da çox qısa müddət istifadə ediblər
- Budesonidin qəbulu təxminən 90%-ə qədər xəstəxanaya düşmə riskini azaldır. Bu dərmanın simptom başlayandan 3 gün sonraya qədər qəbulu zamanı rast gəlinib
- Yüngül yan təsirləri isə çox az hallarda rast gəlinib, təxminən 7%-ə qədər.



"Budesonidin gündə iki dəfə inhalyasiya şəklində qəbulu xəstəxanada ciddi tibbi müdaxilə riskini azaldır və sağalmağa qədər olan zamanı qısaldır. Bütün bunlar onu deməyə əsas verir ki, artıq COVID-19 müalicəsində bu dərman elmi əsaslı tətbiq edilə bilər", - N.Abdullayev bildirib.

O əlavə edib ki, Budesonid spreyinin xəstələrdə tətbiqi və kliniki tədqiqatla təsdiqi bu dərmanın astma xəstələrində istifadə zamanı onların COVID-19-u yüngül keçirməsindən sonra başlanılıb.

# Sizin enerji sahənizin olduğundan xəbəriniz varmı?

***Bütün canlıların bioenerjisi var. Bioenerji barədə nəinki, müxtəlif dinlərdə, inanclarda, hətta elmi araşdırmalarda da qeydlər aparılıb. Canlıların bioenerjisi onun daxili enerjisi və kosmosla olan əlaqəsinin vədhətindən əmələ gəlir.***

Bəzi inanclara görə insanın bədəni bir-neçə varlığın birləşməsindən ibarətdir.

Bu varlıqlar fiziki(güc), efir(görünən), astral(kosmosla bağlı) və mental varlıqlardır.Bu varlıqların hər birinin ayrılıqda öz bioenerjisi vardır.Bu enerji sahələri isə birləşərək insanın bioloji sahəsini (aura) əmələ gətirir.Bzi insanların bioenerjisi çox olur ki,bu adamlar da eksrasens adlanırlar.

İnsanın bioenerjisi onun 70-100 sm ətrafınnı əhatə edir.Auranın keyfiyyəti onun ümumi fonunun rəngi ilə təyin edilir.Auranın fon rəngi hər bir insanın özünəməxsus olur.Belə ki,hər bir insanın aurası onun temperamentindən, ürəyinin genişliyindən, ruhi vəziyyətindən , xəstəliklərindən, əhval-ruhiyyəsindən, Allaha inanıb-inanmasından asılı olur.Məsələn, xəstə,intellektual səviyyəsi aşağı olan adamın aurası qırmızı-sarı, intellekti yüksək olan adamın isə aurası yaşıl rəngdə olur. Fədakar adamların aurasının rəngi isə göy rəngin tonlarında olur.

Hər bir insanın aurası onun ətrafdakılarına təsir edir.

Canlı insanın və heyvanın əsəbi və ya ehtiraslı olduğu zaman onun bioenerjisinin rəngi dəyişilə bilir.

İnsanın aurasının rəngləri qırmızıdan göy rəngə qədər çalarda dəyişə və bulanıq rəngdə ola bilir.

Məsələn, qırmızı rəngli aura yrək yanğısı çox olan, yaşıl canlanma hissi olanlarda, qəhvəyi-yaşıl rəng isə öz istəklərini tez-tez dəyişən adamlarda



olur. Qəhvəyi-narıncı rəngdə aurası olan adamlar eqoist adamlardır.

Qırmızı-sarı qarışıqlı aura hər işlə maraqlanan adamlarda olur.

Bənövşəyi rəngli aura sahibləri isə dini inanacları olan adamlardır.

Açıq sarı rəngli aurası olan adamlar düşünüb bir nəticə əldə edə bilən adamlara məxsusdur.

# Bəzi xəstəliklər zamanı ilk tibbi yardım

***1. Gözə yad cismin düşməsi zamanı yad cisim göz qapağının altına düşüb buynuz qişanı zədələyə bilər. Buna görə də çalışıb ondan tez xilas olmaq lazımdır. Yad cisim adi qum və ya kül dənəciyi ola bilir və insanda narahatçılıq hissi yaradır. Gözə yad cisim düşdükdə ovuşdurmaq olmaz, çünki buynuz qişa zədələnə bilər. Gözdən yad cismi cıxarmaq üçün aşağı və ya yuxarı göz qapağını qabağa doğru dartır, suda islanmış təmiz yaylığın ucu ilə çıxardırlar.***

Əgər bu da kömək eləmirsə, dərin qaba su töküb gözü suyun içində birneçə dəfə açıb yumaq lazımdır.

2. Gün vurması zamanı xəstədə baş ağrıları, ürəkbulanma, qarında ağrılar və huşun itməsi baş verir. İlk yardım məqsədilə xəstəni sərin yerdə uzatmaq və təmiz havaya çıxarmaq, onu soyundurub nəm mələfəyə bükmək, başına buz və ya soyuq kompres qoymaq, buzlu içkilər vermək lazımdır.



3. Günəş yanıqları əmələ gəlməsin deyə dəriyə badam, qoz və ya şit yağ sürtmək lazımdır. Xalq arasında günəş yanıqları zamanı dəriyə xiyar suyu və ya qatıq sürtülür.

4. İldırım vurması zamanı xəstəyə təcili süni tənəffüs vermək və naşatır spirti iylətmək lazımdır. Xəstə təcili həkimə çatdırılmalıdır.

5. Qida zəhərlənmələri zamanı xəstəni təcili qusdurmaq lazımdır. Mütləq həkimə müraciət etmək lazımdır.

6. Oynaqların gərilməsi zamanı oynaqlarda ağrı, şişkinlik, hərəkətin çətinləşməsi baş verir. Gərginlik hiss olunan yerə sarğı qoyulub həkimə müraciət etmək lazımdır.

7. Sınıq və çıxıq şübhəsi olduqda həmin hissədə siddətli ağrılar olur və xəstə həmin nahiyyəni hərəkət etdirə bilmir. Bu zaman sınıq şübhəsi olan hissəni tərpənməz hala gətirib, xəstəni təcili xəstəxanaya çatdırmaq lazımdır.

8. Ürək -damar xəstəliklərinin əlamətləri təngnəfəslik, taxikardiya, sifətin göyərməsi, soyuq tər və sairədir. Bu zaman xəstəyə sakitlik vermək lazımdır. Onu yatağa uzatmalı başının altını isə hündür etmək lazımdır. Xəstənin üzünə və döşünə soyuq su çiləyir, pışikotu dəmləməsi və ya korvolol vermək olar. Xəstəni vəziyyətdən çıxardıqdan sonra mütləq həkimə müraciət edilməlidir.

# Şenol Güneş Bakıdakı matçlarda gözəl oyun vəd etdi




***”FIFA sıralamasına baxdıqda rəqiblərimizin hamısının bizdən daha yaxşı mövqelərdə olduqlarını görürük. Biz də reytinq siyahısında yüksəlmək üçün çalışırıq”.***

“Unikal” qəzetinin məlumatına görə, bunu Türkiyə milli komandasının baş məşqçisi Şenol Güneş Avropa çempionatının qrup mərhələsindəki rəqibləri dəyərləndirərkən deyib. O bildirib ki, açılış oyununda qarşılaşacaqları İtaliya yığması İsveçrə və Uelsə nəzərən daha güclü görünür.

Güneş maraqlı qrupda olduqlarını söyləyib: ”A qrupunda hər cür nəticələr qeydə alına bilər. Bunun üçün ilk matçdakı nəticəmiz önəmlidir. Heç-heçə və qələbəmiz qrupda bəzi qarışıqlıqlara səbəb ola bilər. İnanıram ki, elə də olacaq. Hər üç qarşılaşmamız çətin keçəcək. Qrupda hansı komandanın sonuncu yeri tutacağını heç kim deyə bilməz. Bu, hətta İtaliya da ola bilər. Uels də yaxşı komandadır, oyunçuları səviyyəli çempionatlarda çıxış edirlər və inkişafdadırlar. İsveçrə də maraqlı futbol oynayır, biz də eləyik. İtaliya da yaxşı yoldadır. Qrupdan birinci və ikinci yerlərin sahibləri 1/8 final mərhələsinə birbaşa vəsiqə qazanacaq. Üçüncü yeri tutanın da mərhələ adlama şansı var”.

69 yaşlı mütəxəssisin fikrincə, qrupda 5-6 xal böyük üstünlük sayılacaq, amma 4 xalı olan da 1/8 finala çıxa bilər. O, mərhələni yaxşı oyun və gözəl futbolla adlamaq istədiklərini diqqətə çatdırıb: ”Futbolda eniş-çıxışlar ola bilər, amma biz yaddaqalan, coşqulu, cəlbedici, sevilən komanda olmaq istəyirik. Özümüzü ailə komandası kimi görürük. O hissi bütün dünyaya keçirmək, həm Türkiyə futbolunu, həm də ölkəmizi tanıtmaq istəyirik. Döyüşkən, coşqulu, cəsur, inanclı komanda görüntüsü yaratmaq niyyətindəyik. Belə oyun bizi qrupdan çıxardığı zaman əsas hədəfimizə çatacağıq. Ondan sonra da hər cür sıçrayış bizim üçün uğurdur”.

Baş məşqçi hazırkı yığmanın 2022-ci il dünya çempionatına da yüksələrək, vəzifəsini çox yaxşı yerinə yetirəcəyinə inam ifadə edib: ”Bunların hamısı oyunçular üçün bir imtahan olacaq”.

Qeyd edək ki, Türkiyə millisi iyunun 11-də İtaliya ilə Romadakı Olimpiya Stadionunda, iyunun 16-da Uelslə və iyunun 20-də İsveçrə ilə Bakı Olimpiya Stadionunda üz-üzə gələcək. Bakıdakı qarşılaşmalarda tribunaların 50 faizinə azarkeşlərin buraxılacağına təminat verilib.

# Messi Cənubi Amerika futbolçularına vaksin almağa kömək etdi

***İspaniya ”Barselona”sının futbolçusu Lionel Messi Çindən Cənubi Amerika futbolçuları üçün koronavirusa qarşı vaksinlərin 50 000 dozasını almağa kömək edib.***



“Unikal” qəzetinin “The Guardian”a istinadən xəbər verir ki, arqentinalı hücumçu bu yay keçiriləcək Amerika Kubokundan əvvəl qitənin bütün futbolçularının vaksinləşmə planının gerçəkləşməsində iştirak edir. Çinin əczaçılıq firması “Sinovac”la saziş Uruqvay prezidenti Luis Lakal Pounun vasitəçiliyi ilə bağlanıb.

Vaksinlərin bir hissəsi Argentinanın birinci divizionunun 26 klubuna çatdırılacaq. KONMEBOL rəsmisi Qonsalo Belloso bildirib ki, bu liqanın bütün komandalarını peyvəndlənməsi planlaşdırılır: ”Biz istəyirik ki, Amerika Kubokundan əvvəl bütün futbolçular peyvənd edilsin və onlardan hər hansı biri oynaya bilsin”.

# Tokio-2020 ləğv oluna bilər

***Tokio Yay Olimpiya Oyunlarının tamamilə ləğv edilməsi gündəmə gəlib.***

“Unikal” qəzetinin məlumatına görə, bunu Yaponiyanın hakimiyyətdə olan Liberel-demokratik partiyasının baş katibi Tosihiro Nikai açıqlayıb.

O bildirib ki, koronavirusla bağlı ölkədəki vəziyyət pisləşərsə, Olimpiya Oyunlarının ləğvi hadisələrin inkişaf variantlarından biri olacaq: “Əgər yarışların təhlükəsiz keçirilməsi mümkünsüzdürsə, turnir ləğv olunmalıdır. Yarışın təşkili infeksiyanın yayılması ilə nəticələnəcəksə, Olimpiadanın mənası nədir? Bu mərhələdə biz qərar qəbul etməli olacağıq”.

Qeyd edək ki, ötən il keçirilməli olan Olimpiya Oyunları koronavirus səbəbindən təxirə salınıb və iyulun 23-dən avqustun 8-dək keçiriləcək.



# Naqelsmanın qiyməti bəlli oldu

***Almaniyanın “Leypsiq” klubunun baş məşqçisi Yulian Naqelsman üçün “Bavariya”dan tələb edəcəyi məbləğ bəlli olub.***



“Unikal” qəzetinin məlumatına görə, leypsiqlilər çalışdırıcısını Münhen təmsilçisinə buraxmaq istəmir.

Bu üzdən də klub rəhbərliyi 2023-cü ilin yayına qədər müqaviləsi olan Naqelsman üçün böyük məbləğdə kompensasiya almağı düşünür. Lakin hələlik “Bavariya”dan rəsmi təklif alınmayıb. Bunun baş verəcəyi təqdirdə isə “Leypsiq” 15-20 milyon avro aralığında vəsait tələb edəcək.

Qeyd edək ki, “Bavariya”nın baş məşqçisi Hans Diter Flikin yayda Almaniya millisində Yoahim Lövü əvəzləyəcəyi gözlənilir. Onu əvəzləməyə əsas namizəd Naqelsman sayılır.

# AFFA Premyer Liqa klublarına test üçün pul ödədi




***AFFA Azərbaycan Premyer Liqasında çıxış edən klublara pul vəsaiti ödəyib.***

“Unikal” qəzetinin məlumatına görə, bu ödəniş COVİD-19 pandemiyası ilə əlaqədar klubların məşqçi və futbolçu heyətinin AFFA-nın tibbi protokoluna uyğun olaraq müvafiq testlərdən keçirilməsi, ehtimal olunan yoluxmaların qarşısının alınması üçün sanitar-gigiyenik prosedurlara riayət olunması prosesinin dəstəklənməsi və sürətləndirilməsi məqsədi ilə həyata keçirilib.

AFFA tərəfindən hər bir Premyer Liqa klubuna növbəti dəfə 15 min manat maliyyə vəsaiti köçürülüb. 2020/21 mövsümündə Azərbaycan Premyer Liqasında çıxış edən klublara COVİD-19 pandemiyası ilə bağlı, ümumilikdə 328 min manat maliyyə vəsaiti dəstək olaraq ödənilib.

# Rafael Ağayev Neymar, Novak Cokoviç və Lebron Ceymslə eyni siyahıda

***Yaponiyanın paytaxtı Tokiodakı Yay Olimpiya Oyunlarında iştirak edəcək ulduzların adları açıqlanıb.***

“Unikal” qəzetinin məlumatına görə, ”Globoesporte” nəşri olimpiadanın startına 100 gün qalmış, müxtəlif idman növləri üzrə 100 ən yaxşı idmançının siyahısını tərtib edib.

Siyahıya Azərbaycanın karate üzrə 5 qat dünya və 11 qat Avropa çempionu Rafael Ağayev də düşüb. Ağayev bu idman növündə yer alan yeganə karateçi olub.

”100-lük”də Braziliya millisinin və Fransa PSJ-nin ulduz futbolçusu Neymar, məşhur tennisçilər - ispaniyalı Rafael Nadal, serbiyalı Novak Cokoviç və isveçrəli Rocer Federer, ABŞ təmsilçisi Serena Uilyams, basketbolçular Lebron Ceyms və Stefen Karri kimi digər tanınmış simalar da var.

Qeyd edək ki, Tokio Yay Olimpiya Oyunları koronavirus pandemiyası ilə əlaqədar 2020-ci il 24 iyul - 9 avqustdan bu il 23 iyul - 8 avqusta təxirə salınıb. Yay Paralimpiya Oyunları isə 24 avqust - 5 sentyabrda gerçəkləşməlidir.

# "Formula 1" pilotu koronavirusa yoluxdu

***”Formula 1” üzrə dünya çempionatında çıxış edən ”Alpine” komandasının pilotu koronavirusa yoluxub.***

”Unikal” qəzetinin xarici KİV-ə istinadə xəbər verir ki, Fernando Alonso və Esteban Okondan birinin testi müsbət nəticələnib. Onlardan hansında infeksiya aşkarlandığı məlum deyil. ”Alpine” hələ məsələyə reaksiya verməyib. Məlumat təsdiqlənəcəyi təqdirdə, pilotlardan birini İtaliyadakı Emiliya-Romanya Qran-prisində rusiyalı Daniil Kvyat əvəzləyəcək.

Qeyd edək ki, Emiliya-Romanya Qran-prisi 16 - 18 apreldə İmola trasında gerçəkləşəcək.

Səhifəni hazırladı: Aygün İlqarqızı